-**böyük daş, ağac içində oluşan boşluq:** qırın. sovağ. savağ. kovuq. boşluq..
-**körpə ağac:** tingə..

-bir yerin üstünə gələn **kiriş, tir, ağac**: gərtil: xətil. kitəl. kətil. kərtil. -ambarın **kətillərin** dəğişməliyik.
-hər ağac kökündən qurur! (bir topluluğun dayandığı təməl pozulursa o topluluq yıxılır)..
-ağac yemişindən, kişi qılmışından..
-**yetişsə yerə ağac budağı**, demək ki yetirmiş bollu barı..
-kök axmadan, **ağac axmaz**..
-**ağac dibindən su içər**..
-**ağac yıxılsa**, kölgəsi qalmaz.
-ulu ağac, boş toprağı, **ulu amac**, boş ürəyi bəğənməz. (boş urək: ölü ürək). (**ulu ağac**, **uca ağac**, dayanmağa bərk topraq arar, böyük sevinc, istəklər, tovuc (odlu), coşqun ürəklərdə yurd salar)..
-**quru ağac əğrilməz**, qoca öküz öğrəşməz.

aqaca -daş atılmamış, **yemişsiz ağaca**.

aqacan **ağacan**. **-**ağac olursa gərək, **olur ağacan**.

aqacan **ağacan**. beycan. bəycan. əziz bəy.

aqacanabad **ağacanabad** .-ağacanabad qəhbəsi. (yaman).

aqacdələn **ağacdələn**. ağacqaqan. **"qaqan**. **dələn"** də deyilir. ağac qurdların yeyib yaşayan quş.

aqacı **ağacı.**-**ağacı qurd çürüdür**, kişini dürt. (**dürt**: tıkıt. sıxta. basnağaş. zor)**.**
-anası çıxan ağacı, qızı budaq-budaq gəzər!. (anası çıxar yamacdan, qızı dırmaşar ağacdan).
-dözümün ağacı yox, gülü var.
-ağacı yalınqu pozar, yalınqu yalan. (**yalınqu**: **yalığ.** kişi. adam).
-ayrılıq var yaşam ağacı, ayrılıq var ölümdən acı.
-ağacı yaran bir pay, higgəsin deyən iki pay. (**yaran**: ayıran).
-yaşam öğrətdi ki, **ağacı yemişi, yararı ilən tanı,** sonra kökü ilən..
-**gəz ağacı**: yılğın ağacı..
-**paltar ağacı:** yaba. (çapa). neçə qollu (şanalı) asqılı duvar, yada dayalı (qıçlı), uzun, yada girdə asqısı. -**yabada** ildir: asqıdan as. -**yaba** ağır yüklənib düşü verdi.

aqacıq **axacıq. arxacıq.** qıf.

aqacın -**çıxa bilməz başına bir ağacın**, tırmadırsan bir ömürsə balığı. (içində olmasa çıxar, pox quyudan, pox çıxar).

aqacına -**çiti bağlamışdır ağacına**, yetəyin yurd başına. (**çiti**: diləniş, dilək tutub ağaca bağlanan, düğünlənən parça tikəsi).(**yetəyin**: çatarıq) (**yurd**: mənzil).

aqacqaqan **ağacqaqan**. ağacdələn. **"qaqan**. **dələn"** də deyilir. ağac qurdların yeyib yaşayan quş.

aqacla **-**itlə yoldaş, **ağacla ulaş**. (it ilə yoldaş ol, ağacı əlindən qoyma).

aqacsız -**ağacsız**, orman olmaz.

aqactan -**ağacdan yapılan** ev, duvar: çapda.

aqactan -anası çıxar yamacdan, **qızı dırmaşar ağacdan**. **(**anası çıxan ağacı, qızı budaq-budaq gəzər!).

aqactan **gəvəndən, ağacdan axan yapışqan, qoyu quyuq öğə, saqqız.** çöklək. çökələk. qıraç. qıraz. kətira. gətirgə. kəkirgə. kəkiggə. kilitgə. kitirgə. kitirə. kitrə. (**kətira**). çökələk. -əğik, gilənar ağacında **kəkirgə** bol olur.

aqactır **-ağacdır gətrən yemişi**, paradır görən hər işi.

aqactırsa -**dil ağacdırsa**, yıxılmadan dayan.

aqaçqa **ağaçqa.** ağappağ. dümağ. sinağ.

aqah **< oyğaq.** bilgin. bilən.

aqalar **ağalar**. bayın.

aqalar -**toplanın ağalar:** yığnalın əkələr.

aqalarım -**enağalarım**: (**eni: ini**: balaca) (balalı böyüklü) qardaşlarım.

aqaların -**sən bil ağaların canı**: inandıqlarıva and verirəm.

aqalı **ağalı**. şəxsiyyətli.

aqalıq **ağalıq**. **1**. şəxsiyyət. **1**. kimsənin özəl, şəxsi alanı, sahəsi. şəxsi hərim.

aqalıq **ağalıq**. qocalıq. yiyəlik. mülk. malikanə. təsərrüfat.

aqalta **ağalta**. ağqızıl. pilatin.

aqaltın **ağaltın**. pilatin.

aqam **ağam**. əfəm. -qurda sordular. -**əfəm**, nədən yoğun (dur) belə boynun?. yandı (dedi-cavabladı). -öz işimi, özüm görrəm.

aqaman **ağaman**. **ağman**. cəvanmərd. böyüklüyə yiyə olan.

aqamənіş **ağamənіş**. ağaman.

aqamşı **ağamşı**. sayıl. nəcib. müəddəb. tərbiyətli.

aqamşıq **ağamşıq**. sayışıq. nəcibanə. müəddəbanə.

aqan **1**. **ağan.** burunda danışan. -**ağan** ulubəy. **1**. **axan.** cari. **1**. **ağan**. axma ulduz. şəhab.**1. ağan**. keçmiş. aşmış. -əlli yaşından **ağan**. **1. axan.** çaxır**.** yandıran. aydınladan.**1. akan. yakan** (**yak**: yan). vəkil.
-axan, arxa gedər..
-bayraqları ağdıran, **düşüklərdən axan qan**. (**ağdıran**: qalxılzan). (**düşük**: şəhid).
-**şəpəli, coşqun axan:** çağqın > ceyhun. coşqun.

aqan **-küzədən axan içindəndir**.

aqapbaq **ağapbağ**. çinağ. sinağ. dümağ.

aqappaq **ağappağ**. ağaçqa**.** dümağ. sinağ.

aqar **ağar** (**ağdar**). duş**..**
-ağır sular, **lam axar**.**.**
-axar suda, kir qalmaz.**.**
-dərin sular, dinc axar.

aqar **axar**. **1**. arx. qənov. -**arxa** düşsə **axar** durmadan. **1**. cari. **1**. yolaş. yolaş. rayic. **1**. arx**. -arxa** düşsə **axar** durmadan. **1**. hava. -**axar bağdalı**: hava şərayiti. **1.**tuvalet. dəsşuyi. abdarxana.
-**su axar yolun tapar**, külbaş gəzər çulun tapar. {**külbaş**: alçaq. alşaq (eşşək)}..
-**var axar**, **yox baxar**.**.**
-su gəlib axar gedər, könüklünü yaxar gedər, bu dünya pəncərədir, hər gələn baxar gedər. (**könüklü**: armanlı. arzulu. həsrəti olan. həsrətli)..
-**axar çaylar qurudu**, kəsən çayı, əlin qurusun..
-**axar sular durar olsa ısqanar**. (**ısqanar**: iylənər).
-axar su, yerin tapar**.**.
-axar su, yerin tapar..

-**çox, çoxa axar**. (toxlu toxu toxdadar).

-su axar, daş qalar.

aqar **axar**. barınar**.** (gedər). -bal **barınar**. -yağ **barınar**. -çoxlu qan **barınar**. -çağ **barınar** durmadan, ölüm qapar sormadan.
-türkcə bilsən, yağ kimi bala qarışar, özü axar.

aqar -qızıqlını uşütmə basar, **soyuq tər axar.** (**qızığ**: sıtma). (sıtma kəsəlli üşüyüb, soyuq tərlər).
-yol doğrusa, **yük ağır,** min ömürlük çəkməyə nə var.

aqaramadı **ağarmdı**.-hançı bir qapqara saç, **sonunda ağarmdı**.

aqaran **ağaran**. çalaran. -**çalaran** buğ saqqal.

aqarca **ağarca**. cuş. irinli cuş.

aqardan **ağardan**. ağşarçı.

aqarı **axarı.** -yaman günlər ayağı, **qara yaşlar axarı**, elin durmuş dayağı, sınmaz beli, el dursun.
-hər iş gedəcək çaylar axarı!.(sən yapdığın yap, yapın yapılacaq). (sən qıldın qıl, olan olacaq). (yaşamda tələsib darıxmaq gərəkməz. könlü dinlə, başla qılın. (**başla**: ağılla). (evrəni sürən çalqın, çılqın yazqıdır: dünyanı çevirən dinamik fatalismdir).
-su axarı ölən balığda gedir, diri balığda. (yaşamda hər üz var).
-gedir evrən durmaq bilməz axarı. (**aşır acun** durmaq bilməz axarı).

aqarı **-göyçək duyqular axarı**, söz bulağı, qopuşan suyun calağı. (**calağı**: calanması. tökülməsi. şırrası. sırıltısı).

aqarıb -**ağarıb bozarmaq**: üzü kül kəsilmək.
-ağarıb önə düşmə, qaralıb sona düşmə, ortalığa nə gəlib.

aqarlamaq **ağarlamaq**. **aharlamaq**. arınlamaq. saylamaq. paklamaq.

aqarmaq **ağarmaq**. ağ boyanmaq. -gün **ağardı**..
-**sümüyü ağarmaq**: **(**qarqış**)** ölmək. gəbərmək. -yamanın **sümüyü ağarsın**. -**sümüyü ağarmış**.

aqarmaq **ağarmaq**. çalarmaq. bozarmaq. -**çalası** bez: rəngi qaçarı parça. -saçda **çaları**: saçda ağarı.

aqarmaq **ağarmaq**. çalmaq**.** açılmaq. parıldamaq. -**gün çalan**: gün çıxan. gün atan. gün doğan.

aqarmaq: **ağarmaq**. -qıçqılı ağarmaq: qıçqılı qıç: yaşalmaq. qocalmaq. kövəlmək. çökəlmək.

aqarmaz -**kökü qara ağarmaz**.

aqarsın **ağarsın**. **-**ulduzlar yansın, ay parlasın, **tanyeri ağarsın**, günəş saçsın.

aqarsu **axarsu**. **axımsu**. çay. ırmaq.

aqartan **ağardan**. **ağadan**. parıdan.

aqartı **ağartı.** yağ, pendir, süd, qatıq kimi yeyəcəqlər.

aqartır -**bir ağrıdır ağardır baş**, əridir daş!.

aqartmaq **ağartmaq. 1.** çallatmaq -**saqqalı çallatmaq**: saqqalı ağartmaq. **1**. çaltamaq. -**duvarı çaltamaq**: duvarı, duvağ (ağ) boyamaq. kiräçləmək**.1**. gizli, tutuğ, nərsəni, gizli saxlanmalı nərsəni açıqlamaq, açmaq. -soruları **ağartma**, örtülü üst, qoy qalsın. **1**. abartmaq. qabartmaq. obartmaq. opartmaq. qopartmaq. qasırtmaq. yoğşurtmaq. köpürtmək. köptürmək. çoğaltmaq. şişirmək. abartmaq. obartmaq. opartmaq. yopartmaq. abşatmaq. abşartmaq. opşatmaq. opşartmaq. **1**. **ağşarlamaq**. ağa çıxartmaq. bəraətə gətirmək.
-dişlərin ağartmaq. (gülərək): sırıtmaq.

aqartmaq **ağartmaq**. cıranlamaq.

aqası -**çalşı ağası**: bazar ağası: **çarağa**. **çalağa**. bazar düzənin güdən güdücü, qaravul.

-onağası: onbaşı.

-**önağası:**. önbaşı. baştutan. unbaşı. sərkərdə.

-**beşağası:**. beşbaşı.

aqası -**dos özünün ağası**, dostunun qulluğunda olur.
-köy ağası: **koxa. kovxa. köyxa. kovxa**. ərbab. kədxuda.
-**qılım ağası**: qılım igəsi. qılım sahibi. iş, əməl sahabı.
-**qələm ağası:** qələm igəsi. qələm sahibi.qələm sahabı.
-qılım ağası: qılım igəsi. qılım sahibi. iş, əməl sahabı.

aqasız -**ağasız yeri**, domuz sürər.

aqaş **ağaş**. ağılı. zəhərli. -ilanın dışı yağaş, içi **ağaş**..
-**kiçik ağac**: ağaşcıq.

aqaşcıq **ağaşcıq**. kiçik ağac.

aqaşçı **ağaşçı**. ağac usda. dülgər. nəccar.

aqaştı **ağaşdı**. iri gövdəli. göpdəli. göpülü. göplü. iri boylu. iri sümüklü. oldaşlı. boldaşlı.

aqat **axat.** qıf.

aqatabay **ağatabay**. **ağatabəy**. böyük ata, dədə.

aqatan **1**.**ağadan**. **ağardan**. parıdan. **1**. **ağatan**. **(**ağı atan**)**. **atağı**. **(ata ağı**). ağı atan. ağı qaytarğıc. ziddi zəhr. ziddi səmm. pad zəhr.

aqatataş -**ağadadaş**: ağabay. böyük qardaş.

aqatlı **ağadlı**. ağsoylu. arın soylu, təkli, köklü. nəcib zada. təbarlı.

aqavaq **ağavaq. ağ qavağ**. ağ qələmə. (sipidar).

aqay **ağay**. sır. lord. aristokrat. əşraf. -ölkə **ağayınları**. -**ağayınlar** qatı.

aqayan **ağayan**. (ağlar yanın saxlayan). aristokrasi, əşrafiyyət yançısı, tərəfdarı olan.

aqayçıınlıq **ağayınçılıq**. əşrafiyyətçilik. aristokratçılıq.

aqayın **1**. **ağa ini**. xudumani **(**xodumani**)**.**1**.**ağayın** (**ağa ini**). kiçik ağa. özündən kiçiyə söylənmə sözü.

aqayınlıq **ağayınlıq**. **1**. **ağayınçılıq**. əşrafiyyətçilik. aristokratçılıq. **1**. əşrafiyyətlik. aristokratlıq.

aqaz **ağaz**. **1**. başlama. girişiv. **1**. ilkə. **1**. ən böyük (# **eniz**: ən kiçik). -uşaqların **ağazı**: uşaqların ən böyügü. -tikənin **ağazı** mənə düşdü. -evin **ağazı enizi**.

aqazbir **ağazbir**. **ağızbir**. **-**altı olub, ağızala, ağzındakın aldırar, **iki olub**, ağızbir, göy üzdəkin endirər. (**ağızala: ağzala**: birik olmayan). (**biriq**: müttəhid).

aqbaxtım **ağbaxtım.-ağbaxtım qarabaxtım**: ağgünüm qaragünüm. xoşbəxligim qarabaxlığım.

aqbaqır **ağbaqır**. ağciyər. ötgən. ötgə. öpgə. öfgə. övkə. şüş. şoş. -içi yanıq, küyük **öpgəli**.

aqbal **ağbal**. ağbar. abırlı. arın, sayraq, duru, təmiz, saf olan.

aqbalaq **ağ balağ**. qutluq tikəsi. xoşbəxlik bəlləsi.

aqban **ağban**. **ağbanı**. geniş, uca, böyük olan. -**ağban ev**.

aqbaş **ağbaş. 1**. **ağ başlı.** ağ birçək**. 1**. ağsarıq. seyid olmayıb, əmmaməsi ağ olan malla, xoca. **1**. ağbirçək.

aqbayaqlı **ağbayaqlı**. barışçı. dinəşçi. tinəşçi. tinlikçi. sülh tələb.

aqbənək **ağbənək**. ağsu. mirvarid suyu.

aqbəniz **ağbəniz**. şərəfli. üzü ağ.

aqbirçəksiz -**ağbirçəksiz ev**, karvansız yol olmasın.

aqbirçəq -**elin güvənli ağbirçəyi**: arpal.

aqbor **ağbor**. ağboran. ağyel.

aqboran **ağboran**. ağbor. ağyel.

aqbudaq **ağ budağ**.: düğü.

aqbur **ağbur**. **1**. duğab.

aqburlanmaq **ağburlanmaq** kirəclənmək.

aqbutun **ağbudun**. el azlığı. əqəlliyyət.

aqca -**axca buxca**: mal dövlət. var dövlət.

aqca -**axca soxmaq**: para basmaq..
-**axca qaytarmaq**: geri ödəmək..
-**axcağa aylandırmaq**: paraya çevirmək.

aqca -**ağ akca** qara işlər işlər, qara işlər içlər. (kötü, pis işlər var para üçün görülür, gizli işlər para ilə çözülü)

aqcaqanat **ağcaqanat**. bit dili. diddili. gözə güc görünən mığmığa (çığmığa) çeşiti.

aqcalatmaq **ağcalatmaq**. paralatmaq. pullatmaq. paraya ağdarmaq, çevirmək.

aqcatmaq **ağcatmaq**. bəraət edmək.

aqcıl **ağcıl**. pakizə. təmiz.

aqciyər **ağciyər.** ökpən. öggə. ağciyər.
-**ağciyər xəsdəliyi**: ökpənsızı. öggə kəsəli.

aqciyərin **ağciyərin** -**ağciyərin (ökün) arıtlamaq**: öksürmək. ösgürmək.

aqça **-ağça gücü qara gündə bəlgürür**, kosuq gücü qara qışda bəlgürür. (**kosuq**: kiçik dəlik). (**bəlgürür**: bəllənir)**.**
-ağça, qananın qulu, qanmazın çulu.

aqça -**ağul dolu ağça quzu**, qapını yapsam, yoxca quzu. (**yapsam**: qapsam) (**yoxca**: yoxdu) (tapmaca) (**diş-ağız**).

-ağça demə açğa de. (**açğa**: açar).

aqça -**götürü akça kanca:** töləyi neçə. xərci kanca.

aqçalandırmaq **ağçalandırmaq**. paralandırmaq. pullandırmaq.

aqçalar **akçalar**. -şakşakalar nalçalar, **iş bitirər akçalar** (şaq şaq eden nalçadır, iş btirən akçadır).

aqçalmaz **ağçalmaz.** əsmər.

aqçanın **-**ərginliyin dəğəri əldə ikən, **ağçanın dəğəri cibdə ikən bəllənsin**. (**ərginliyin:** azadlığın).

aqçasıçan **ağçasıçan**. **əxdəsıçan**.

aqçatır **akçadır**. -şaq şaq eden nalçadır, iş btirən akçadır (şakşakalar nalçalar, iş bitirər akçalar).

aqçaya **ağçaya. -ağçaya inan**, gücün varsa, gücə inan, inamın varsa..
-**ağçaya inan, gücün varsa**, gücə inan, inamın varsa.

aqçəq **ağ çək**. alnı açıq.

aqçı **ağçı** (kəfələyən) ölü yuğan. mirdəşir.

aqçıl **ağçıl**. açıq. yaşın. rovşən. -**ağçıl** boya. -**ağçıl qonğur** boyalar: açıq tüt boyalar. -**ağçıl kürən**, **qoyan**, **qonğur**: açıq qəhveyi.

aqçınmaq **ağçınmaq**. **ağarmaq**. boy bənizi atmaq. -əllərim suda qalıb **ağçındı**.

aqçiyər **ağçiyər.** öpkən.

aqev **ağev. ağöy.** gəlin evi. gəlin gedilən, köçrülən ev.

aqəhi **agəhi < ayğıq** <. ayğaq (ayğıqlatı. aydınlatı). uyarı. duyarı. xəbərdarlıq.

aqı **ağı**. **1**. acı. **(**amertume**). 1**. otalaq. zəhər. səmm. **1**.çorum: zəhər (**# çarım**: darı.dava).**1**. **ağu**. **ağqu**: zəhər. -yağudan damsa uğur, **ağqu kimi alqularam**. (**yağudan**: düşman). (uğur: xeyr). ((alqularam: qəbul edərəm).**1.**mərsiyə. -köçənlərə bir **ağı**..
-**ağı qaytarğıc**: atağı **(ata ağı**). ağatan **(**ağı atan**)**. ziddi zəhr. ziddi səmm. pad zəhr..
-**ağılı dava**: ağutan, zəhərləyən dava**..**
-yamanın dilindən, ilanın dişindən **ağı damar**..
-ağı salış: çalış. -ilan demiş, mənim işim **çalış**, **ağı salış**..
-gözün ağı: ağqor..
-öldürücü ağı: köçələ. -**köçələ** içmiş.
-ağı dərmandan qaçar, dərman ağrını qapar.
-**söz ağı qurmaq:** ağ ağız qılmaq. kələklə söz almaq.

aqı **axı**. nırx. məzəndə. -ası **axısı**: bəhrə nırxı.

aqıc **axıc**. məni.

aqıcı **axıcı.** ərgin. maye.

aqıçalıq **ağıçalıq**. ağıdar.

aqiçə **ağiçə** (**ağ+əçə**). mələkə. -**tarıca** odun olmaz, ağiçə (mələkə) qadın olmaz.

aqıçı **ağıçı.** pərdəçi. pərdədar.

aqıq **ağıq**. (**axığ**). uçuğ.

aqıqınmaq **ağıqınmaq**. ağılanmaq. çoruqlanmaq. zəhərlənmək.

aqıqıtmaq **ağıqıtmaq**. ağılamaq. çorğutmaq. zəhərləmək.

aqıqmaq **ağıqmaq. ağuqmaq**. zəhərlənmək. məsmum olmaq.

aqıl **1**. **axıl**. (qığ). pehin. **1**. **ağıl.** avıl. avlaq. evlək. ayın çevrəsindəki ışıq təğrəsi, girdəsi. halə. tamay. bədr. **1**. **ağıl**. avıl. **(**< **av)**. **1**. arxac **<** avrac. dam. mal davar salma üçün yer. **1**. ev. **1.**beyn. beyin. **1**. əql. ərdə irdə. -**ağıllı**: irdəli: ərdəli. -**ağılsız**: irdəsiz. ərdəsiz. -**ağılsız** irdəsiz. ərdəsiz. -**əğli ilum**: irdə ilim. irdəlim. **1. ağıl.** örən. açur. tövlə. **1**. **avıl**. yandan çevrəli yer.**1. ağıl< avıl**.**1.** baş: -kişi, yaşamaqla dəğişir, baş, çəkə çəkə ərişir..
-ağla sığmaz: başdanaşa. aşabaşı. atabaşı. -**atabaşı sayxan**: çox sərxoş. çox xoş..
-**ay avlandı, avıldı, evləndi**..
-**ağıla gəlmək**: usqa düşmək. isgə düşmək..
-**ağlı çalınmış**: sandağ. axmaq..
-**ağlı başında**: anlı. tantıl.
-ağıl xəznə, könül yozaq, dil açar. (**açar**: açqıç) (akıl hazine, gönül kilit, dil açar).

aqıl **əğil. 1. əğl.** bilik**.** xirəd. huş. -ula olsa yol azmaz, bilik olsa söz yazmaz ({(**ula** < ulamaq: yolamaq. göndərmək). iz. nişan. əlamət. dəlil. qılavuz}. {**yazmaz**: çaşmaz. xətiya gedməz}. **1**. usum. us.

aqılamaq **ağılamaq. 1.ağımaq. ağlamaq**.**1.**otalatmaq. otalamaq. məsmumlamaq. zəhərləmək.

aqılanıv **ağılanıv**. məsmumiyyət.

aqılanmaq **ağılanmaq**.məsmum olmaq. -**ağılanar** ha gözlə: məsmum olar ha gözlə.

aqılayan **ağılayan**. ağutan. zəhərləyici. zəhərləyən. məsmum edici. ağılı dava. toxicant **(**toksik**)**. toxicant **(**toksikan**)**.

aqılı **ağılı**. **ağaş**. çorlu. çorun. çorğun. zəhərli. -ilanın dışı yağaş, içi **ağaş**..
-ağılı alağ, **ot**: koralağ.

aqılın **ağılın**. **çorğun**. **çorun**. **1**. çorlı. ağılı. zəhərli. **1**. məsmum.

aqıllı **ağıllı**. **1**. **öğlü**. **öklü**. zəki. **1.** bilkəv. bilkəğ. bilkəz. aqil.**1**. seçən çeçen. dahi. zəki. **1**. **avıllı**. evli. **1**. sanağul. **1**. təpəli başlı. **1**. usər. **1**. usçu. us, ağıl qoyan. aqil. **1**. bilgəli. -**bilgəli baş**, yük olmamış ayağa.**1.**beyinli. beyinli. anğlı. düşünlü. **1.**usuq. uslu. huşlu. düşüncəli.
-başlı olan, tovanları dindirməz. (**tovanları**: ahmaqları).
-çətinlik qarşısında, duruşub üstələyən güclüdür, **qaça bilən ağıllı**.

aqılsız **ağılsız**. dəlicə. dəlcə. başsız.

aqılsız **ağılsız**. kağıl (içi boş). cahil. səfeh.

aqıltan **ağıldan**. **-**gəpləmədən oturğan, **ağıldan kəm gətirməz**.

aqıltan **ağıldan** başdan. -kin imandan, acığ başdan edər.

aqım **ağım. 1**. **ağdım. atğım**. -**bir ağım yer**: bir atımda çıxılan ucalıq. **1**. ucalıq. irtifa'. -bu **ağımdan** düşən qalxmaz geyin. -**ağımlı**: uca. irtifalı. **1**. dalqa. hərəkət. cünbüş. -düşüncə **axımları**. -**axım** onğayına: hərəkət uyumuna. **1**. mod. -axımlı: modalı. -**axımda** olan: modada olan. **axıma** uyqun: moda tutar. -qarşı **axım**: muxalif. -yeni yağday əsgi **axım**: mütəcəddid şərayitdə, köhnə moda. **1**. barıntı. -iliktirik **barıntısı**: axımı, cərəyanı. **1**. **ağım. ağmağım**. boya işlərində oluşa bilən kiçik şəpələr, daqalar. **1**. **ağım.** kiçik təpəcik. (mahur). **1**. (**qaqım**: mıxca). əl ayağ biləyinin önündə olan kiçik tümsüt. **1**. **axmağım**. axıb sürülən nərsədən geriyə qalan iz. **-**duyanda adın, könül daralır, **gələndə səsin ağım ucalır**, səssizcə gülüm könül ağlayır.

aqım **axım**. dalqa. hərəkət. cünbüş. -düşüncə **axımları**.
-axım uğra üzmək. (gücə sarı sarmaq).

aqımaq **ağımaq. ağılamaq. ağlamaq**.

aqımlı **akımlı**.axsun.

aqımsu **axımsu**. **axarsu**. çay. ırmaq.

aqımtaki **axımdaki**. güncəl. cari. modadaki.

aqımtaki **axımdaki**. güncəl. cari. modadaki.

aqımtıl **ağımtıl. -ağımtıl sarı**: günür. -**günür** ərik.

aqın **ağın. 1**. burun səsləri. burnundan dışaran səslər. **1**. ğunnə nunu. **1**. həlal. -işin ağına yox, kişinin bağına qalıb.

aqın **axın**. **1**. birdən işə düşən, axan, başlayan güclü nərsə. -ışıq **axını**. -su **axını**. -ağrı **axını**. **1**. əngiziş. **1.**sürün. hucum**..**
-axın axıtıb sel carıtmaq: yağmalayıb çapğalamaq.
-arının ağın dartan, balna dəğər biçsin.

aqına -əninə boyuna, **ağına bozuna** baxmamaq.

aqına -**olayların ağına taxılmaq**. (cərəyanların toruna düşmək).

aqınamaq **ağınamaq**. **ağnamaq**. dəbələnmək.

aqınçı **axınçı.** çapınçı. çapğınçı. mütəcaviz.

aqınçı **axınçı**. təpinçi. çapılçı > çəpavul gər.

aqını -**gözün ağını köpətmək**: gözün ağını bərətmək (yekətmək).

aqını **-lti su axını:** sal**. sel**.

aqınlamaq **ağınlamaq**. **ağırlamaq.**

aqınmak **ağınmak**. bolluq içrə din (rahat) yaşamaq.

aqınmaq **axınmaq. 1**. uçunmaq. uçğunmaq. bayınmaq. huşdan gedmək. **1**. vellənmək. çalxanmaq. **1**. at salmaq. hucum edmək**..**
-abına axına: avına axına. yıxıla qalxa. düşə qalxa.

aqıntay **ağıntay.** itcik. təcavuzkar.

aqıntı **axıntı**. yaxantı. pəsab.

aqır yaqır **ağır yağır.** ikram o təkrim.

aqır **1**. **axır.** barınır. gedir.**1**.zəhmətli.**-**yaşam güzəl, **ağır olsa belə**. (yaşam gözəl, ağırsa belə).**1**. samballı. saldamlı. -**saldamlı** kişi: mətin. -**saldamlı** yük: ağır. **1**. mətin. saldamlı. -**saldamlı** kişi: mətin. -**saldamlı** yük: ağır. **sansallı**.
-ölümdən ağır, ölümdən uzaq sanılmaz.
-ağır hava: çalım.
-çalmacın (cəlladın) **qırıcı ağır qılıncı**: çalım.
-**ağır köklü**: saldamlı. ağır adlı. -**arxalı samballı**: köməkli, qollu, partılı kimsə.
-yolu doğrunun, **yükü ağır olsada**, dosdu dağdırsa, kolay çəkilir.
-**ağır otur**, yüngül dur. (**dur**: qalx). (ağır otur, yüngül qop. (**qop**: qalx).
-**ağır yük** barha batar. (**barha**: barır. gəlir. bir gün).
-**ağır köklü:** ağır adlı. samballı. -**arxalı samballı**: köməkli, qollu, partılı kimsə.
-tənbəl olan oyğul olar, **ağır işin çəmin tapar**. (**oyğul**: fikirli).

aqır **ağır**. **1**. artıq. -**artıq** yükdən, qatı qayğıdan, çiğnin dalıb, bel büküləndə sən. **1**. qıyın. çətin. -qıyın sorun: çətin görəv, məsuliyyət. **1**. bahalı. **1**. yoğuşmaz. xoşa gəlməz. **1**. gücər. güctəy. güccüy. **1**. qatıq. -bükük bellu analar, **qatıq** yaşlı qarılar **(**ağır yaşlı qocalar**)**. **1**. mətin. təkiş. **(**< **dənğ)**. **1**. ağrın. yavaş. **1**. dartıq. (dartlı). çəkgin (çəkili). gərin. (**gərmək**: dartmaq. çəkilmək). qəliz. **1**. sıy. şərəf. əsil. nəcib. ciddi. müəqqər. **1**. tuğay (< **tuq**). quvvətli. **1**. qara. -**qara** qatal: **ağır** böhran. **1**.qəliz. **girman**.**1**. (quraşıq (tərkibi) sözlərdə).yük. (**ağırlıq edmək**: yük gəlmək, sanılmaq)-**ağır** gəlmək-**ağır** saymaq-**ağır** görmək. pulun çoxluğu **ağır gəlməz**. **1**. qın. -**qın** durum: çətin, ağır vəziyyət. -**qın** uşaq: çətin uşaq. **1**. qıyın. qın. -**qın dura**: qıyın,

ağır duruma. -çox kötüyə, **qın dura düşmək**. gününə it ağlamaq. **1**. yüklü. baha..
-baldan dadlı, **baltadan ağır** (**tapmaca**). (yuxu).**1**.dartıq. -**dartıq** günlər. **1**. qın. güc. zor. -işim düşdü **qına**. -**qın** iş. -**qın** soru: ağır məsələ. -bir **qın** iş deyir. -**qın** görmək: gücləşmək. çətin görmək**. 1.** basruq**.** giran. səngin. -yer **basrığı** dağ, bodun (el) **basrığı** bağ (bəğ. bəy). -el uykusu, dağ yuxusu **ağır olur,** çağır ha çağır..
-**iki ekiz**, ağır engil (tapmaca) (**tərazı**)..
-**el qaldırar ağır daş**, yel qoparar yenni daş. (**yenni:** yengi. yüngül). (yenni daşı yel qaldırar, ağır daşı el qaldırar)..
-uzaq yol atı sınlar, **ağır gün əri**. (**sınlar**: sınağa çəkər. yoxlar)..
-**ağır ayaq:** hamilə..
-**ağır kəsələnmək:** yataqlanmaq. yatağa, döşəyə düşmək..
-qan sudan ağır basar. (qanla su ölçüştürüləməz)**..**
-ağır ayaq: yümnsüz. uğursuz..
-baldan dadlı, **baltadan ağır** (tapmaca). (yuxu)..
-**ayağı ağır**: ağır ayaq. qara ayaq. yümnüsüz**..**
-ağır əğin, kovğa topraq, iz basar..
-yol uzaq, **kütəl ağır**. (**kütəl. gütəl. (bax > qütəl)**. tuşə. {yanda götrülən nərsə (yük. ağraq)}**..**
-ağır axsaq: yavaş yavaş**..**
-ağır sular, lam axar**..**
-bilgəsiz baş, **ağır yükmüş ayağa**..
-**ağır olan**, **altda qalır**..
-**ağır olsun!**: daş bassın!..
-**ağır sanmaq:** ağrıqlanmaq**.** ağrına (ağırına) gəlmək..
-**ağır durum**: qarabataq. ağır məxməsə..
-**əli ağır**: qoltur.

aqır **ağır**. aran. arğan. güclüklə. arınaraq. -**aran** getdi. -vermirdi, **aran** verdi.
-qocalığın adı ağır özü yüngül. (tez gəlir). (tez qonar qapıya**).**
-öz sözüvü batman tut, yüngül otur, **ağır uç**. (**batman**: ağır). (**yüngül otur**: şişib oturma). (**ağır uç**: ağır, ölçülü davran, təprən).

aqır **axır**.**1**.(cari).**1.** otluq. tövlə. **1**. cərəyan.

aqır -**ağır günlər** başdan keçirmək.
-**hançı borc** ən ağır borcluluq?.
-**ən kötü, ağır yaşamı** gizlisi çoxlar yaşarmış. (gizlətmək, kəndi içində, ikinci məni yaratmaqdır. ekkiz yaşam).
-**ağır ağramlı**: **ağır** salqımlı: ağır cüssəli. ağır vəznli.

-**ağır öndürüş bakanlığı**: sənayei səngin vəzirliyi
-salmıqı yengil, tutarı ağır.

aqıra **axıra**. -danam gedər naxıra, **axşam gələr axıra**. (**danam**: dan çağı. səhər). (yılxı yaşamı). (**yılxı**: heyvan).

aqırayaq **ağırayaq.** qaradaban. qaraquyruq. ayağı yümsüz. uğursuz. -**qaradabansan**, gələn kimi evimə qan saldın.

aqıraytmaq **ağıraytmaq**. ağırlaşdırmaq.

aqırbaşın **-ağırbaşın ağrımaz başı!.** (**ağırbaşın**: mətin olanın)**.**

aqırbaşlı **ağırbaşlı** sınğın. mətin. vüqarlı. başqat.

aqırca -**ağırca çalışmaq, dirçəşmək**: can edmək: can çəkmək**.** -şubelə can çəkəli, tapmamışam tox yolunu. (**tox**: hak).

aqırçı **axırçı**. **axurçu**. (**axırtmaq**: yol aparmaq). at ulağın önündə gedən (sürən) işçi. yüyənçi. cilovçu. ciləvçi {< **ciğləçi**. **cığovçu** (< çiğ: düğün) > **cilovdar** (fars)}. yələçi. noxdaçı. çalvaçı.

aqırxana **ağırxana**. xəsdəxana.

aqırı **-yük ağırı çəkilir**, söz ağırı çəkilməz.

aqırıq **ağırıq**. yaylıya dönəcək üzrə köçərkən arxada qoyulan ev eşik gərəçləri, saçaları, qoşquları, yaracları, yaraqları, çapdığları yapdığları, vəsayili..
-**ağırıq yatağı**: xəsdə yatağı.

aqırıqçı **ağırıqçı**. **ağırrıqçı**. köçənlərin araxada qoyduqları ev eşiyin, gərəçlərin, saçaların, qoşquların, yaracların, yaraqların, vəsayilin baxıcısı, bəkcisi.

aqırın **ağırın**. yavaş. sakin. -**ağırın** hava. -**ağırın ağırın** danışıq gedir.

aqırın **axırın**. gedgedə. tədricən.

aqırısıy **ağırısıy**. **(**ağırlama, sıylama**)**. sayqı. ehtiram.

aqırıtmaq **ağırıtmaq**. ağrıtmaq.

aqırıvcan **ağırıvcan**. sıx, qolay xəsdələnən.

aqırqamaq **ağırqamaq.** ağırsamaq. asırqamaq. asığ görmək. şakir olmaq. şükr edmək.

aqırqan **ağırğan**.ağırsayan. asırğan. asır görən. şakir. şükr edən. şükranlı. -**asırğanlıq** edmək.

aqırqanmaq **ağırğanmaq**. **ağrığanmaq**. **1**. ağrıyıb inləmək. **1**. şikayətlənmək.

aqırlama **ağırlama. 1.** sayınlama. sayqılama. büzürgdaşt. **1**. sıylama. sayqılama. ehtiram ediş.**1**.ərkitiş. əzizləyiş.

aqırlama uluğayış. (təkrim. büzürgdaş).

aqı<u>r</u>lamaq **ağı<u>r</u>lamaq. ağı<u>n</u>lamaq**. sayınlamaq. sayqılamaq.

aqırlamaq **ağırlamaq.** bəlləmək. tutmaq. bolqarmaq. teclil edmək.

aqırlamaq **ağırlamaq**. dərcələmək. (bir yer ayırmaq). sılağmaq. saymaq. sayqı göstərmək. gözdə almaq. -**dərcələyib** qarşaladı: sayqı ilə alqadı.

aqırlanmaq **ağırlanmaq. 1**. **lırlanmaq. lığlanmaq.** gövdə ət salmış kimi yüngüllüyun itirmək. **1**. **ağrınmaq**. na xoşlamaq.

aqırlar **-**hovan qonağ **ev yiyəsin ağırlar**. (**hovan**: axmaq).

aqırlara dərdlərə. -**ağırlara ağrılara:** zəhmətlərə dərdlərə.

aqırlaşan **ağırlaşan**. gərilgən. -ged gedə ağırlaşan, ğamizləşən durum.

aqırlaşmaq **ağırlaşmaq**. **1**.(durum) gərilgənmək. ğamizləşmək. **1**. ağrınaymaq. yavaşlamaq.

aqırlaşmaq **ağırlaşmaq.** qınalmaq. qınalışmaq. qınlaşmaq. qın olmaq. daralmaq. sıxılmaq. çətinləşmək. müşgülləşmək. gücləşmək. zorlaşmaq. -keçidlər artıq. **qınalmış**. -işlər **qınalır**. -qabağa görə çox **qınalmış**.

aqırlaştırmaq **ağırlaşdırmaq**. ağrına aytmaq. yavaşlatmaq. **(aytmaq**: çevirmək**)**.

aqırlat **ağırlat.** yükünlət**.** yüklə. -**dan yeməyin yükünlət**, şam yeməyin yüngüllət.

aqırlatmaq **ağırlatmaq** ağraltmaq.

aqırlatmaq yükün, ağramın artırmaq.

aqırlı **ağırlı. 1.ağraq**. möhtərəm. mükərrəm.**1.ağırlığ**. dəğərli. sayqın.

aqırlıq **ağırlıq. 1**. ağrıq. bac. xirac. **1**. vergi. **1**. ağrıq. təkrim. sayqı. hörmət. sitayiş. pərəstiş. ehtiram. **1**. minnət. mingit **(**< **minmək)**. yük. -bunun bizə **mingiti** yox. -bunun **mingitindən** necə çıxa bilirim. **1**. **yatırlıq**. bir işin, olayın ağır gedməsi, yatması, uzanması. süründürməçilik. sürnüşlük. -belədə **yatırlıq** olar. **1**. astlıq. vüqar. mətanət. **1.** tanğ. dəng.**1**.**ağırlı.**dəğərli. sayqın.
-ağırlıq edmək. ürəyə düşmək. sindirəlməmək. içində düğünlənmək. yadanmaq. yavanmaq. bıqtınmaq. -bu olaylar artıq ürəyə düşür.
-ağırlıq edmək: şəllənmək..
-tarı məni **ağırladı**: (saydı). allah mənə baxdı, lütf elədi.

aqırlıq zor. güc. -**işdən gücdən** qaçmaq.
-ağırlıq edsə qatı, çökər damı. (**qat**: dam). (**damı**: evi).

aqırmaq **ağırmaq**. **1**. ağrımaq. xəsdə olmaq. **1.** atğırmaq. atmaq. açılmaq. -gündə parça **ağarır**: rəngi atar. **1**. xəsdələnmək. xəsdə olmaq. ağrımaq.

aqırmaq **ağırmaq**. zəhmət çəkmək. əziyət çəkmək.

aqırraq **-ağırraq olan:** ağrağı**.**

aqırsaq **ağırsaq**. teşinin üst kəsimində çəngəlli olan yuvarlaq hissə.

aqırsama -**ağırsama diləki**: şükr edmə zikri.

aqırsamaq **ağırsamaq**. sayqılamaq. ehtiram qoymaq.

aqırsamaq **ağısamaq. ağırqamaq**. asırqamaq. asığ görmək. şakir olmaq. şükr edmək.

aqırsayan **ağırsayan.** ağırğan.asırğan. asır görən. şakir. şükr edən. şükranlı. -**asırğanlıq** edmək. (# **azırğan**: azırsayan. az görən. naşükür).

aqırşaq **ağırşaq**. **1**. araba, uçaqda silkinmənin, təprəşməyi qaldıran, azaldan arac. **1**. cəhrədə iğdədən sallanan ağırlıq.

aqırşalamaq **ağırşatmaq**. **1**. dəhlətmək. mütəadil edmək. **1**. ustuvar edmək. təsbit edmək.

aqırşanmaq **ağırşanmaq**. **1**. dəhləşmək. mütəadilləşmək. **1**. ustuvarlaşmaq.

aqırtaqtalı **ağırtaxdalı**. qusqa. qozqa. qoyac. qoytac. quyac. quytac. udarlı. salğar. sığlım. mətin. vüqarlı. vuqarlı.

aqırtan -üşüc ağırdan tutar(**üşüc**: təmbəl). (təmbəl, üşəgənliyindən işi tez qurtarmaq üçün, yükün ağırından yapışar)**.**

aqırtdırmaq **ağırtdırmaq**. ağrıtmaq. acıtmaq.

aqırtı **ağırtı**. ağrı. acı.

aqıru **ağıru**. xəsdə.

aqısı **-oğul ağısı**, sində dinər.

aqısın **ağısın.** -**yağının ağısın içən, öz ölümün bilməz**. (düşmanın zəhərin içən, susqun ölümə düşər). (**susqun**: dinməz. salasız. xəbərsiz).

aqısınmaq **ağısınmaq.** ağlamağı gəlmək.

aqış **ağış**. **1**. eğim. meyil. **1.** qalxış. ucalıq (# **axış**: eniş. alçaqlıq). **1**. uruc.

aqış **axış**. (**axıntı**. **axma).** (< **ardış < art**). (ardı arda, dalı ba dal gələn, düşən, oluşan nərsə). **1**. axar. cərəyan. **1**. **axım**. əğim. əğilim. cəhət. meyl. **1**. süzüş. tərəşşüh. təravüş. **1**. axıntı. süzüş. nəşt. **1**. eniş. alçaqlıq (# **ağış:** qalxış. ucalıq). **1**. sızıntı. qaçaq.

aqışdırmaq **ağışdırmaq**. eğriltmək.

aqışqa **ağışqa.** qarışqa. pəziralıq.

aqışlı **ağışlı**. **1**.eğik. italik. yana yatık.**1**. övrük. devik. yatıq. sapıq. qıys. qıysıq. (**qıymaq**: əğmək). italik. keşin (kəcin). -**qıys** yazı. -**qıys**, **bolun** yazı: italik, bold yazı.

aqışlı **ağışlı**. eğik. italik. yana yatık.

aqışlıq **ağışlıq.** pərişanlıq. aşüfdəlik.

aqışmaq **ağışmaq. ağlaşmaq**.

aqışmaq **axışmaq.** başlanmaq**.** üz tutmaq. -gəlirsə yaz yaşranarc qoyun dağa **başlanar.**

aqıştırmaq **axışdırmaq**. əğib, töküb yığmaq, toplamaq. -gün batarkən qoyunları dərəyə **axışdırdılar**.

aqıt **ağıt**. **1**. **(**ağlayış**)**. yas. matəm. -yamana **(**kötüye**)** ağıt gözdən edər, üzsüzə **(**sırtığa**)** öğüt, sözden edər. **(**pis üçün ağlamaq kor edər, utanmaza öğütişləməz**)**. **1**. **ağıt!.**

(yuxarı) çıxart!. **1**. (**axıt**). uçut. **1**. ilənış. sağı. sağınc. sağıc. sağış. əzgi. mərsiyə. novhə. **1**. mərsiyə. **1**. yoxlav. nərsənin yoxluğunda deyilən acınaqlı savlar. mərsiyə.**1**. mərsiyə.

aqıt **axıt**. **1**.abdəst -**yuğut axıt**: qusul abdəst. **1.**dəsdəmaz.

aqıtıq **ağıdıq**. **ağtığ**. zəqqum. dərd vərəm. zəhrmar.

aqıtma **axıtma**. **axtarış**. tökmə. boşaltma. endərmə.

aqıtmaq **ağıtmaq**. **1**. **ağlatmaq**. **1**. **ağdartmaq.** (atqarmaq). çəkmək. sovq vermək.

aqıtmaq **axıtmaq**. **1**.**axızmaq**. **1**.dartmaq. -göz yaşların **dartdı**..
-**su axıtmaq**: su süzmək. yuğmaq.
-daşıyıb axıtmaq: daşıyıb tökmək. daşanmaq.

aqıtursa **ağıdursa .-səni sevəni ağıdursa ut**, sevməyən səni baldursa unut!.

aqız **1**.**{ağız ağzıq**. **ağızlıq**. **>** (**azıq**. **azuq**. **azuqə**)**}**. yem. yem gəvək. -**bir ağız**: bir udum. balğu (**< bal**. **böl**). -yekin **balğu** su istyəim: bir udumluq. **1**. **ağuz**. **açuz**. başlanqıc. giriş. açılış. **1**. **ağuz**. **açuz**. dəhanə.**1**. dəfə. kərə. -bir **ağız** suya çək. -bir **ağız** dedim eşitmədi. -**neçağız** (neçə ağız**)** gəlməliyəm. **1**. < **azır**. **ayır**. haça. qol. -iki **ağızlı** qamçı. -**azırlı** yol: **ağızlı** yol: yan qollara ayrılan yol. -**azırlı** yol: **ağızsız** yol: yan qollara ayrılmayan yol. **1**. bir qurumun, toplumun danışanı, söz daşıyanı. soxənqu. portparol. **1**. hər nəyin başlanqıcı. astana. astan. **(**< ast: alt**)**. basağ. basağa. basağu. **1**. (virudi). -**ağız ayağ**: > **ağzayağ**: virudi xiruci. **1**. (dəhanə. mədxəl). **1**.**ağda > ada**. qəliz. -**ağda** şirə.-**ağız süt**: qəliz süt..
-**bağlı ağız** ac qalar.**.**
-tap tap ayaq, **şap şap ağız** (işlə, dişlə)**..**
-ağız tutamağı: sus payı.**.**
-ağzı havalı: ağzı zilli. kəndin bəğənmiş**..**
-ağzı yaman: ağzı yavan. ağzı yelli**..**
-ağzını yaymaq: çox danışmaq. gərəksiz qonuşmaq. ağzına gələni söyləmək**..**
-sözü kök, **ağzı boş**: gəvəzə. çəvəngi. çərəngi. çavça..
-**ağız açmaq**. oruç açmaq. iftar edmək..
-**bir ağız**: monoton. təkdüzə. yeksan..
-**ağızda qoz sayır:** açıq aydın söylür..
-**ağız qılmaq.** dil tökmək. yalvarmaq..
-**ağız diləmək**: söz, qaraş almaq. nəzər sənclik edmək. nəzər sormaq..
-**açığ ağız**: qaba ağız. ağzı pozuq..

-**ağzı cırıq**: çatalaq. -izləməzdən iş çıxdı, **çatalaqdan** söz..
-**ağzı yırtıq**: alağız. söz saxlayamayan. -**alağıza** söz vermə, yalançıya üz..
-**ağzını silmək**: birinin dediklərin, ağlı qaralı savunmaq, qəbul edmək. -bildiyivi danış, hər kəsin **ağzını silmə**..
-**qapı ağzında**: qapı dibində..
-**yap ağzın**: qıfıllan. xəfə!..
-**ağız açamamaq**: nə dediyin çaşmaq. deməyə söz tapamamaq..
-**ağız açar**: ifdar çağı..
-**ağzı baxış kişi**: sözü ilə baxışı, nəzəri üst üsdə düşən. çıxarlı, içli söyləyən kişi..
-**ağız basdırmaq**: **(**doyurmaqla, qanıtıb razı salmaqla, yaxud zor güc ilə**)** ağzın yumdurmaq..
-**ağzı basdırıq**: ağzı yumulu. söz söyləməyən. sözün verməyən..
-**ağız bəkitmək**: oruc tutmaq..
-**ağzı basılmaz**: doyunmaz. tətmi' olunmaz..
-**ağız basıq**: **1**. doyulmuş. tətmi' olunmuş. **1**. ağzı duvağlı. ağzı bütün..
-**basıq ağız**: sözün gizlədən..
-**ağız yaman**: **1**. xeyir söyləməz. **1**. pis ağız.
sözün söyləməmək. sözün gizlətmək..
-ağızlıya söz verən, ayaqlıya yol verən: işinin ustası olan. iş keçərin bilən. -**ağızlıya söz ver**, **ayaqlıya yol**: işivin yolun bil..
-**ağız iki söyləş**: üz üzə danışıq..
-**ağız varmaq**: başarıb, cürət edib ağız açmaq..
-**ağzı düşük**: söz saxlayamayan..
-**(**birinin**) ağzın qıctıtmaq**: **(**birini**)** ağzının duvağın **(**bağın**)** açmaq. **(**birinin**)** ağzın açdırmaq. **(**birini**)** sözləməyə qızışdırmaq, quşqurtmaq..
-**ağzımı dustayıb qaldım**: deməyə söz tapamadım..
-**ağzın bassan götü söylər**: heç türə **(**heç nəcür**)** dindirəməmək..
-**ağzına ağ it girib**, **qara çıxmaq**: ağzına gələni otlamaq **(**çegnəmək**)**. nə dediyin bilməmək..
-ağzına gələni sanğıramaq **(**saymaq, oxumaq, söyləmək**)**. ağzına gələni söyləmək..
-**ağzına almamaq**: heç dadmamaq..
-**ağzına qaramaq (**baxmaq**)**: sözünə baxmaq..
-**ağzına yalın (od) alıb durmaq**: çox acı danışmaq..
-**ağzı yelli**: boş söz atan, aytan. qurra..
-**bir ağız söz**: bir kəlmə söz..
-**neçə ağız söz**: çoxlu söz..
-**iki ağız sözün başın qoşamamaq (yığamamaq)**: iki sözü bir araya gətirəməmək..
-yalanı ağzında: çox yalançı..
-**göy ağız**: **1**. ağzı hərzə. ağzı çalapərtovsuz. **1**. savaşçıl..
-**sözü ağzında**: danışığa anıq, hazır..
-**qapı ağzı**: qapı gözü..

-dildir **ağzın** qalası, dildir başın qadası **(**bəlası**)**..
-**ağzın**, **bir şırığın iki bucağı**: çapıq. **çəvçi**..
-**ağza** girən, boğazda qalan tikə..
-**ağzında** quş olsa danışma, özgə işə qarışma..
-**ağzı yanmaq:** xit olmaq..
-**ağzın açmaq**: başın boşaltmaq, şollatmaq..
-**ağzın yelə vermək: ağzını sala salmaq** ağzın açıb gözün yummaq..
-**ağzına dək dolu:** ağnağız. ağnağaz..
-**başı ağzında**: ağnağız. ağnağaz. həvərə. -**ağnağız** öğütmək: **ağnağız** basmaq: ağzına gələni söyləmək. çaxanlamaq. qozalamaq. koplamaq. laflamaq. boşuna danışmaq. gəzafə (< qozalağ) danışmaq. iğraq edmək..
-**əldən ağıza yaşam**: qısqat keçiniş. qıt yaşayış..
-**hər nəyin ağzı, girişi**: alış**.** virudi. (dəhanə)..
-**qapı ağzı:** alığ. astana..
-**ağız sulandırmaq**: imrəndirmək..
-**ağzı bütün**: **ağzə çək**. çəkağız. açmaz. söz saxlayan..
-topraq ağzına: öləsi..
-**ağız açmaz**: ünü çıxmaz. dinməz. susuq..
-**ağzından çıxan yaxavı tutsun**: qarqışın özüvü tutsun.
-açsa ağız kişi sözə, kim olduğu çıxar üzə!. (**kim olduğu**: kimsəliyi) (açsa kişi ağız sözə, kim olduğu çıxar üzə!).
-ağız açmaq: xahiş edmək. -mən ona yardım üçün **ağız açdım**: mən ondan kömək eləməyi xahiş etdim.
-ağız aytı: (**aytı**: sözü). (birinin) dilinə düşmüş. təkər təkər çox deyilən söz. dilinin virdi**.**
-yolun tutan, çata çatdı, **ağız güdən**, yolat qaldı. (çat: məqsəd. mənzil.) (yolat: yol üsdə)..
-yolun tutan, çatın almış, **ağız güdən**, yolda qalmış. (çat: məqsəd. mənzil.)..
-yolun tutan, çata yetdi, **ağız güdən**, yola getdi. (yola getdi: heçə (götə) getdi)..
-yolun tutan, barqınar, ağız güdən, aldınar (barqınar: amaca, mənzilə çatar). (aldınar: mə'təl, avara qalar)..
-yolun tutan, bardınqar, **ağız güdən**, aldınqar. (bardınqar: əlbəttə ki (hətmən) barqınar: amaca, mənzilə çatar). (aldınqar: əlbəttə ki (hətmən) mə'təl, avara qalar)..
-açıq göz, ışıqsız, **açıq ağız,** paysız qalmaz. (kişi öz gücünə, biliyinə, biləyinə inanmalıdı)..
-əl işlər, **ağız dişlər**, qarın çevirər, dığır çevrənər. (**dığır** : dəgirman. fələk)**.**
-ağız almaq.1. yad tutmaq. yadlamaq.görügə salmaq. **1**. ağızalmaq. qəhvaltı yapmaq. sübhanə yemək..
-**ağız savıdı**: ağızdan ağıza keçib yayılan söz. köksüz qaynaqsız söz..
-**ağız suyu:** şoğurt. silik. tüpürcək..
-**dil, ağız** yaraşığı, söz, dil yaraşığı, sözilə dil, kişi yaraşığı. (kişi dərəki, dəğəri, ağırlığı düşüncədən başqa, nədə ola bilir. düşüncəni canlandıran, dildən-sözdən başqa nə

var!!!!!?????. {{-oyan.}}).

-dilin danmış, **torba ağız** el olarmış!..

-biligin olsada çox, **açsan ağız az** söylə. (**biligin**: ağlın).

-bal deməklə **ağız süycümməz**.(**süycüməz**: dadlanmaz. şirin olmaz)..

-iki ağız birgəlsə, göy üzdəkin endirər, **altı ağız algəlsə**, əlindəkin aldırır. (**birgəlsə**: səsbir olsa). (**algəlsə**: ixtilaflı olsa).

aqız **ağız**. **ağuz**. **1**. ayvarış. başlayış. -qara gecə **ayvarışından** bəllənir. **1**. yeni başlamış. naşı. xam. əcəmi. -**ağız** kişi. -**ağız** işçi. -**ağuzsan** çox ayaq çalmaq gərək. (**ağuzdu** çox ayaq çalsın gərək). (pişməyə uzun yol var). (**ağuzsan**. naşısan. xamsan. əcəmisin). **1**. (kiçildici söz). gay. gij. **1. ağza. ağzaq.** >**azuqə.** boğaz. aşurqa. aşlıq. yeməli. xurək. **1**. **avız**. (> **avaz**). (< **ağız**). səs. ötüş. -onun **avızın** düşürdü yada. -**avız vermək**: səs vermək. -**avızlı**: səsli. -**avızsız**: səssiz. -sizin **avzıza** gəldim: sizin səsizə gəldim. -**avzına** çatan olmaz: səsüvə gələn olmaz. -**avız avıza** verib: **ağız ağıza** verib. səs səsə verib. -**avızdan** düşüncə mən: səsdən düşüncə mən. -**avıza** gəlmək: **ağza** gəlmək: səslənmək.
-**ağız açma**. oruc açma. tutaç. ifdar.
-**ala ağız: alağız**. **alavız**. altı ağız. sözbir dəl. sözbir olmayan. müttəhid olmayan. **-ağ ağız qılmaq**: söz ağı qurmaq. söz avlamaq. kələklə söz almaq.
-**ağız deyər**, qulaq duyar, göz görər.
-ağız qulaqdan söz alır. (ağız dinlənən sözü təkərlər).
-**ağız ağızdan** yel alar. (**yel alar**: güc alar). (ağız ağıza güc verər).
-**ac ağız** gəm götürməz. (**gəm**: noxda. cilov).
-**ağız dadın bal olsa**, alışdınsa yad olar.
-**ağuz!**. gəl bura.
-**ağuz ağuza**: üz üzə.
-**ağzı basıq**: sır qoran. söz qoruyan.
-**ağız baylığı**: söz azadlığı.
-**ağız yetməz**. söz çatmaz. -onu övməyə ağız yetməz. (**övməyə**: tə'rifləməyə).
-ağız aç gülə, uğur gülə. (aç ağız gülə, uğur gülə). (ağzın xeyrə aç) (ağzın uğra aç).
-göz gəzdirən, qulağ açan, **ağız yuman itirməz**.
-gözün yumub ağız açma, qulağ aç!. (**qulağ aç**: qulağ as) (gözün yumub açma ağız, aç qulağ).
-pişirib sözün **açarsa ağız**, qızmaz qulağı, **çəkməz ağız**. (**qulağı qızmaq**: qınanmaq. cəza görmək) {**ağız çəkmək**: **1**. üzr istmək. pox yedim demək. **1**. ağzın quyu biləziyinə (ayaq yolu daşına) çəkmək}.
-el birikib, **ağız birləşsin**, elizə dosluq yerləşsin.
-yaxcı pisi saylayan, **açmaz ağız əksiklərin qatında**. (**saylayan:** seçən. ayıran). (**qatında**: hizurunda)**.**

aqız **-**cibi yırtıq, pul durmaz, **ağız yırtıq söz durmaz**.

-göt öppək, **ağız buldarmaz**, ürək bulandırır. (**buldarmaz**: mundar olmaz).

-iki ağız bir olcaq, bir ağız küt gəlir. (**küt gəlir:**bacaracaqsız olur. qısa gəlir).

-keçmişdən kişmiş çıxarsa, **alsa ağız dad olar**. (ağız alsa xoş olar).

-ağız yandıran aşı qaşıq tanar. (qaşıq bilər isti soyuqdursa aş).

-qavurqa ver dişliyə, **ağız əngi işliyə**.

aqız -**ağız burnun tutmuş** göz qulağın açmış.

-**ağız yeyər,** göz utanar.

aqız -**ağız yeyər**, qarın çəkməz bulğanar. (hər iş iki başlıdır)

aqıza **ağıza**. **avıza**. səsə. -**avız avıza** verib: **ağız ağıza** verib. səs səsə verib. -**ağızdan ağıza** daranıb bizə çatmış. **(daranıb**. uzanıb).

aqızaçma **ağızaçma**. ifdar.

aqızaçma **ağızaçma**. ifdar. (**ağızalma**: sübhanə).

aqızaçma **ağızaçma**. iftar.

aqızala **ağızala**. **ağzala**. birik olmayan. (**biriq**: müttəhid). **-**altı olub, **ağızala, ağzındakın aldırar**, iki olub, ağızbir, göy üzdəkin endirər.

aqızalalıq **-ağız alalıq** pozar dağıdar, pozar yoxadar. (**ağız alalıq**: birgəşməzlik. qeyri müttəhidlik).

aqızalma **ağızalma**. ağızaltı. ağnağız. ağnağaz. qəhvəaltı. subhanə.

aqızalma **ağızalma**. sübhanə. (**ağızaçma**: ifdar).

aqızalmaq **ağızalmaq.** ağız almaq. qəhvaltı yapmaq. sübhanə yemək.

aqızaltı **ağızalma**. qəhvəaltı. ağızalma. subhanə.

aqızbaq **ağızbağ**. **ağızqap**. bir nərsənin ağzın bağlama ayqıtı.

aqızbir **ağızbir**. **ağazbir**. **-**altı olub, ağızala, ağzındakın aldırar, **iki olub**, ağızbir, göy üzdəkin endirər. (**ağızala: ağzala**: birik olmayan). (**biriq**: müttəhid).

aqızbir **-**qurd görən itlər ağızbirolar.

aqızbirlik **ağızbirlik**. **birağızlıq**. yekdillik.

aqızbirliklə **birağızlıqla**. **birağızlıqdan**. yekdilliklə.

aqızca **ağızca**. şifahən.

aqızəmməz **ağızəmməz**. könülsüz, yavaş yavaş yeyən.

aqızın **azığın**: qismətin. -**azığın olsa** tanrı yetgər hər yerdə.

aqızqap **ağızyap**. **ağızbağ**. bir nərsənin ağzın bağlama ayqıtı.

aqızlamaq **ağızlamaq**. uca səslə oxumaq. gəpləmək. sözləmək. söyləmək. danışmaq. **1**. ağzında çırpmaq. -onu yaman **ağızladı**. **1**. ağız qoymaq. -tobra tikdin **ağızla**, **ağızladın** bağızla.

aqızlar -əl götürmə götürəllikdən, **ağızlar dadıdır**, kişiyə bircə qalan, yaxşılığın soy adıdır.

aqızlatmaq **ağızlatmaq**. **avızlatmaq.** səsləndirmək.

aqızlı **ağızlı** -qırx qulağlı, **iki ağızlı** (tapmaca) (xurcun).

aqızlıq **ağızlıq** > azıq.

aqızlıq **ağızlıq**. **1**. quşluq. ağızalma. ağızlıq. açma. qaşıtıq. qaşılığ. sübhanə. **1**. dopdolu çuvalın ağzını bağlayan örtük. **1**. sözçü. **1**. gəm. -**ağızlığın (**gəmin**) çeğnəmək**: dişi dişin kəsmək. özü kəndini yemək, tükətmək. **1**.**ağzıq**. **ağız >** (**azıq**. **azuq**. **azuqə**). yem. yem gəvək.**1**. yeməlik..
-**ağızlıq** almaq ağzanmaq > azığlanmaq. azuqə almaq. yemək yemək.

aqızlıq -azəri deyilən ağızlıq, türkcənin bir qoludur.

aqızmaq **axızmaq axıtmaq**.

aqızta -**ağızda it boğuşdurmaq**: tatdırışmaq. anlaşılmaz dildə qonuşmaq.

aqızta **ağızda**. **-ağızda söz,** ayada yol verməz: sözdə işdə çox iti, aparıcı olan.
-**ölüm ağızda**: ölüm qaşla göz arasında. ölüm kimsədən uzaq deyil.

aqızta **-**yoxiydi qadası başın, **olmasaydı ağızda dili**.

aqızta -**ağızda dilin olsun**, əlində yaraq.
-**ağızda savın**, qolunda sazın.

aqıztaqı **ağızdakı**. -əldəki, **ağızdakı**, gözdəki, qulağdakına verilməz!.

aqıztan **ağızdan .-**qulaqdan girəni, **ağızdan çıxanı** başıva tapşır.

aqıztan **ağızdan**.**-ağızdan çıxan başa qada**, ağızdan girən içə qada.
-söz gücün deyən ağızdan yox, duyan qulaqdan sor. (**duyan**: eşidən).
-ağızdan çıxan başa qada, **ağızdan girən içə qada**.
-kişi qılğı zor düşər, **açmasa söz ağızdan**. (**düşər**: düşünülər. açılar). (**qılğı: qılığı**: əməli).
-**ağızdan ağıza** daranıb bizə çatmış. **(daranıb**. uzanıb).
-**ağız ağızdan** yel alar. (**yel alar**: güc alar). (ağız ağıza güc verər).

aqıztan -ovadlığı könüldən, **doğruluğu ağızdan gör**. (**ovadlığı** : gözəlliyi).

aqıztaş **ağızdaş**. **avızdaş**. həm ahəng.

aqqavaq **ağ qavağ**. ağ qələmə. (sipidar).

aqqcatmaq **axcatmaq. axqatmaq. axsatmaq**. xəşləmək. xərcləmək.

aqqıl **ağqıl!**. (yuxarı) çıx!.

aqqın **axqın**. daşqın. basqın. (təcavüz).

aqqor **1**.ağqor gözün ağı. **1**. (göz). hirsli. **1**. domba göz.**1**.gözləri dışarı şarlanmış kimsə.

aqqönüdən **ağkönüdən.** ürəkdən. ağ ürəkdə. təmiz ürəkdən.

aqqöşə **ağköşə**. (bir yığvada) özəl yer. ayrılmış bucaq. məclis sədri.

aqqöy **ağgöy**. **ağgök**. açığöy (açıq göy).

aqqu **ağqu**. **1.quğu**. -kişi eldə, quğu göldə (yaxşıdır).**1.**siud.**1.ağu**. **ağı**. zəhər. -yağudan damsa uğur, **ağqu kimi alqularam**. (**yağudan**: düşman). (uğur: xeyr). ((**alqularam**: qəbul edərəm).

aqqulardan dildi dildir paxtadan yumşaq durur daşdan qatı, **ağqulardan çox acı**, baldan belə süycü durur.(**paxtadan**: pambıqdan)

aqqur **ağqur**. ağma uğru. siud çağı. -**ağqur imәs:** indi dağ **ağası** değil: çıxma çağı değil.. -**ağır, böyük saymaq**: sayqıtamaq.

aqquş **ağquş**. aranquş.

aqqün **ağgün**. **1**.yoğşuq. yağşıq. günük. xoşbəx.**1.**xoşbax.xoşbəx**. -ağgünüm qaragünüm:** ağbaxtım qara baxtım. xoşbəxligim qarabaxlığım.

aqqün amanlıq. dinclik. -dığalara yamanlıq, **ana yurda amanlıq**. (**yamanlıq:** qaragün)

aqqünə **ağgünə.1.**xoşbxliyə**.1.**xoşbxliyə**. -ağgünə** çıxmış.

aqqünlü **ağgünlü.**xoşbax**.**

aqqürən **ağkürən**. alış. qayın ağacı. **(**qızıl ağac. qırmızımtıl təxdəli ağac. fıstıq **(**boyalı**)** ağacı).

aqla -**ağla qara ilədi evrən qılışı**, böylədir ta ki durur evrənimiz. (**qılışı**: işi. əməli. kirdari). (**ağla qara**: yaxcı pis yaxa yaxmaz. yax yamaz)..
-yazının **ağla nə dəxli**.

aqla **ağla. 1.**başa **-**dos var aşa, **dos var başa**.(aşados var, başados var).
-ağlayacaqsan, **sağlığımda ağla sən.**

aqlaq **ağlaq**. **1**. **ağlağan**. -yalqız dəvə, bağıraq olur, yalqız bala, ağlaq. **1**. aylaq. ıssız, boş yer. bayır.

aqlaqan **ağlağan**. **ağlaq**. -yalqız dəvə, bağıraq olur, yalqız bala, ağlaq.

aqlaqlamaq **ağlaqlamaq**. çalkalanmaq **(**gemi vb).

aqlama -**ağlama gülüm** qoy düşmanın ağlasun, alalvan geyin, yağun qara bağlasun. (**yağun**: düşmanın).

aqlama cılama. yılama. yığlama. -**cılama** bala **cılama**.

aqlamaq **-**ağlamaq, anlamağa yol açmır.
-için için, hünkür hünkür **ağlamaq**.: boğzamaq. -kim üçün belə **boğsursan.**

aqlamaq **ağlamaq**. **1**.(**yağmaq**). yaşıytmaq. yaş tökmək. -günük tünük **yaşıytıb** durur: gecə gündüz ağlayır, yağır, yaş tökür.**1.ağımaq. ağılamaq.** sığdamaq. zıqqıldamaq. zırıldamaq. **1.**sığıtmaq. sığtınmaq. < sağtamaq. göz yaşı tökmək..
-sızlarıq ağlamaq: inrənmək. inğrənmək. -daşlar **inrədi**. -göy kükrədi, dağlar **inrədi**. -**inrəyən** könül.
-**gününə it ağlamaq:** çox kötüyə, qın dura düşmək. (**qın dura**: qıyın, ağır duruma).
-cığan edip ağlamaq.
-ürək ağlamaq: sızlamaq. -bulut ağlar el ağlar, bilin ağlar yad ağlar, dili gedmiş əlindən, yaşlı ağlar, yaş ağlar. (**yaş** : uşaq.genc)..
-yas tutub oxşarıb ağlamaq: sağruq sağmaq..
-**ağlayıb uğlayıb**, (uğuldayıb)..
-**ağlamaq türləri**.-{sızlamaq . zırlamaq . sızıldamaq . inləmək . zarımaq . hökürtmək . hünkürtmək. için çalmaq . vıyldamaq}.

aqlamaq **-səslə** (çığırıb bağırıb) **ağlamaq**: cırıldamaq. zırıldamaq.

aqlamalı **ağlamalı**. sağınaq (**> suqnak**(fars)).

aqlamam -**ağlamam, toplayaram yaşlarımı**, toxlataram damarıma, qan edərəm. (**toxlataram:** doldoraram).

aqlaması **ağlaması**. -yaşacıq, körpəcik çağanın **ağlaması, ağlayan səsi**: cığıltı.

aqlamasın -**ağlamasın gözlərim**: **yaşıkmasın gözlərim**. yaşınmasın gözlərim.

aqlamazlar -bir ölümə, **min ağlamazlar**. (yaşam çaydır bir suyunda ikin kərəm üzülməz, doğub boğan dünyadır, ölümlərlə bitinməz).

aqlamazmı -söyənci **sınan ağlamazmı**. (söyənci: e'tibarı)(**söyənci:**söykənci**).**

aqlan **ağlan.** -**ağlan gəlməz**: **ağlına** gəlməz. oyuna gəlməz

aqlanacaq **ağlanacaq**. **ağlamalı**. sağınaq (**> suqnak**(fars)).

aqlap -**ağlap ağlap**: ağlaya ağlaya.

aqlar -**ağlar inlər** yas tutdular.

aqlar **ağlar**. -nə yaşın var, **belə ağlar ötüsən**!?.
-**harda ağlar ana var**, öcü, boynumun borcu!.

aqlar -keçmiş, yaşın sevdası, ağlar gözüm yaş gəlməz. (yaşın sevdası: yaşam, həyat alası, həvəsi.)

aqlar -qarabağrı **qan ağlar**. (**qarabağrı** :qaraciyəri).

-könül sızlar səsi çıxmaz, **könül ağlar, yaşı çıxmaz**.

aqlar -**ağlaram ağlar kimi**, toğluyam toğlar kimi, soğur urdu töküldüm, urğana bağlar kimi. (**toğluyam**: dağlıyam. dərdliyəm) (**toğlar:** dağlar**).** (**soğur**: xəzan. (savır. üzün: üyzün < üzmək) (**urğana**: vırğana. xaraba).

aqlaram -**ağlaram ağlar kimi**, toğluyam toğlar kimi, soğur urdu töküldüm, urğana bağlar kimi. (**toğluyam**: dağlıyam. dərdliyəm) (**toğlar:** dağlar**).** (**soğur**: xəzan. (savır. üzün: üyzün < üzmək) (**urğana**: vırğana. xaraba).

aqlarım -görün çoğunun oyunun, üzər çoxunun boyunun, **nə ərənlər yer qoyunun, qucdu deyib ağlarım**. (**çoğunun**: fələkin) (**yer qoyunun qucdu**: yer qucağın qucaqladı. öldü) (sözlər. -məxtum qulu)

aqlarıtun -**gələli ağlarıdun, hammı gülər**, ele gedki, gedeli ağlayalar.

aqlasa -**bir göz ağlasa**, beyləki göz gülməz. (**beyləki**. bu biri. o biri).

aqlasun **ağlasun**.-ağlama gülüm **qoy düşmanın ağlasun**, alalvan geyin, yağun qara bağlasun. (**yağun**: düşmanın).

aqlaşmaq **ağlaşmaq. ağışmaq**.

aqlatmaq **ağlatmaq.**

aqlavçı **ağlavçı.** avokat. advokat.

aqlaya -**ağlaya ağlaya**: ağlap ağlap.

aqlayacaqsan **-ağlayacaqsan**, sağlığımda ağla sən.

aqlayalar -gələli ağlarıdun, hammı gülər, **ele gedki, gedeli ağlayalar**.

aqlayıb **ağlayıb.** -**ağlayıb ağlayıb**, gözü tökülmək (gözü kor olmaq).

aqlayır **ağlayır.** -bir var qan içmədə, varda biri qan ağlayır.

aqlayır **ağlayır. -**duyanda adın, könül daralır, gələndə səsin ağım ucalır, **səssizcə gülüm könül ağlayır**.

aqlı -bu evrən **ağlı qara sıçovul yalı, k**ökümüzdən birbir qırar baradur. (**ağlı qara sıçovul yalı**: ağ qara siçan (gecə gündüz deməkli) (**qırar baradur**: qırıb gedər).
-**evrən ağlı qara sıçovul** yalı qırar baradur. (dünya gecə gündüz kimi qırıb gedər).

aqlı -**bu evrən ağlı qara sıçovul yalı**, kökümüzdən birbir qırar baradur. (**ağlı qara sıçovul yalı**: ağ qara siçan (gecə gündüz deməkli).(**qırar baradur**: qırıb gedər).

aqlıq **ağlıq**. **yağlıq**. dəsmal. -**əl ağlığı**: əl dəsmalı. -**qab ağlığı**: qab dəsmalı.

aqlıq -**üzağlığ**. qızlıq yağlığı (parçası). evlənən qızın, qızlığının götürülməsindən axan qana bələnmiş ağ parça. bəkarərt simgəsi.

aqlıqı -**parça parça ağlığı olan nərsə, bulut**: qazgöğsü. qazgösü. qazkösü.

baştan **başdan. 1**. tazaşdan. yeni başdan. yenidən. genədən. du barə. mücəddədən. **1**. yuxardan. üsdən..
-**taştan başdan tüstü çıxar**, daşdan yox..
-**başdan yağar**, ayağ islanar..
-**başdan aşan var olsun**, qada balan daş olsun..
-**korqa maldan olsun, başdan yok**. (**korqa**: zərər)..
-**başdan işi başlama**, başladınsa boşlama..
-**başdan eləmək:** rədd edmək. sovsalamaq..
-**yeni başdan**: yenidən. başdan**.** tazaşdan. genədən. du barə. mücəddədən.

baştan **başdan.** -**balıq başdan şişər**, yox quyruğundan, yaluğ başdan qoxar, yox qursağundan. (**yaluğ**: kişi) (kişi başdan azar, yeməyindən, qarnından yox). (kişilik ölümü başdan olur).
-**başdan ayağa bütün geyim, bir gedən** : tutşu. (sərhəm).
-**başdan savar:** atar qaçar.
-**ilk başdan**: lap başdan.

baştan **başdan.** -**başdan eləmək**: baş qaçırmaq. burcutmaq -**burcutmadan** işə qol çəkdi. -**burcutmağın** nə anlamı var, diyeydin bir başa, istəməm artıq..
-**başdan keçməz**, başa gəlməsin!.(**başdan keçməz**: xiyala gəlməz. ağla sığmaz).

baştan **başdan. başıdan.** -**başdan başlamaq:** başıdan başlamaq.

baştan **başdan**: axırdan. (**baş:** axır).
-**su başdan ötmüş**: iş işdən keçmiş.
-**başdan** başa: (**baş:** axır). **başdan sona**: **başdan** ayağa: boya boy. başa baş. əvvəldən axıra.

baştan **-bizdə soru 'başdan'** köçüb, börkə çöküb.

-könül başdan, baş könüldən su içsin. (sinik sanıq birbirinə yoluxsun. sinik say sana bir birində tam qopmasın, ayrılmasın. (**sinik**: atifə) (**say sana**: hesab kitab) (bir başa maddəçi olmamaq).

baştan **-min yaxşılıq aşar başdan**, bir yamanlıq yadınca. (**yadınca**: yaddan çıxınca).

baştan **başdan**. ağıldan. -kin imandan, acığ başdan edər.

baştanaşa **başdanaşa**. ağla sığmaz. aşabaşı. atabaşı. -**atabaşı sayxan**: çox sərxoş. çox xoş.

baştar **biştər**. **biçdər**. oraq. orqaq$_{ka}$.

baştaş **-başdaş olanın** dəğər gündə daşqa başı. (**daşqa:** daşa. daşə).

baştaşı **baş daşı**. baş daşı. sal.

baştaşında **başdaşında**. sindaşında. qəbirdaşında. **-**bininin sindaşında yazılmışdı: -qonşunu qoyub burda neylisin!. (demək qonşunu qoyub mənim görüşümə gəlmə).

baştata **başdada**.-bilik yaşdada var, **başdada**. (yaşın az çoxluğu biliyi etgiliyə bilər)

baştavac hava parası. sərqıfl.

baştay (başlı**)**. bilgin. danişmənd.

baştı **-başdı**, daşdı, aşdır. (kişiyə ilkin baş, qoraq topraq, var yemək gərəkdir). (başda baş).

baştıq sərlövhə.

baştıq **başdıq. paşdıq**. rəis. müdür.

baştın **1**. özgün. bikr. bədii. əsil. orijinal. **1**.mütəşəxxis. **1**. hər nəyin başı. başda olan. **1**.(ağazin. tühaf. qərib). **1**.ilkin. əsli. -**baştın yasma**: əsli nusxə.**1**.

baştın **başlın**. yemiş. bar. mivə. meyvə.

baştınqı **baştınğı**. baştaki. ilk. birinci.

baştır **başdır.**-harada aşdır, **orada başdır**.

baştır -dil daş deyil, **başdır**, dilin **daşıda başdır**. (**daşıda**: təməlidə)

baştutan önbaşı. unbaşı. sərkərdə.

baştutan sər pərəst.

baştutanlıq başçılıq.

baştutanlıq önbaşılıq. unbaşılıq. sərkərdəlik.

baştübən təpə taxlaq. kəlləmallaq. təpəsi üstə.

başuc **1**. (**baş uc**). baş tərəf. **1**. (**baş ucu**). yatıb otururkənkən yanında saxlanan, yatağ qolayında tutlan nərsə. -**başuc** kitabı. -**başuc** saatı. -gördüyün yuxuları **başucluğuna** yaz.

başuq **başuğ**. **başağa**. öndər.(pişəva. lider. sərdəstə. qaid. fərmandeh. rahnəma rəhbər).

başun **başna**. **1**. qullə. -bu dağın neçə **başunu** var. -uca **başunlar**: hündür qullələr. **1**. nəhayət. -**başunda** gəlib çıxdı. -**başuna** dək. -**başunı**: nəhayəti. **başuni** böyük: nəhayət yekə. -işlərin **başuna** bax, qələm qaşın yaşın. **1**. həddəksər. -**başunı**: həddəksəri. -bu mal **başuni** neçiyə çıxar: -o hər nəyin **başnasın** istir: həddəksərin.

başuva -gülgün qonşuva, **gəlsün başuva**.

başüstə **başüsdə**. **baş üsdə**. (yantı: -başız dursun gül üsdə).

başvuran muraciət edən.

başvurma dəğmə. yolux. öncədən qərarlaşmamış görüş, yolux.

başvurma yoruq.

başyaraq xisusi vəsayil.

başyazı düşük. (dəğişilməsinə güman edilməyən, inanılmayan).

başyazı salım.

başyazı yazqı. sərnivişt.

başyazısı -**başyazısı** yazılmır, qazılır.

başyazıvı **-**baş yazıvı kövün yazınla dəğiş. (**kövün**: könül) ('baş yazı' deyilən nə varsa tulla, könlündəkilər uyqulamağa, sağlamağa edin, çalış).

başyazman başkatib.

başyuqa **başyuğa**. **yuğça**. **yuça**. **yuğa**. qusl.

başyuqanmaq **başyuğanmaq**. **yuğanmaq**. qusl edmək.

başyumalı **baş yumalı**. **yuğası**. boynuna qusl düşmüş. qusl edməli. quslulu.

bat **1**. alət. **1**. dib (# **baş**:). -**başından** girib **batından** çıxdı.

bat **batu**. ürjan.

bat **bət**. iti.

bata **bada.** qayta. qata. başa. -bir **qata**. bir bada. bir başa. -bir **qata** içdi: bir bada içdi. bir **başa** içdi: bir **qata** içdi: -bir **qata** evə ged: bir başa ged.

batacaqdır -iysiz qalan ölkəm batacaqdır, sən iysəli bil batmayaqdır. (**iy**: **is**: yiyə).

bataçıxmaq (batıb əli açığ (boş) qalmaq). boşaçıxmaq. vərşikəst, bankrot olmaq.

bataq **badaq**. (bacaq). ildik.

bataq **batağ**. **1**. **(batan**, sancan nərsə). qamış. saz. **1**. xətər. -**bataq!**: xətər!. -**bataqsız** yol yox, ağasız ev yox. -ağır **bataqlar** savmış. **1**. dehşət. -onun adın eşidib **batağa** düşdü. -**bataqlı** bir olay. **1**. qara, böhdan, iftira bazarı. -bu **bataqdan** kim ağ qurtaracaq. **1**. sıvaq. sıvar. palçıq. -**batağ** yer: palçıq yer. **1**. batılan, yenilən yer. şikəst meydanı. **1**. çıxmaz. -**ağır bataq**: çıxılması çox güc olan. **1**. (gəndab)..
-**bataq yer**: iş gücün axımı olmayan yer.

bataq **batağ**. palçıq.-**batağdada** qalarlar.

bataqalmaq bataqa, çıxmaza oturmaq.

bataqçı aldığı paranı töliyəməydiğan. bədxərc. velxəş. israfkar.

bataqınmaq **batağınmaq** vərşikəst olmaq.

bataqlamaq (**batdırmaq**). döğmək.

bataqlamaq **badaqlamaq**. ildikləmək.

bataqlıq **1**. **(batan**, sancan nərsənin olan yeri**)**. qamışlıq. sazlıq. **1**. zibillik. **1**. balçıqlıq. palçıqlıq.

bataqlıq **1**. kormalıq. çormalıq. korlan. çorlan. çökək. çökəlgə. **1**. cumuq. məxməsə. **1**. cumuqluq. çökütlük. vərşikəslik.**1.**qarqınmış. çıpıtınmış. çapıtınmış. lə'nətlənmiş.

bataqta **bataqda**. **batlaqda**. **-**doğuzu bataqda bas.

batalan **1**. döğüş alanı. qətlqah. **1**. döğüşçü. şampiyon. qəhrəman.

batamaq **badamaq**. bətəmək. bətləmək. bağdamaq. bağlamaq. -**badanmış** qolum, açılmaz yolum, axıdar gözüm, qanlı yaşın durmadan.

bataman batur. qəhrəman.

batamı **-**otalağı çor vurmaz, **acı badamı don vurmaz**.

ba̲tan **ba̲yan**.

batan -hərdən tapılıb, **gündə batan yar**.

batan qərq olan. sınan. şikəs yeyən. -**batan** yox. -**batan** gəmilərin çürük gövrələri.
-**gün batan**: gün yaşan.

batana **-batana yürmə**, atana yür, qırığı qırma, qıranı qır. (**yürmə**: yügürmə. cumma).

batanaq dulbar (**dal**). məğriq.

batanq **batanğ**. dulban (**dal**). ğərb.

batar **1**. (batırmaq, yenmək gücü olan). qəhrəman. pəhləvan. **1**. batı. aşağ. günbatar. günbat. ğərb. baxtər. məğrib.

batar **-**ağır yük **barha** batar. (**barha**: barır. gəlir. bir gün).

batar günbatar. ğərb. məğrib.

batar itər**.-**uzansa söz, us batar, uzansa yol, **dos batar**. (**us**: ağıl). (uzun sözdə ağıl çaşır, uzun yoldan, dosd ayrılır)..
-uzansa söz, us batar, **uzansa yol**, dos batar. (**us**: ağıl). (**batar**: itər). (uzun sözdə ağıl çaşır, uzun yoldan, dosd ayrılır)..
-gəzəyən ayaq təzəyə batar.

batar **-**kişinin sözü baldı bal. **atar batar** bir bənd oxuyun. tarım alqasın (atar batar: səhər axşam) (**alqasın**: qəbul edsin: təqəbbələllah)

batar **-**tərs çönəndə baxtlar, **gülcərədə tikən batar ayağa**, qışın günü ayran dolar çanağa. (**gülcərədə**: güllükdə. gülüstanda).

batar -yolsuz azar, **elsiz batar.**.
-yamanla oturan, yalana batar.

batar -**çıxar batar: çaxar baxar**. **çaxar qaçar**. yarar yatay. yağar yatay. günün çıxıb batan yönləri. şərq ğərb. məğrib məşriq.
-göndəçisi, elçişi **alçalan el batar**, yüksələməz!.(**göndəçi**: xəbərçi. qazetəçi. jurnalist).

bataruq əzəmətli.

batası -**batası** dünya alar, biri yatar biri qalxar.

batası **-batası qonağ**, girir çıxmır. (batsın o qonağ ki, girir çıxmır).

batası **-**yaxşılığın gələsi, **yamanlığın batası**. (eyilik gələrisə, kötülü qaça düşər).

batası! quyğulası. quruyası.

batayatar **-**döndü oxu yolundan, **geddi qutu batayatar**. (**qutu**: baxtı). (işləri tərsindi, indi baxdı tam yatar). (**batayatmaq**: batıb gedmək).

batbax bədbəx.qutsuz. uğursuz.

batbaqlıq **bədbaxlıq**. **korbaxlıq**. kütaylıq.

batı -arxa**batı**: quzey**batı**.

batı batar. aşağ. günbatar. günbat. ğərb. baxtər. məğrib**..**

-güney batı yeli: bozyel. qızılyel.

batı ziyanı**. -**yaxı mənim, yağı sənin, batı mənim, butu sənin. (**yaxı**: əzabı) (**batı**:). (**butu:** bəhrəsi). -**batı** nə **butu** nə: zərəri nə, nəfi nə.

batıb **-batıb gedmək: batayatmaq**. -döndü oxu yolundan, geddi qutu **batayatar**: işləri tərsindi, indi baxdı tam yatar. (**qutu**: baxtı).

batıc **badıc. badış. bağdıc**. dar bəst.

batıq **1**. cumuq. vərşikəst. **1**. cumuq. -**1**. **bəlik**. bulaşıq. **1**. mundar. **1**. kifir. **1**. kəsif. **1**. vərşikəstə. vərşikəs. bankırot. **1**. quytu. qaranlıq. qə'r. **1**. məğruq. qərq olmuş.

batıq **1**. qərq olmuş. -**batıq** yox: qərq olan yox. -**batıqlar**: qərq olmuşlar. **1.** bulanğır. bulay. mundar. kəsif. -**bulayus**: **bulay su**. -**bulay** kişi. kəsif kişi. **1.** gömük. gömülmüş. quylanmış.

batıq buldar. mundar.

batıqay **-**ər arvad savaşı, **batığay yeli**, gün düşər yatar. (**batığay yeli**: axşam qalxan batsı yeli)(**gün düşər** : gün inər. gün batar)**.**

batıqçı batıqların qulluğunda olan. batıqları qurtaran. qərq olamuş.

batıqraq **batığraq**. aşağıraq.

batımcan **badımcan**. **bağımcan**. bağlacan. patlıcan.

batımcana **badımcana .-**nəməniyə bəncir: -çor vurmuş **qara badımcana** .

batın -**batın almaq:** dözmək. muqavimət edmək.

batin **-zahir batin:** yaşıq daşıq. -**yaşıq daşığı** bu.

batınçı cumunçu. qəvvas. dalançı.

batınqı **batınkı**. cumunkı. batmış. cummuş. ğəriq. qərq olmuş.

batır **-**at yürüşdə, qurd yırtışda, ər gürəşdə, **batır savaşda.**.
-könül batır, atar durmaz. (**könül batır**: həvəs dəli qanlı olur). (həvəsə, bəsdi yoxdur) (başsız könül, durmadan yürür).

batır -**batır yavasız**, yara çarasız olmaz. (**batır yavasız**: igid çatmıyan yönsüz, eybsiz).

batır **baytur**. **batır**. dəlir. dilir. qoxmaz.

batır cesur. batur..
-tülkü **batır**: tülkü bəy.

batır çökür. dərinləşir. -ucalırsa dağ, **çökür** dərələr.

batır **-qalan geriyə batır**, yaşam yarına baxır.
-qaqırın utmaq, batır yaraşı. (**qaqır**: qağış. qəzəb. qəhr. qəhir. acığ).

batır -qorxağı qovsan, **batır olar**.

batıran -gül kimi görünüb, **tikən batıran**, dos kimi görünüb, yılanca soxan.

batırar -bir sivilcə alar yaraşın, bir qıvılcım batırar malın, kəndivə güvən barınca varın. (**yaraşın**: gözəlliyin) (**barınca varın**: hər nəyin varın. dünya varın**.**

batırar **-**sevgidən qorun, sevdiyin sevgi batırar səni.
-**qayğı qalxsa kişi batırar**, su qalxsa qayığ.

batırar -itgi var yetgi artırar, **itgi var varlıq batırar**. (**itgi**: zərər. ziyan).

batırarta **-**işləyən bitirərdə, batırarda. (**bitirərdə**: qazanarda. aşlanarda).

batırı -**əmək batırı**. əmək qəhrəmanı. iş, zəhmət batırı.

batırır **-eşq kimin batırır**, kiminə yatır, kimin bulatır.

batırqa qəhrəman. şampiyon.

batırqay pəhləvan yalı.

batırlar **-at kəlləli batırlar**, səngərlərdə yatırlar. (**at kəlləli**: qorxmaz).

batırlarca qəhrəmanca. cəsurca.

batırlıq cəsarət.

batırlıq qəhrəmanlıq.

batırmaq **1**. **batrınmaq**. aldırmaq. sınmaq. şikəs yemək. təslim olmaq. -kim kimə **aldıracaq**. **1**. tübləmək. dibləmək. **1**. cumqurmaq. qərq edmək.

batırmaq **1**. təpirmək. yaşırmaq. yoşurmaq. gizlətmək. 2. ıslatmaq. -bunu kim boyuya **batırdı**.

batırmaq -qanına dişin batırmaq.

batırtı **batırdı.** sapdı: caydı. -işləyən qapdı, gözləyən sapdı. (**sapdı**: caydı. batırdı). (aşun gözləmək yok, görmək yeridir!). {gözləyən, yolda gözü, görəyən aldı yolu. (görəyən: iş qılan. işləyən)}.

batırtmaq cumurtmaq. şikəs vermək.

batış **badıc. badış. bağdıc**. dar bəst.

batış cumuş. yaşış. -gün **cumuş**..
-**çıxış batış**: zihur iful.

batışlayan **bağışlayan**. payğaşan.

batqaq **batğaq**. bataq.

batqan **batğan**. mığmığa. ağcaqanad. ditdili. hünü. çivin. sivir. sivrisinek, tatarcıq. pəşə. -**qızıl batğan**. qurd sinəyi.

batqay (**bat+qay**) > **bahadur**. **batur**. cəsur.

batqı itgi. qoğuc. toxunc. çapa. şəpə. salpa. yalpa. dalqat. dalqum. dalqaş. üzük. ziyan. zərər.

batqınlıq çonğqurluq. çökgünlük. qalığlıq. viranlıq.

batqur icraiyyə güc. yasaları uyqulayan hörgüt.

batlaq **<> baltaq**. **1**. çamırlıq. **1**. çuxurlan. uçurlan. **1**. cumaq. -**1**. ləm yəzrə' **(**daşlıq**)**.

batlaqta **batlaqda**. **bataqda**. **-**doğuzu bataqda bas.

batlaqtan -**batlaqdan gül** əsgik olmasın. {bu, bir çox anlamlı sözdür. biri -bataqlıqda sapıqlara yolağuz olan güllər. (**bataqlıqda:** gümrahlıqda) (sapıqlara: gümrahlara) (**yolağuz**: yol açan. yol göstərən)}

batlaqtır **batlaqdır**. yardı (<**yar**: uçurum). uçurumdur. **-**o sənə yar deyil**, yardı sənə**. (**yar**: dos. kömək).

batlı **badlı**. tovuq. yelli.

batlı **bətli**. iticə.

batma pox. təzək. -öküzün yemin dana **(**inək**)** batmasına yatır, bəylik düşündə görür.

batmaq **1**. aşmaq. yaşmaq. -gün **aşdı**, tün düşdü. **1**. **baymaq**. -günəş **baydı**: batdı. **1**. opınmaq. hopınmaq. dalmaq. -öz içinə **opınmaq**. **1**. bayumaq **(**günəş**)**. **1**. qarılmaq. bulaşmaq. qatıqmaq. **(# arılmaq:** təmizlənmək). **1**. cummaq. qərq olmaq. **1**. aşmaq. yaşmaq. keçib gedmək. gedib gözdən itmək. **1**. aldağınmaq. tələf olmaq. **1**. cummaq. boğulmaq. qərq olmaq. borca batmaq: boğulmaq. çökmək. münqəriz olmaq. **1**. çökmək. qərq olmaq. -duyqulara **çökmək**. -suya **çökmək**. **1**. sancılmaq. -iğnə **batmaq**: iğnə sancılmaq.

batmaq 1. balınmaq. -gül şehinə **balınıb**. **1**. bulaymaq. buldarmaq. mundar olmaq. **1.** cumlamaq. şumlamaq. çökmək.

batmaq **1.** girmək. cummaq. -hər nə **batılar**. (# **tapmaq**: üzə çıxmaq. basırılqanı, yasırılqanı, qapalanğanı, xafalanğanı üzə çıxarmaq -hər nə **tapılar**). **1**. **batmaq.** nərsənin içinə, cumuna girmək. (**tapmaq**: **təpmək**. nərsənin üzərinə, yönünə, üstünə düşmək, çarpmaq).
-**qıçına batmaq**: dinc yerdə duramamaq.

batmaq **baymaq**. -gün **baymışdı**..
-iştə kitosların işi bu, **tikən kimi gülə batmaq**, yılan kimi dosdu soxmaq..
-iştə kitosların işi bu, tikən kimi gülü saşmaq, yılan kimi dosdu soxmaq**.**

batmaq əzilmək. tutulmaq. -yağmura **əzilmək**: cimcilaq olmaq. -qıtlığa əzilmək: aclığa tutulmaq.

batmaq **-susmaq nədir** (nərə çatır) ?: -ölüşgəmək. ölsərmək. ölmək. **batmaq**. yoxolmaq.

batmaq -**suya batıb gedmək**: **suya vurub gedmək**: yox olmaq.

batmaq tozmaq. toza gedmək. məhv olmaq. dağılmaq. nabud olmaq. -tüm varım **tozmuş.** uçmuş. çökmüş.

batmaqa -boş verərnlər, üz verərnlər, **batmağa yol sürənlər**. (boş verərnlər: vaz keçənlər). (üz verərnlər: kimsənin suçun undanlar). (davranışda, çəki səki, həddi hudu saxlamaq gərək.)**.**

batmama -**suya batmama üçün, boğulmamaq üçün geyilən geyim**: çökətə**.**

batmamaq **-**güvənci qorumaq üçün, yalan demə, **yalana batmamaq üçün**, güvən.

batman batur. güclü. pəhləvan. -**batur savaşda**, yürük yarışda.
-**batman otur**, yüngül dur. (bulut olsan yoldaş olar yel sənə). (işində tutarlı, qayın olubda ərincək olma, sust təpräşmə). (tutarlı, qayın: müsəmməm, ciddi)**.**

batman **-öz sözüvü batman tut**, yüngül otur, ağır uç. (**batman**: ağır). (**yüngül otur**: şişib oturma). (**ağır uç**: ağır, ölçülü davran, təprən).

batmanı böyük ağramlı çəki birimi.-**evində batmanı görməz**, qonşuda oqqanı çəkməz. (**oqqa**: kiçi ağramlı çəki birimi) (**çəkməz**: götürməz, dözəməz)**.**

batmasın **-**ayağına şiş, **dilinə tikən batmasın**.

batmasın **-**gözlə giləm, **gülə tikən batmasın**. (**giləm**: gözümün bəbəyi).

batmasın **-kim desə tikanı batmasın ələ**, koldan qızıl gülü qopara bilməz!.

batmatan -göy çökmədən, **yer batmadan**.

batmayaqdır -iysiz qalan ölkəm batacaqdır, sən iysəli bil batmayaqdır. (**iy**: **is**: yiyə).

batmaz **-**gün doğmasa, **gün batmaz**, qoşun yatar, yov yatmaz. (**yov** : düşman)**.**

batmaz **-**pox yeməzin **çəmçəsi batmaz.**(pox eşmiyən dimdik niyə bələnir).

batmış **-**aldışma dözümə, dözümlə çalış, dözüb yatan, **yerə batmış**. (**aldışma**: yahalma. alınma. qapılma)**.**
-yıxılan qalxmış, **oturan batmış**.

batmış -**batmış elə yas tutulmaz**. gömük elik, yas görməz. batmış, ölmüş, yoxalmış millətə kimsə yas tutmayıb. (**gömük**. gömülmüş. quylanmış).

batmış cumunkı. batınkı. cummuş. ğəriq. qərq olmuş..

-adı batmış!:gözdən uzaq!. lə'nətlik.

batmış vərşikəstə.

-**çuxura batmış:** çuxanaq. çuxur. oytuq. -onun **çuxanaq** gözləri.

batmış -yıxılan qalxmış, **oturan batmış**.

batmışlar vərşikəstələr.

batnağın dulbarın (**dal**). gün batan çağı.

batnalı dulbalı (**dal**). ğərbi.

batov sınıb, yıxılıb, əzilən yer, qacar, orun, məqam. -burası bizim **batova** çöndü.

batraq **bayraq**. ucuna parça şırıqı, şırıqları, yaxud parça, saç, gön tikəsi kimi başqa nərsə taxılan sırıq. döğüşdə hançı qoldan olduğun bəlirdən tanıq, əlamət.

batrı -**oxuc batrı**: qələmi batrı.

batrınmaq **batırmaq**. aldırmaq. sınmaq. şikəs yemək. təslim olmaq. -kim kimə **aldıracaq**.

batruş **1**. sıvağ. suvağ. **1**. zığlı palçıqlı su. çalpanaq. ləcən. **1**. quytuş. qəliz. quyuq. bərk. (# **boş**). -**batruş aş**: suyun çəkib bərkimiş qoyuq aş.

batsın -dığıya qız verənin, anası **batsın**, ər verənin, atası **batsın**. (**dığıya**: ermənіyə)..

-bilmədin evrənin çevirdiyini, ulu dağlar devirdiyini. bilmədin sənə nə etdiyni, çağrı **devriləsi evrənim batsın**. (**çevirdiyini**: kələkini). (**çağrı**: çöğrü. > çarxı. çərxi).

batsın -durmuşu **bala batsın**. (yarqış sözü)..

-**sonsuz olan yol batsın**, başsız duran **el batsın**. (sonsuz olan yol batsın, başsız olan el batsın).

batta **-qara toprağa batda**, alçaqlara alçalma. (**alçaqlara**: iğrənclərə. namətlərə).

battı **batdı**. -gün keçdi, kölgələndik kölgəmizdə, **gün batdı**, ayda yatdı, ölülər ölkəmizdə.

battı **batdı**. **-**ölkədə yalan yatdı, **kişi batdı**. (**yalan yatdı**: yalan var oldu).

battı **batdı.-kəşür olub yerə batdı**: yerkökü kimi yerə taxılmış.

battı **-**biləqəy başa çatdı, **bilməqəy yolda batdı**.

battı -**dözən batdı**, çalan qapdı. (dözmək ölümə soxar, çalıb işləmək düz yola qoyar)..
-başa düşən iş başardı, **başa düşməyən işdə batdı.** (**iş başarmaq**:işi bitirmək)

battın -ata maldan kar çıxmaz, **başda baxtın olmasa**!.

batu **bat**. ürjan.

batunmaq məftun olmaq

batur (yerə batıb düz duran). çadır dirəyi. əmud. sutun.

batur **1**. ağabəy. böyük qərdəş. dadaş. **1**. bataman. qəhrəman. **1**. pəhləvan. alpağan. albağ. **1**. **batqay** (**bat+qay**) > **bahadur**. cəsur. **1**. əzim.

batur **batır**. **baytur**. dəlir. dilir. qoxmaz.

batur batman. güclü. pəhləvan. -**batur savaşda**, yürük yarışda.

batur tovğac. cəsarətli.

batur -**elbatur**: milli qəhrəman.

baturluq yürək. cəsarət.

batursaq cəsarətli. qeyrətli.

batyatmaq **batayatmaq**. batıb gedmək. -döndü oxu yolundan, geddi qutu **batayatar**: işləri tərsindi, indi baxdı tam yatar.

bavlu **bavul**. bağlı. dağarcıq. çanta. çəntə. -**bavulunda** nə var.

bavul **bağul**. çəmədan.

bavul **bavlu**. bağlı. dağarcıq. çanta. çəntə. -**bavulunda** nə var.

bavulçu **bağulçu**. çəmədançı.

bay -ac çapılar, **bay tapılar**. (parasız dağlı, paralı yağlı).

bay bol. kan. mə'dən. (# **kəm**: az. yüngül)..
-yemişi **bay** yerlər..
-**subay**: subəyi. subaşı. mirab.

bay **boy.** mə. bə. ba. şaşma ünləmi.

bay zəngin. dövlətli. varsıl.

bay dövlətli. -**bay cığay:** kasıb dövlətli. müstəmənd qəni. (**cığay. çığay**: yoxsul. kasıb). -könlü kimin olsa qali yox cığay**,** qılsan gücün olmaz belə dolqa bəy. (**qali**: əgər) (**qılsan gücün:** zorlasan belə) (**dolqa bay**: ürəyi zəngin). {(**yox cığay:** içi boş) (**cığay. çığay**: yoxsul. kasıb)}. {içi çürük, beyni çomağı neyləsəndə içi ağabay (dolu kişi) edəməzsin}.

baya **-**ölüm bir düşmür **yoxsula, baya**, birin yatağda tutur, birin dirir darağa.

baya saya. normal. **(**alışılmış**)**.

bayac sevindirici. şad edici.

bayaq bu ayaq. bu qabağ. -**bayaq** geddi.

bayaq öncək. əvvəlcə.

bayaqı -bayağı, sadə sözlər.

bayaqı **bayağı**. (**bayır**: açıqlıq. bolluq). nərsənin bollanmış, çoxalmış, yayılmışlıq durumu. çölə düşmüş. ələ ayağa düşmüş. -bu iş o dənli (o qədər) görüldü ki, artığ **bayağılaşdı**.

bayaqı **bayağı. 1**. aralıq**.** mə'mul. -qoy **aralıq** işlərimi görüm gəldim. -**aralıq** işlərindən baş açır ki. -**aralıq** gedirim (xərcim) çoxdur. **1**. geçən. -**bayağı** gün dedim. **1**. aran. orta. vəsət. -**aran** mal. **1**. çeğnəlmiş. **1**. bayıq. -**bayıq** davranış.**.**
-bayağı, **sıradan biri**, **kimsə**, **nərsə**: seşmə. saçıllı. **1**. **yayağı**. **sayağı**. **1**. aşlav**.** aşınıv. **1**. enik (**< enmək**). adi. alışılmış. gündəlik ki. -**enik** yaşam.**1**.ruhsuz. dadsız. məzəsiz. -**bayağı** yaşam. -**bayağı** durum.**1**.moddan düşmüş. əsgi. qədimi. öğrəşilmiş. -**bayağı** geyim.**1**.bədihi. bədiyi, yeni olmayan. -**bayağı** yazılar, qoşular. **1**. önəm daşı mayan. (naçiz). -**bayağı** bilgili. **1**.açıq saçıq. amiyanə. **1**.ruhsuz. dadsız. məzəsiz. -**bayağı** yaşam. -**bayağı** durum. -bayağı danışıq: bayağı dil. bayqa. arqo. **1**. sadə. tənik (qalın, buruşuq olmayan).

bayaqı **bayağı**. -**çox bayağı, dəğərsiz olan:** ötükdən alçaq.

bayaqıca **bayağuca**. bilinən, tanınan nərsədən, durumdan sözləşirkən deyilən bağlayıcı söz. olağu **(**olunan**)** kimi. **(**mə'muli**)**. -**bayağuca** danışma. -bu gün söz danışmadı, özüvü yığ, **bayağıca** danışma. -bizim toyumuzda **bayağıca (**hammı necə**)** keçdi. -axşam. -oda yaşamın sürüb gedmiş. -bizim kişi yaşamın sürməmiş.

bayaqılaşmaq bayağılaşmaq**. bayqurmaq.**

bayaqımaq **bayağımaq**.yavamaq. səfehləmək.

bayaqu -**bayağu il**: bildir. ötən il. keçən il.

bayal xoşal. şən. xurrəm. razi.

bayan **1**. bax > **bayvan**. **1**. **bayun**. **buyan**. **1**. iyi. burlağı **(**rəfdarı**)** işi, davranışı bəyliyə yarar, kişiliyə uyar olan. xeyri xah. **1**. mərhəmət. şəfəqət. **1**. səvab. -**buyan** işlərdən geri qalma. **1**. xan. varlı. **1**.**bayğan**. **bayğat**. baylı. barlı. varlı. zəngin. dövlətli. mürəffəh. bərəkətli. -**bayan** ölkə: varlı məmləkət. **bayan** il: bolluq ili. -**bayan** dil. **1**.şad. -**bayan üzlü**: şad. -bayan yırlar. -bayan günü. bayar günü. bayram günü. **1**. mehriban. lətif.**.**
-bayan günü: bayar günü. bayram günü.

bayan -**başbayan**: first lady.

bayan **batan**. -**günbayan**: günbatan.

bayar **1**. **boyar**. **(boy ər)**. soylu. əsilzadə. nəcibzadə. **1**. qutlu. -**bayar iş**: qutlu iş**.**.
-bayar günü: bayan günü. bayram günü.

bayarlar qutlular. qutqular.

bayarlatmaq bayarşatmaq. bəğənitmək. bəyənitmək.

bayarlı **bəğərli**. şad.

bayarlıq **bəğərlik**. şadlıq.

bayartay ağultay. görüşədək. xoşca qalın.

bayas **1**. köhnə. **1**.əntiqə. **1**.(> **bastani**). **1**. şad. (xursənd. məsrur. xoşal. müfərrəh. mübtəhəc).

bayasul məmnun qalmış.

bayat (**boyat**). **1**. qaqsıq. köhnə. köhən. **1**. işlətmə sürəsi **(**tarixi**)** keçmiş. **1**. bayğan (> **mehriban**). açıqlıq, rəhmət gətirən, verən. rahim. **1**. **boyat**. ilahi. qutsal. muqəddəs. tansuq. yəzdani. xudayi.

bayat yiprin. əsgi. -**yiprin çağda**: əsgi zamanda.

bayatı (**boyatı**). **1**. **(**işlətmə sürəsi **(**tarixi**)** keçmiş**)**. tarixi inqiza. -**1**. ertəki. əsgi. -**hər nəyin bayatı**, **köhnəlmişi**: ertəyin.

bayatı rəbbani.

bayatımaq köhnəmək. köhənmək. qursımaq.

bayatın bastani.

baybaq **baybağ**. toxun. qayın. mütməin. itminanlı. **1**. razi. məmnun.

bayçamaq istəyinə, aradığına çatmaq, yiyələnmək. kamyab olmaq.

bayı -**baylar bayı**: **bəylər bəyi**: bayman.

bayıbmaq varlanmaq. dövlətlənmək.

bayıq **1**. duzsuz. -**bayıq** qız. -**bayıq bayıq** danışma. **1**. dadsız duzsuz, məzəsiz yemək. -subaylığın **bayıq** yeməkləri. tohi. **1**. ruhsuz. **1**. bəsit. sadə. onqay. qolay. buruşuq olmayan. -bu çox **bayıq** sorudur. **1**. naşı. piyada. -işində **bayıq** kişilər. **1**. inanılır. işgilsiz. doğru. səmimi. -sevgisində **bayıq** qalmaq. -**bayıqca** söylədi üzünə. **1**. bayağı. -**bayıq** davranış. **1**. açıq. cıf. (zənəndə). -**bayıq** boya: gözə çarpan, iti boya. **1**. açıq. geniş. -**bayıq bayır**: gen ova. **1**. qara. azad. -**bayıq** bazar. -**bayıq** iş bazarı. **1**. riyasız. muxlis. sadiq. **1**. **baylan**. sırtıq. ədəbsiz. tərbiyətsiz. -**baylanın** biri **baylan**. **1.** layiq..
-**bayıq sayıq**: saçma sapan. hədərən pədərən.

bayıq **bayığ**. savab. səvab.

bayıqlanmaq bayınlanmaq. bayqınlanmaq. bayışmaq. qırcanmaq. qırıtmaq. süzülmək. siylənmək. sıylanmaq. nazlanmaq.

bayıl -**bayıl bayıl: bayqın bayqın. mağıl mağıl**. **mayıl mayıl .** süzgün süzgün. -**mağıl mağıl baxmaq**: süzgün süzgün baxmaq. bayqın bayqın baxmaq.

bayılmaq **mayılmaq**. huşazmaq. huşdan gedmək.

bayılmaq -ösgürüb, ayılmaq, **osdurub bayılmaq**.

bayın **1**. bəylər. ağalar. ərkəklər. -**bayın** bölümü: ağalar özəl bölüm. **1**. sayqı olaraq bəylərə üzlənəndə söylənir. -**bayın bayan**: ağa xanım. **1**. heyran. **1**. xoş.

gülümsər. mütəbəssim. xoşhal. -**bayın baxış**: xoş baxış. -**bayın buraq**: xoş qoxu. **1**. xumar. neşəli.

bayınacaq şaşılacaq. -**bayınacaq** nərsə: şaşılacaq nərsə.

bayınlamaq **bayqınlamaq**. yeğniləmək. yengiləmək. yenikləmək. yüngülləmək. yüngülləmək. açılsamaq.

bayınlanmaq **bayqınlanmaq**. **bayışmaq**. **1**. **bağınlanmaq**. (əsən, axan nərsə). durqunlanmaq. durmaq. 2. başın, usun (huşun) itirmək. **1**. **bayıqlanmaq**. qırcanmaq. qırıtmaq. süzülmək. siylənmək. sıylanmaq. nazlanmaq.

bayınlanmaq bayqınlanmaq. bayışmaq. **bayıqlanmaq**. qırcanmaq. qırıtmaq. süzülmək. siylənmək. sıylanmaq. nazlanmaq.

bayınlıq xoşluq. gülümsərlik. mütəbəssimlik. xoşhallıq.

bayınmaq **1**. (< **bay**. **bəy**. **biq**). böyümək. **1**. axınmaq. uçunmaq. uçğunmaq. huşdan gedmək. **1**. itinişmək. özündən gedmək. huşun itirmək. -istidən **itinişdi**. **1**. bəyinmək. neşə, həzz almaq. sevinmək. keflənmək. bayram, cəşn tutmaq. qutlamaq. **1**. mat qalmaq. heyran qalmaq. -**bayınası** gözəl qız. **1**. ürəyi keçmək. özündən gedmək. -istidən **bayındı**. **1**. xoşlanmaq. kef eləmək. ləzzət aparmaq.

bayıntır **bayındır**. bayşad. avad. abad. mə'mur.

bayıntırlıq **bayındırlıq**. bayşadlıq. avadlıq. abadlıq. ümran.

bayır **1**. **bağır**. dağ bağrı. dağ ətəyi. açıqlıq. düzlük. **1**. boraz. bozağ. sökülməmiş, əkilməmiş topraq. **1**. **bayur**. varlı. barlı. dövlətli. sərvətli. **1**. say. çöl. **1**. ağlaq**.** aylaq. ıssız, boş yer. **1**. **(**bayvan. bayıran > biyaban**)**. çöl. dalay..
-**sayır bayır:** xəzə'bülat. çərənd pərənd. sərsəm. rəbtsiz, məntiqsiz nərsələr..
-**bayır bayır**: **bağır bağır**: bağırasına. çox iti, acı. -bibərlər ağzımı **bağır bağır** yaxıdı: yaxdı. -acılı, yergili sözlər kövrək bağrın, **bağır bağır** yandırdı..
-**orun bayır**: ev eşik. **1**. açra. açıqlıq.

bayır çal.çalan. çalanğ.

bayırca açıqca. bariz şəkildə.

bayırqaçıt darqaşayırd. ovbaş.

bayırlıq bayran. > biyaban.

bayırmaq **1**. (**bəy olmaq**). güclənmək. qudrətlənmək. **1**. **bayurmaq**. varlanmaq. barlanmaq. dövlətlənmək. sərvətlənmək.

bayırvan biyaban (< **bayır**). dəşt (< **dış**). çöl.

bayış **1**. **bağış**. **bayğaş**. buyurğan. burğan. adaq. ötünc. ötüş. xeyrat. ehsan. **1**. zənginləyiş. -**bayışqa** yardımçı qoşul.

bayış bayşanlıq. bayşatlıq. sevinc. sevinclik. şadlıq.

bayışmaq **bayınlanmaq**. **bayqınlanmaq**. **1**. **bağınlanmaq**. (əsən, axan nərsə). durqunlanmaq. durmaq. 2. başın, usun (huşun) itirmək. **1**. **bayıqlanmaq**. qırcanmaq. qırıtmaq. süzülmək. siylənmək. sıylanmaq. nazlanmaq.

bayışmaq sevinmək: şadllanmaq.

bayıtar **bayıdar**. huşdan aparan. bihuş edən.

bayıtmaq varlatmaq. varlandırmaq**. -böyüdüb bayıtmaq:** yekədib varlatmaq.

bayqa **1**. kiçik əğləncə topluğu. **1**.bayağı dil. bayağı danışıq. arqo.

bayqaç (**bayığa**, açığa vuran) bayqaş (bayığ qoyan. açığa qoyan). dedektiv. müfəttiş.

bayqal **1**. arasıra şəhirlər, ölkələr arası qurulan böyük bazarlıq. palanqu. panayır. **1**. baysal. şad. xoşnud. **1**.xoşbəxt. (# **qayqal**: bədbəxt).

bayqal **baykal.** axmaq. bayağı beyinli.

bayqalamaq bəygələtmək. zənginlətmək.

bayqalaşmaq **bayğalaşmaq**. tə'sirdən düşmək. etgiləməmək.

bayqalmaq **baysalmaq**. şadlanmaq. sevinmək. xoşnud olmaq.

bayqan **bayğan**. hakim. ərbab.

bayqan **bayğan**.**1**. **bayan**. **bayğat**. baylı. barlı. varlı. zəngin. dövlətli. müreffəh. bərəkətli. -**bayan** ölkə: varlı məmləkət. **bayan** il: bolluq ili. -**bayan** dil. **1**. şad. -yeddi gecə **bayğanlıq** toy qurdular. **1**. (> **mehriban**). bayat. açıqlıq, rəhmət gətirən, verən. rahim. **1**. valeh edici. **1**. dövlət. güc çoğası (çoğvası, mərkəzi).

bayqanlıq **bayğanlıq**. şadlıq. şadyanalıq. -yeddi gecə **bayğanlıq** toy qurdular.

bayqanmaq **bayğanmaq**. **bayğışmaq**. varlanmaq.

bayqaş **1.** (bayığ qoyan. açığa qoyan). bayqaç (**bayığa**, açığa vuran) dedektiv. müfəttiş. **1. bayğaş**. **bağış**. buyurğan. burğan. adaq. ötünc. ötüş. xeyrat. ehsan.

bayqat **bayğat**. **bayan**. **bayğan**. baylı. barlı. varlı. zəngin. dövlətli. müreffəh. bərəkətli. -**bayan** ölkə: varlı məmləkət. **bayan** il: bolluq ili. -**bayan** dil.

bayqəlmək **baygəlmək**. böygülmək. böyükmək. böykülmək. böyümək. yukalmaq.

bayqın -**bayqın bayqın. bayıl bayıl.mağıl mağıl**. **mayıl mayıl .** süzgün süzgün. -**mağıl mağıl baxmaq**: süzgün süzgün baxmaq. bayqın bayqın baxmaq.

bayqın **bayğın**. zənginin**. -**yarlı canı ardağlı, bayğın malı. (**yarlı**: yoxsul) (**ardağlı**: dəğərli)**.**

bayqın -**bayqın bayqın: bayıl bayıl.mağıl mağıl**. **mayıl mayıl .** süzgün süzgün. -**mağıl mağıl baxmaq**: süzgün süzgün baxmaq. bayqın bayqın baxmaq.

bayqınlanmaq **bayınlanmaq**. **bayışmaq**. **1**. **bağınlanmaq**. (əsən, axan nərsə). durqunlanmaq. durmaq. 2. başın, usun (huşun) itirmək. **1**. **bayıqlanmaq**. qırcanmaq. qırıtmaq. süzülmək. siylənmək. sıylanmaq. nazlanmaq.

bayqışmaq **bayğışmaq**. **bayğanmaq**. varlanmaq.

bayqu -bayqu yürüncə, bayqu işlə. (**bayqu**: boşuna. havayı. müfdə) (işsiz dolaşmaqtansa, müfdə çalış).

bayqul bayğul varlı. -**toplumun bayğul (**varlı**) qatı**: yuxarı təbəqə. götrüm.

bayqurmaq **bayağılaşmaq.**

bayqurur **bayağılaşır.** -**bilik tükənməyən bayluqdur, sınanmasa bayqurur. (bayqurmaq**: bayağılaşmaq**).**

bayquş **vayquş**. **sayquş**. puhuquşu. xaraba quşu. ügi. ühi. uhu. pühü. {"üühü. püühüü" səsi çıxardığından bu adı almış}. korquş. korbağa quş. çökəv. çökov. çökəv. çökov. koruv. korav. koryapalaq. koruğu. koruvu. yapaqulaq. quqqumay. kələmama.

bayla (< **bay**). baha. qiymətli. giran.

baylaq **baylağ**. varkan. varlıq, dövlət yeri. kan. mə'dən. -**balyağlı, baylağlı yurt**: ballı kərəli, kanlı yurd, vətən.

baylaq **baynaq**. **baymıq**. **1**. bayqoş. bayoş. maymaq. maynaq. baydalaq. bayınmış. bihuş. **1**. kənidini yığanmayan. kənidinə yiyələnəmiyən.

baylaqı **-**dil elitin, bayrağı, yurd elitin, **baylağı**. **{**hər elin (millətin) varlığını bəllətən(var olduğun tanıtan özəl, özgür bəlgə) sözü, savı, dilidir}. {hər elin (millətin) balyağı (balı yağı), kan dağarı, nəni devləti, yurdu, torprqıdır}.

baylan bayıq. sırtıq. ədəbsiz. tərbiyətsiz. -**baylanın** biri **baylan**.

baylanmaq **1**.şişinmək. **1**.neşələnmək. ləzzət almaq.

baylanmaq köklənmək >keflənmək. ləzzət almaq. -düşəli baylananlar var. (**düşəli**: havayi). -bu dünyada baylananlar var.

baylar -**baylar bayı**: **bəylər bəyi**: bayman.

baylatmaq zəngitmək. varlatmaq.

baylı **barlı**. **varlı**. bayan. bayğan. bayğat. zəngin. dövlətli. mürəffəh. bərəkətli. -**bayan** ölkə: varlı məmləkət. **bayan** il: bolluq ili. -**bayan** dil.

baylı -**baylı başlı**: saylı sağlı kişi.

baylıq **1**. xoşluq. kef. -puluz paraz xoşluğa, **baylığa** gedsin!..
-**baylığ (bəylik) tuğu, simgəsi**: bayraq. baydaq. baytuğ.

baylıq -artıq baylıq, baş carpmaz. (çox sərvət qafa yarmaz, qırmaz. (artıq mal göz çıxarmaz).

baylıq **baylığ**. **1**. gənc. mə'dən. -**ast baylığ**: gizli gənc, mə'dən. **1**. sərvət. dövlət. **1**. **bəylik**. gənc. xəzinə. -dil **baylıq**. **1. bəylik**. muxdarlıq. azadlıq. -**dil baylığı**: dil azadlığı.

baylıq **baylığ**. -**çolaq baylığ, kor elgə**. (çolaq baylığın, devlətin, korda elgəsi olar).

baylıq baylıq. bəylik. **1**. devlətçilik. **-baylıq** qorqasız olmaz. (**baylıq:** devlətçilik**)**. (**qorqasız**: silahsız). **1.** devlət. **-yoxsula baylıq**, can sağlıq.
-**baylığ deyib güvənməqıl varıva**, oğulsuzda, baylıq durarmış demə.

baylıq hükmranlıq.

baylıq -**baylıq qazan elivə**, bilməm demək çox qolay. (**çox qolay**: çox rahat. çox pis, alçaq)

baylıq -hər elin çıxarı **seçdiyi baylıq**. (**baylıq**: devlət)

baylıqı **baylığı**. varı yoxu. devləti. -söz kişinin baylığı.
-**ağız baylığı**: söz azadlığı.

baylıqı -**dil baylığı:** dil: söz xəzinəsi, varlığı.

baylıqı -dil bir elin, keçmişi, **baylığı** varlığı, ulamıdır. (**baylığı**:bəyliyi) (**ulamıdır**: dəvamıdır)**.**

bayluq mə'dən. sərvət.

bayluqdur -**bilik tükənməyən bayluqdur, sınanmasa bayqurur.**

baymaq **batmaq**. -gün **baymışdı**.

baymaq **batmaq**. -günəş **baydı**: batdı.

bayman baylar bayı. bəylər bəyi.

baymıq **baylaq**. **baynaq**. **1**. bayqoş. bayoş. maymaq. maynaq. baydalaq. bayınmış. bihuş. **1**. kənidini yığanmayan. kənidinə yiyələnəmiyən.

baynaq **baylaq**. **baymıq**. **1**. bayqoş. bayoş. maymaq. maynaq. baydalaq. bayınmış. bihuş. **1**. kənidini yığanmayan. kənidinə yiyələnəmiyən.

baynatmaq qənilətmək. varlatmaq. zəngitmək.

bayraq **batraq**. **1**. **(1**. < **bay**. **bəy**. **1**. < **bat**. **(**< **batmaq)**. **bas**. **(**< **basmaq))**. pərçəm. bürçəm. birçəm. bir baylığın, bəyliyin imi, simgəsi, göstərisi, nişanı. **(**dırapo**)**. **1**. sancaq. təmrən. nərsənin ucluğu, ucuna taxılan tikə. 3. sancaq. yönətlik. abratlıq. başqanlığ. paşalıq. şahlığ. padişahlığ. başdağlıq. başatlıq. salmalığ. qələm rov. **1**. **(**dik duran. istandard**)**. nimunə. nimunəvi. **1**. biçili. salımlı. salıqlı. rəsmi. **1**. sancaq. dalba. simbol. **1**. sancaq. pərçəm. ələm. **1**.yalaq. pərçəm. **1**. simbol. bulqa. **1**. yolağuz. rəhbər.

bayraq **batraq.** ucuna parça şırıqı, şırıqları, yaxud parça, saç, gön tikəsi kimi başqa nərsə taxılan sırıq. döğüşdə hançı qoldan olduğun bəlirdən tanıq, əlamət.
-**dilim bayraq**, topraq duraq.
-**{**aşmaz, uçmaz, yerə düşsə, beli sınmaz (tapmca) (bayraq)}.

bayraq **baydaq**. **baytuğ**. baylığ (bəylik) tuğu, simgəsi.

bayraq -**bayraq kimi görkəmli**.

bayraq -əllər dursa sağ əldə, **bayraq qalar yerində**..
-**bayraqları bayraq edən**, düşüklərin qanıdır. (**düşüklərin**: şəhidlərin)..
-**türkün yoluna türkcəsi bayraq**, dilçi çalışa, işçiyə qayrağ. (**qayrağ**: qayrat).

bayraq -əlləri yellənsə **bayraq kimi**..
-**ağsa qızıl bayraq**, doğar qara topraq.(**qızıl bayraq**: günəş).

bayraqçı **1.** pişkisvət. **1**. bələdçi. **1**. (rahnəma. rəhbər). **1**. yayqaraçı. carçı.**1.**tuğçu. ələmçi. ələmdar.

bayraqı **-**dil elitin, **bayrağı**, yurd elitin, baylağı. **{**hər elin (millətin) varlığını bəllətən(var olduğun tanıtan özəl, özgür bəlgə) sözü, savı, dilidir}. {hər elin (millətin) balyağı (balı yağı), kan dağarı, nəni devləti, yurdu, torprqıdır}.

bayraqı -ərkdən düşməz, **yıxılmaz bayrağı**. (**ərk:** qudrət).

bayraqız **-**yaz bayramız qutlu, **türk bayrağız yaşar olsun**.

bayraqları -**bayraqları ağdıran**, düşüklərdən axan qan. (**ağdıran**: qalxılzan). (**düşük**: şəhid).

bayraqları -**bayraqları bayraq edən**, düşüklərin qanıdır. (**düşüklərin**: şəhidlərin).

bayram **-ac olub sürünən**, bayram günü ac qalır.
-**bayram doğrasıyla**: bayram munasibətiylə.

bayram **-**ay yazan yazı, belə yazı yaz, **mutlu bayram**, qutlu yaz..
-**kiminə bayram**, kiminə qarqam. (**qarqam: qaqram**: qısınca. işkəncə).

bayram **-bayram gəlir**, ev eşiyi çalatın**.** (**çalatın**:bəzəyin. donatın).
-milli bayram: milli şənlik, cəşn. bodun toy. boyun toy.

bayram cəşn. festival..
-**bayram günü**: bayar günü. bayan günü.

bayram -**dəliyə savaş, bayram**, iğidə savaş, qayrağ. (**qayrağ:** qeyrət. qayırma, başarma, edmə gücü). (dəli üçün savaş dalaş toy gəlir. dəlinin işi qavqa savaşdır, ama igid, ərkişi üçün savaş, kimliyin, qeyrətin qorumaqdır).

bayram eygün..
-**bayram aşınan**, savaş daşınan..
-bayram günü aşa ne, savaş günü daşa nə..

-**el bayramı**: **il bayramı.** novruz..

-**bayram günü aşa ne**, savaş günü daşa nə!.

bayram -toy bayram **düzdülər**. -şanlı bayram **düzmək**.(**düzmək:** tərtib vermək).
-**bayram önü** xına yok, ondan **keçni** xına çok. (**keçni**: keçmiş. keçəndən sonra. sonrası. keçəndən gerin).
-ökdəyə günündə, **dələ gündə bayram**. (**ökdəyə**: ağıllı) (**dələ**: dəliyə).

bayrama **-**minik enik **birgə çatar bayrama**, birgə çatmaz barçağa. (**barçağa**: mənzilə).

bayramca bayramlıq.

bayramı -bilik odu sönürsə, **bilməzlərin bayramı**. (**bilməz**: qanmaz. cahil).

bayramın **-**eldən atılmış, külsıra qalmışlara. **elinlə olsun toyun bayramın**, görən desin doğan elin var olsun. (**külsıra**: külbaşlı. kimliyi alçalmış).

bayramınız **(qulama). -**bayramınız qutulsun, tenqir bolluq, uzun yaş bersin. (**qutulsun**: qutlu olsun) (**tenqir**: tanrı).

bayramız **-yaz bayramız qutlu**, türk bayrağız yaşar olsun.

bayramızı **-**durmadan gülüb durun, bayramızı qutluyun.

bayramlamaq **bayram tutmaq**. **1**. qutamaq. toyğamaq. cəşn tutmaq. **1**. bəyinmək. qutlamaq.

bayramlıq bayramca.

bayramta -**bayramda ac ölənlər.**

bayran **1**.**bəğrən**. **1**. ışıqlı. -**bayar** görük.

bayran bayırlıq. > biyaban.

bayranmaq tətmin olmaq.

bayrat (müfərrəh. mütəməvvil).

bayrıq **bayrığ**. kef. ləzzət.

bayrın kef içində. kefli.

bayrınmaq kef aparmaq. ləzzət almaq. toy busat qurmaq.

baysal **bayqal**. sevik. şad. xoşnud.

baysat {> **bayest** (fars). **basdağ: (< basmaq:** girikdirmək**).** gərəkir**.** gərəkən. zərur}. -**baysat** olsa gəlirim. -**baysat** dəğil.
baysatlıq: zərurət.
bayəd(fars). {(**y** <> **s**). < **basıt (< basmaq:** girikdirmək**)**: gərək}.

baysat **bayşat**. bol. (sərşar. fəravan. vafir. sərsəbz. pərvar. kamyab.kamkar. sərvətmənd).

baysın -**yer baysın**: yer yurd. yer mülk.

baysul! məmnun!.

baysutmaq bayşatmaq. sevindirmək. məmnun edmək.

bayşan bəyəncli. şad.

bayşanlıq bayşatlıq. bayış. sevinc. sevinclik. şadlıq.

bayşat **bayşad**. **1**. bayındır. avad. abad. mə'mur. **1**. boluq. firavan. **1**. bol. (sərşar. fəravan. vafir. sərsəbz. pərvar. kamyab.kamkar. sərvətmənd).

bayşatlıq **bayşadlıq**. **1**. bayındırlıq. avadlıq. abadlıq. ümran. **1**. bolluq. firavanlıq. nazi ne'mət.

bayşatlıq bayşanlıq. bayış. sevinc. sevinclik. şadlıq.

baytaq **baydaq**. **bayraq. baytuğ**. baylığ (bəylik) tuğu, simgəsi.

baytaq **baytağ**. **1.** bayata əğimli, meyilli olan. mürtəce'. **1.** bir çox. olduqca. bir xeyləh. əpəy. əpəycə. **1. > payitəxt**.

baytaqı **baytağı**. bay, bəy kimi. baylıq. bəylik. bəyə dəğər, layiq biçimdə. -**baytağı** toplantı quruldu.

baytal **baydal**. hikumət. hökmranlıq. sultanlıq. səltənət.

baytalıq **baydalıq.baydallıq.** hakimiyyət.

baytallıq **baydallıq. baydalıq.**hakimiyyət.

baytan (bayıdan). sərməst edən. huşdan aparan. bihuş edən.

baytan -azcaq olursa oğul uşağın, **dosdan atadan baydan gör**. (**azcaq**: azmış. pozuq) (gənclərin pozuğluğu devlət, dos, evdən asılıdır).

baytay **bəğtiy**. sevincli.

baytın **baydın.** -**baydın işi barmanla**, yoxdun, işi yalmanla. (barman: para, mülk) (yalman:əmək. zəhmət) (bəy (zəngin) işi, varıyla, yoxsul işi əməgi ilə görür).

baytıran -pişanlar, barslanları andıran, **kişiləri baydıran**. (**barslanları**: arslan pələhləri). (baydıran: ləzzət verən, sevindirən).

baytu **baydu**. dövlətli. zəngin.

baytuq **baytuğ**. **bayraq. baydaq**. baylığ (bəylik) tuğu, simgəsi.

baytur **batur**. **batır**. dəlir. dilir. qoxmaz.

bayuq oğan. eygin. xariqa. şahanə. süper. mö'cüzə. çox iyi.

bayul nobl. alicənab. əsil. şərif. nəcib.

bayumaq batmaq **(**günəş**)**.

bayunmaq zənginləşmək.

bayur **bağur**. **qapur**. **kəbir**. **1**. qotan. kotan. böyük. kökərək. kökələk. ulu. -**qapur sapur**: kəbirə qısır. kəbirə günah. **1**. yaşlı. qoca. qarı. kavaltaz.

bayur **bayır**. varlı. barlı. dövlətli. sərvətli.

bayurmaq **bayırmaq**. varlanmaq. barlanmaq. dövlətlənmək. sərvətlənmək.

bayuvmaq bəylənmək. zənginləşmək. dövlərlənmək.

bayvan **bayan**. **1**. qabal. qabla. kavla. kaval. çiğ. qora. qoraq. qoruq. koraq. koruq. körpə. göyüt. göysüt. göysüq. göycək. gövcək. gövcə. göycə. gövərik. göğərik. göyərik. gövələk. göyələk. çağacıq. xam. göyəl. gövəl. gövlə. yaşıl. göğüş. gövəl. gövəy. gövəc. göyəv. göyəl. göyəc. kal. çağala. bozu. bozuq. naşıl. naşı. **1**. biqanə. çölük. yad. yaban. **1**. gürə. azıq. azqın. quduruq. quduzuq. **(**ürkük. ürkək) geyik. yeyik. qayıq. yaban. yabanı. yabanıl. qopa. qopaq. qopuq. qovaq. qovuq. koryat. hoyrat. quba. qoba. qopa. azığ. vəhşi. -yoxsul doğma yerindədə **bayvan** qalır. -**qopa** cocuq. -**qopa** heyvan. -**qopa** pişik. -**qopalıq** dövrü. -**qopa** ellər. -**qopa** quş. **1**. **(bayıran > biyaban)**. **bayır**. çöl. dalay.

bayvançı çölçü. dalayçı.

baz gəz. -quş**gəz**: quş**baz**. -arvad**gəz**: arvad**baz**. -dəli**gəz**: dəli**baz**. -ləc**gəz**: ləc**baz**. -həmcins**gəz**: həmcins**baz**.

bazaq **basaq**. ayağ basılan yer. pillə.

bazaq bizov. buzağu.

bazalı **basalı**. **bəsili**. iyicə. gözəlcə. gəlişcə. oytunca. uytunca. onğatıq. onğatca. onatıq. onatca. oğatca. oğatıq. onatca. düzəməlli. -onda **bazalı** anladım ki, yaşam illə yox, günlə ölçülərmiş.

bazar < **basar**. **basaq**. **1**. nərsnin basıq, çox, bol olduğu yer. -ət **bazarı**: ət satılan yer. -**quş bazarı**: quşların oturağı. -**qızıl bazarı**: satılan yer. -**bit bazarı**: əsgi üsgü satılan yer. -hər nəyin ucuzu, axtar tap bazarı. **1**. alışveriş. alışsavış. alısav **(**ticarət**)**. alver. savsatığ. sovsatığ. çaqqa çuq. -**bazar olsun**: alışverişin iyi olsun. -**bazar yoxdu**: alver kasaddı. **1**. çalçılıq çarşılıq. **1**. alver. piyasa. market..
-**arasıra şəhirlər**, **ölkələr arası qurulan böyük bazarlıq**: bayqal. palanqu. panayır..
-**satı bazar**: alver. ticarət..
-**həfdəlik bazar**: pərkar. barqar. (< **barmaq**). gümə. cümə bazarı. üstü örtülü geniş barma, otraq yeri. böyük alan, meydanlarda, satış üçün, yanları geninə açıq böyük çadırsı yer. -balıq **barqarı**. -ət **barqarı**..
-**həfdə bazar**: carlıq (carçılıq bazarı. həfdəlik bazarı)**.**.
-bazardan qalan, bir gün qalar, əkişdən qalan bir il.

bazar -**bazar ağası**: çalşı ağası. **çarağa**. **çalağa**. bazar düzənin güdən güdücü, qaravul.

bazar -**bazar gözü**: bazarın qızığında. bazarın şirin çağı.
-**qapalı bazar**, dosluğu pozar.

bazar **-**evdəki sayap, çarşıya çıxmaz, **bazar sayabı**, evlərə sığmaz. (**sayap: sayab**: hesab). (çarşı: bazar).

bazara **-bazara çıxan görür** baxtı açıqdır qapalı. (sınanmasa bəllənməz, yumuşmasa bellənməz). (**yumuşmasa**: işlənməsə, yumuşanmasa).

bazara -bir ayağın asıb durar, bir ayağın basıb durar, hər bazara barıb durar (tapmaca) (**tərazı**).

bazari çalçıl. çarşıl. çarşıya, bazara **(**alverə**)** bağlı olan nərsə.

bazarında **bazarında**. **-sevgi bazarında çal ha çaldı**, eşşək dəviyə topanca altdı.

bazcu müfəttiş dərgəvçi.

bazu **basu. pazu.** dirsəkdən çiğinə dək qolun ən yoğun bölümü. əğin (**. əkin**: yoğun. əkili).

bazu qarca.

bazu qolqat .qolun güclü olan yukar bölümü. **-**qonağa qoyaram sıylavım olar, **özüm yeyərəm qolqatım olar**.

bazubənd qolsar. qolsarıq. qolçaq.

bebeq **bebek**. **bəbək**. bəbə. bebe. səs bənzətməsi ilə taxılmş ad. -başqa dillərdən latincədə (-babu. -pupus, pupa, pupe).

-**gözbəbək:**. bəbənək. bəbəcik. qaraq. qaracıq.

becərən əkləyən. əkidən. eğitən. tərbiyət verən. **-**atı saxlayan, **oğlu əkləyən tanır**.

becərən -**yel becərən**, boran biçər. {yel ösdürən, boran osdurar (dərər). (**ösdürən**: becərən)}. (hər nə əksən əkinə, ondan çıxar tikənə).

becərər kökər. gögər. gögərər. bəsər.**-alqış ilə ər kökər**, yağmur birlə yer. (**alqış ilə**: təşviq ilə).

becəri **1**. **becəti. pərvəri**. əkiti. əkdi. əkizi. -**əkdi su**: buz salınmayıb, soyuqda sogudulan su. -**1**. pərvəri. **1**. ədəbli. müəddəb. **1**. əkiri. pərvəri. tərbiyət olunmuş. **1**. çağarı. (**çağatmaq**: kökətmək). bəsəri (bəsləmək). pərvəri. kəsim üçün çağatılmış, becərilmiş, kökətilmiş heyvan.

becərib **-**yeri işləyib tuxumla, **sözü becərib yorumla**.

becəriqli **becərikli**. buldıqlı. yetənəkli.

becəriqsiz **becəriksiz**. yetənəksiz. yetersiz. bulduqsuz.

becərilir səmirir **.-**umud könlüdə doğur, **işdə səmirir** .

becərilmək bəslənmək. işlənmək. -**keşdə ilə becərilmək**. keşdələnmək keşdə salınmaq.

becərimək başarımaq. işdələşmək. məşqul olmaq. -on il bu görvdə **başarıdı**.

becərir bəsirir. kökər. **-**yağmur bilən yer gögər, **alqış bilən ər kökər**. (**gögər**: göyərər).

becəriş **{**(nərsəni artırmaqla düzəltmək). (nərsənin olduğun işləyib yoğurmaq, yordamaq, güclətmək). (# **biçəriş**: nərsəni biçib, kəsib, bir bölüm ayırmaıda düzəltmək) } düzəriş. islah. -**becəriş** yolları.

becəriş **1**. becətiş. pərvəriş. əkitiş. əkdiş. əkiziş. **1**. düzəriş. **1**. öğrətmək. eyitiş. əritiş. tərbiyət. -səni **becərən** atan batsın. **1**. əkiriş. əkriş. pərvəriş.

becərişmək ustarışmaq. mahirləşmək.

becərit əkirit.

becərmək **1**. düzəltmək. -bu işləri işləyib **becərən**. **1**. öğrətmək. eyitmək. əritmək. tərbiyət vermək. -səni **becərən** atan batsın. **1**. əkişmək.

becərt **əkit.** tərbiyət ed. -tuxumu yazdan, **balanı yaşdan əkit**!. (**yaşdan**: yaşkən. uşaqkən. uşaqkən).

becərtmək **1**. əsrəmək. əsləmək. bəsrəmək. bəsləmək. **asramaq**. **basramaq**. **baslamaq**. **1**. **pərvərtmək**. əkitmək. əkdətmək. əkzətmək. **1**. göğərtmək. göyərtmək. pərvəriş vermək. **1**. kökərtmək. göğərtmək. (pərvəriş vermək). **1**. yasdırmaq. öğrətmək. eyitmək.

becərtmək yüsdürmək. rüşd vermək.

becəti **becəri. pərvəri**. əkiti. əkdi. əkizi. -**əkdi su**: buz salınmayıb, soyuqda sogudulan su.

becətir **becədir. -**topraq, **içindəkin gücədir** (becədir).

becətiş becəriş. pərvəriş. əkitiş. əkdiş. əkiziş.

becit (biçilmiş). naçar. məcbur. laəlac.

beçara çulunbur. culumcur. çorumcur. yoxsun. məfluk.

beçə -{. **böcək. beçə. biçik**} (< **biçmək. çapmaq**).

beçə **biçik.** kiçik. **-biçik qorğa qorğa**, kişik sorğa sorğa yetişər!)**qorğa qorğa**: qoruna qoruna. çəkinə çəkinə. diksinə diksinə). (**sorğa sorğa**: sorağlaşa sorağlaşa. soruşa soruşa).

beçə sürgün. yeni sürmüş dal.

beçəq **beçək. biçək**. (< **biçmək**). açа (**açmaq**). hica. hicə. heca.

beçəqmək **beçəkmək. biçəkmək.** (< **biçmək**). açamaq (**açmaq**). hicalamaq. hicələmək. hecalamaq.

beçəriş beçə (**biçə**: uşaq) becərmə, tərbiyət vermə. uşaq tərbiyəti. nərsəni çağalığından eğitmək.

beçəyə -**beçəyə qaza dadanmaq.**

beçit fehrist. list. siyahi. surət. -pitiklərin (kitanları) **beçiti**. -alınmalıları **beçiti**.

behtər **< beğrək**. **beğrət**.

bekar **1**. ərkən (ərlikdə (ərliyə) olan.). subay. qadınsız kişi. **1**. **təkər < tək ər**. subay. mücərrəd. -buydaq. subay.

beko (rus**)** **(1**. **buxov**. **1**. < **qapo**. **qovuq**. < **qab)**. göz qapağı.

beq **bek. bük. bət**. > **pök**. (< **bükük**). boğun. düğün. -barmaq **pökləri**: barmaq boğunları. -**pökləri** şişmiş: boğunları şişmiş. -iki **pök**: iki boğun. -**pökləri** boş: boğunları boş.

beqar **bekar**. **1**. boşağ. **1**. boytaq. subay. mücərrəd.

beqar **bekar**. **1**.boş.**1**. ərgən. ergin. subay.

beqar **bekar**. açıq. boş. subay. əşsiz. -**açıqlar**: subaylar. işsizlər. bekarlar. -**açıqda qalmaq**, **yaşamaq**: subaylıq keçirmək. -**açıq tutuq**: evli evsiz.

beqet **beket**. duraq. isqah. -dəmir yol **beketi**.

beqrəq **beğrək**. **beğrət > behtər**.

beqrət **beğrət**. **beğrək**. > **behtər**.

bel (**< bal**. **böl**). **1**.məhəllə. sahə. bəxş. sektör. **1**. məni. ispirm.**1**. aşıt. dağ beli..
-**beli bükük**. qatlı, qəddağ. iki qat. bomgür. bomcür. çöngür. domgür. domcür. dönbelək. güngür. günbelək. < çönbelək. kambır. kövgül. kövgün. bağrabel. qopbel. qapabel. qatbel. qatqal. xoxabel. qopgür. qozı. qozu. qozzuq. qozuq. qozıq. qozbel. qozlu. qayaq. qayıq. qayqın. qayqun. kujpoşt..
-**beli quru**: **əqim**. **1**. qurubaş. sonsuz < soysuz. soybur. ocağıkor. korocağlı. **1**. sonsuz. oğulsaq. oğulsuz. doğmaz. qısır. kor ocağ. korocağ. ocağıkor. korocağlı. uşağı

olmayan, doğamayan. döllənməyən. varissiz. bilavaris..

-**dağ beli**, **kəməri**: yamac. qaymac. qayıs.

dağ beli: yart. art. gədik. aşın. -qar yağsa, ilkin art **qapanar**. -ərincəyə eşik **art** bolur, bulu göydən yük bolur: təmbələ qapı astanası belə dağlıq görünür, göydəki bulut kölgəsi belə yük olur, ağırlıq edir..

-**incə bel**: yelvə.**.**

-bel bükmək: belinmək. riku' edmək.

bel **1.**{**bel çeşitləri**: çəkəl. çəpin. kəcilə. kərtüvar. kərki. körtüz. kərtiz. kitmən}.
-qorxu gücü bel bükər , qoymaz tovan uçmağa. (**tovan**: güc).(qorxunu tanı, qorxunu yen).
-**qozbel:** qozağu.

bel -bel külük bizdən, **bel büküş sizdən**. (bel külük bizdən, tər töküb işləmək sizdən).

-**bel külük bizdən**, bel büküş sizdən. (**bel külük bizdən**, tər töküb işləmək sizdən).

-ağzına hoy ver, **əlinə bel ver**.

bel -**bel külük bizdən**, tər töküb işləmək sizdən.

bel nərsənin uzunluğuna ortası, yarsı, orta bölümü. -**qabbel (qab bel)**. qabın uzunluğuna orta bölümü. qayarısı. -bir **qabbel**: yarım qab. qabın yarısınacan. -**qabbeli** aşmış. -vanna **qabbel** dodur..
-gələnə bel bağlama gedənə yas saxlama, kəndivə inan..
-**bükük bel:** çalaqoz. yarı qozlanmış.

bel çat. gövdədə gücün çatıldığı, toplandığı yer. bel. -**çatın** qırılsın.

belaqrı **belağrı.** belsızı.

belbaq **belbağ**. buta. kəmər.

belbaq -**boyalı, naxışlı qurşaq, belbağ**: kəşik. çəkik.

belbirmək **bel vermək**. çıxıntı yapmaq. qabarmaq.

belcə ikiqaşın ortası.

belçiq **belçik** (beli açıq). aybaşı. peryod. qaidə.

belə **-anadilin danmamış belə**, danadan hələ süt yeyən ana.
-belə deyirdi: şunday deydi.
on -**bilməzlərin on daşı**, bilənlərin bir daşı.(yüz bilməzlə, çox demə, bir bilənlə, bir danış.).(yüz bilməzin yüzdaşı, bir bilənin bir daşı). (yüz bilməzlə, yüz danışmaqdansa, bir bilənlə, bir danış.).

on **-**gör eşit iylə, dişlə dad toxun, **on kərə tuşla**, birdin at oxun.

on **-on dinləyib** bir söylə. (çox dinləyib az söylə).

on **onğ.** onğay. qonğay. qolay. asan. rahat -**on** iş.

on onğ. unğ. oq. uq.

ona ki -yalğun tanıyar tanrısı kimdir, **tapnan ona ki, həp yolu çindir**. (**yalğun** : kişi olan). (**çindir**: doğrudur).

ona **-**ana dilin qorumazsa ana, **nə deyim ona**!.
-kəklik səsin çıxartdı, **qırqı ona göz saldı**.
-üstəlirsə yalan, **çatmaz ona heç yaman**.

ona **-**başım şüşə, **ona dəğsə çatdurur.**

ona -gərəklik yasa yapar, **kəndi ona yasanmaz**..
-uyar isən doğuya, **sən sürəcəksin ona**. (təbiətin qanunların bilməklə, onu sürə bilirsin).

ona oğan.

ona **-ona qərəb** , mına qərəb , sana kim qərəb. kəndivə qərəb, kəndivə güvən. (**qərəbmək**: qarabmaq. baxmaq). (hər nəyin dərdinə ulaşırsan, özüvə bir baxmayırsa).

-iki könül bir olsa, **kimin ona sözü var**. {könüldəşlər elçi aramaz). (aramaz: gəzməz)}. (könüldəşə elçi gərəkməz) (**elçi**: arxan. vasitə).

ona -**sən ona**, **mən ona**, pox yemək **qalar ona**: sən razı, mən razı, pox yedi aradaki qazı. (**onamaq**: razı qalmaq).

onac əlac.dava. dərman.

onaçı **1**. islahtələb. **1**. şəfa verən. nəcat ver.

onaq **onağ**. **onağay**. sağ əlli. (# **solaq**: **çonaq** sol əlli. solağay).

onaq **onağ**. halal. həlal. -**onağ yasağ:** halal haram. -**onağ** işlər bitmiş ki, **yasaqlarla** uğraşaq. halal işlər qutulmuşdur ki, həramlarla məşqul olaq. (anlaqlı kişi əlində seçim var).

onaqası **onağası**. onbaşı.

onaqay **onağay**. onaq. sağ əlli.

onaqış **onağış**. **onayış**. ehqaq.

onaqlıq **onağlıq**. **onaylıq**. mühiqliq.

onaqmaq **onağmaq**. dayanmaq. muqavimət edmək.

onaqurmaq yasaqurmaq. yamaqurmaq. tə'mir edmək. -ayaqqabı **yasaqurmaq**.

onal **1**. (ruberah). **1**. sadiq. doğru. düz.

onamaq **1**. **oğnamaq**. oxşamaq. təltif edmək. -onun ağlı mənə qattı **onadı**. **1**. **onatmaq**. rəhmət elmək. -allah **onasın**: allah **rəhmət** eləsin. **1**. rəhmət elmək. -allah **onasın**: allah **rəhmət** eləsin. **1**. razi olmaq. -çox **tutqaladım** onanmadı **(**razi olmadı**)**. **1**. ilərimək. gəlişmək. osamaq.

onamən razıyam.

onan can qurtaran. -bu kəsəldən **onan** olmadı.

onanmaq qəbul qılınmaq.

onap düzələn. islah olan. -**onap değil**: düzələn. islah olan değil.

onar düzələr. islah olar.

onarı qapqal. yapqal. tə'mir.

onarıq islah. -**onarıq** gözləmə.

onarıq ona bilən. düzələn. düzələ bilən. qabili islah. qabili tə'mir.

onarım onaş. yasaş. rimont.

onarış -**uyğun onarış**: islahat.

onarıtmaq (**on**: düz). tə'mir editmək.

onarıtmaq baş verilən bir itgini qapsanmaq, doğrutmaq. tərmim, cübran, bərpa edmək.

onarmaq yapqılamaq. qapqalamaq. tə'mir edmək.

onartıqın **onardığın.** razı olduğun.

onası **(**< **onğ**: doğru**)**. həqiqi. -sözlərin **onası alası** anlamları.

onası (onğusun, doğrusun istəmiş tək). olası kimi. maşşalah. maşalah. nə gözəl. -**onası** nə böyümüş.

onasın! maşallah!-**onasın !onasın!:** maşallah! maşallah!.

onaş **1**.(behbudi).**1**.razılıq. -onun **onaşı** ilə. -**onaşın** al: razılığın al.**1**.yasaş. onarım. rimont.

onaşlıq **onatlıq**. qutaşlıq. qutalıq. yetiniş. başarı **(**başa çatdırma**)**. müvəffəqiyyət. nailiyyət.

onaşmaq **1**.razılaşmaq. -danışıb **onaşmaq**.**1**.cürləşmək.

onat **1**. **onat!**. doğru!. -siz dediyiz **onat!. 1.** saleh. əsləh. -**onat** işlər: əsləh işlər. -**onat** kişi: saleh adam. **1**. köşək. rahat. dinc. **1.** qayqın. qayıcı. parlaq. düzgün.**1**. yey. doğru. düz. dürüst. **1**. **onat**!. təşəkkür. -**qat (**çox**) onat**: təşəkkürlər. **1**. rəhmət. -uğurlu işlərlə **onat** qazandı: xeyirli işlərlə **rəhmət** apardı. **1**. **onğat**. **oğat**. doğru. həqiqət. gerçək. sağda. sağad. -çox doğru **inanmağa**: inanılmaz dərəcədə. **1**. yonat. usağ. məntiq. **1**. dik. düz. doğru. uca. **1**. tə'mir..
-**tərs onat**: dalı ön. dalı qabağ. tərsonat.tərsuvat. tersuvat. öntüş (**ön düş**: dalı).

onat razı sal. -onğ, onay, **onat**.(doğru ol, razı ol, razı sal).

onatan sağdac. sağaldıcı. dərman. -bu dərdi **onatan** gəlsin..
-men bu **onatanı**, beş açılana yey tuturam".
-yırtıqları çatdıran, **pozuqları onatan**, sapıqları yolatan, yazıqları qutaran yasalar (qanunlar).

onatı təsdigi. doğruluğu. gücü -dilin gücü, **kişi onatı** (kişinin bərkliyi, tovu, sözündən asılıdır).

onatlartan **onatlardan.** eyilərdən**.** iyilərdən. yaxcılardan. **-**eyilərdən ol, kəndini arat! . (**kəndini arat**: özüvü istət).

onatlı **onğatlı. yonğatlı. yonatlı.** bacarıqlı. hünərli.

onatlıq **onaşlıq**. qutaşlıq. qutalıq. yetiniş. başarı **(**başa çatdırma**)**. müvəffəqiyyət. nailiyyət.

onatmaq **1**. bəğənmək. -ikisindən birin **onatmalısın**. **1**. **onağatmaq**. ehqaq edmək. **1**. **onamaq**. rəhmət elmək. -allah **onasın**: allah **rəhmət** eləsin. **1**. rəhmət elmək. -allah **onasın**: allah **rəhmət** eləsin. **1**. musaidə edmək.

onay **1**. muvafiq. munasib. -onun **onayın** al: onun **təvfüqün** al. **1**. təsdiq. muvafiq nəzər. -onun **onayın** oğurlamaq.

onay bol rahatlıq, uğurluq. -**onay gəlsin.**

onay -**onay**?: razısan?. -öndəki mənim, ardaki sənin, **onay**?.

onay razı ol. -onğ, **onay**, onat.(doğru ol, razı ol, razı sal).

onay qolay. hasat. hanğsat. asan. -**qıyın olsun onay**: çətin olsun qolay. müşgül olsun hasat (hanğsat. asan)**.**
-**tanrı yazar onay sormaz**. (sən boldiyin işləməlisin). (sən istdiklərindən bacardığın işləməlisin).

onay! (düzəliş, islah istəmək). düzət!. nəcat ver!. -**tarım onay!**: **özün onay!**: özün düzət!. nəcat ver!.

onayın **-tarı onayın:** tanrı rizası üçün.

onayış **onağış**. ehqaq.

onaylama -onaylama sözü: **say!**.səhih!. səhihdi. qəbul!. muvafiq. (# **sat**: qarşı. muxalif).

onaylamaq qəbul edmək. -**onaylasa**: qəbul edsə. -**onaylamaz**: qəbul edməz.

onaylı -**onaylı yaraşlı**: rahat uyqun.

onaylı -**onaylı yaraşlı:** rahat uyqun.

onaylıq **onağlıq**. mühiqliq.

onaymaq baş atmaq. təsdiq edmək.

onaymən -**çəksiz onaymən**: hədsiz razıyam.

onaymır könül dincəlmir. içim dincəlmir. -söyləyirəm aldırmır, söyləmirəm onaymır. (**aldırmır**: saymır).

onaymısız razımısız.

onba (**on**: **1**. **ön**. **1**. baş). qurquşumlu səqqə aşıq. aşıq oyununda baş aşıq. qoz dığırlatma oyununda baş qoz.

onba **önbə**. -**önbə qalmaq**: üzü üsdə düşmək.

onbalamaq **önbələmək**. nərsəni ağzı aşaq bıraxmaq.

onbaşı onağası.

onca **{qança~onca**: **qança~sonca**: **qança~qalay** }. -**qança** tez gəlsən, **sonca** tez qurtulluq. -**qança** gur, **sonca** yaxşı. -**qança** yekə, **sonca** güclü. -**qança** dadlı, **sonca** yeməli. -**qança** gözəl, **sonca** istəkli.

onca **1**. **oncalıq**. **oncaman**. o qədər. **1**. öyləsinə. öylə. 2. onculayın. ona görə. onun açsından.

onca **oncaq**. (**on** + **ca < caq**). o yekəlikdə. oq qədər çox. şuncaq çox. -**oncaq** kişi: oq qədər kişi. -**oncaq** yemək: oq qədər yemək. -**oncaq** para: oq qədər -**oncaq** yer: o böyüklükdə yer.

oncaq **onca**. (**on** + **ca < caq**). o çəkidə. o yekəlikdə. oq qədər çox. şuncaq çox. -**oncaq** kişi: oq qədər kişi. -**oncaq** yemək: oq qədər yemək. -**oncaq** para: oq qədər -**oncaq** yer: o böyüklükdə yer.

oncaq **oncağ. ondağ.** andağ. ocür. (həmən cür).

oncaqı **oncağı. ondağı.** andağı. ocürü.

oncaqın **oncağın. ondağın.** andağın. ocürün.

oncaqlı **oncaklı**. o çəkidə (də). oq qədər. oq qədərdə. -**oncaqlı** çox deyil: oq qədərdə çox deyil. -**oncaqlı** yekə deyil: oq qədərdə yekə deyil. -**oncaqlı** yetər: oq qədər yetər.

oncalıq onca. oncaman. o qədər.

oncaman onca. oncalıq. o qədər.

oncar **1**. istandar. -**oncar** mal. **1**. **oncarış**. **(**< **onğ**: düz**)**. tə'mir.

oncarış **(**< **onğ**: düz**)**. **1**. tə'mirat. **1**. islahlahat.

oncarış **oncar**. **(**< **onğ**: düz**)**. tə'mir.

oncarmaq **onğcarmaq**. **(**< **onğ**: düz**)**. **1**. tə'mir edmək. **1**. islah edmək.

onculayın onca. ona görə. onun açsından.

onculayın **oncılayın**. onun kimi.

onçaqlı onun yalı. onunçənli. odərək. oqədər.

onçular hər nə. hər şey. -**onçulardan**: hər nədən. -**onçuların**: hər nəyin. -**onçulardan** danışdılar: hər nədən danışdılar. -onçuları yeyər: hər nəyi yeyər.

onə **o nə**. o nəmə. -**onəyi** mənə ver.

onq **onğ!** . doğru ol. düz ol. -**onğ**, onay, onat.(doğru ol, razı ol, razı sal).

onq **onğ**. **1**. **önğ**. çağ. sağ.**1.onuğ.** məğz. huş. beyn. beyin. damağ. -**onğun** itirmiş bir gənc. -**onğulu**: **onuğlu**: saynağ. ussaq. fəhim. huşlu. beyinli.**1.onuğ.** məğz. huş. beyn. beyin. damağ. -**onğun** itirmiş bir gənc. -**onğulu**: **onuğlu**: saynağ. ussaq. fəhim. huşlu. beyinli.

onq **onğ. 1.unğ**. on. oq. uq. **1.**: rahat**.-**tapmaq qın, itirmək onğ. (**qın**: çətin).

onq **onğ**. bacarıqlı. onatlı.onğatlı. yonğatlı. yonatlı. bacarıqlı. hünərli.

onq **onğ. on. 1**. onğay. qonğay. qolay. asan. rahat -**on** iş. **1**. **qonğ**. **{onğu**. **onuğ**. **qonğu**. **qonu**. (**onmaq**: **onğmaq**: **onuğmaq**: doğrulmaq). doğru. doğruq}. doğru. sağ. həqq. mühiqq. -**onğu** yol: **onuğ** yol: **onğ** yol. (sirati müstəqim). **1**. **yon**. düz. (həqq. müstəqim. səhih. əmud. qaim. rast. dürürst. sadiq.).

onqa **onğa.** doğru. -**onğa yol:** doğru yol. -sözü **onqa**, yüzü **tonqa**. (**tonqa**: gobud)**..**
-öndən onğa: aldan onğa. qabaqdan sağa**..**
-aldan onğa: öndən onğa: sabaqdan sağa.

onqalır -**evi pozuq onqalır**, oyu pozuq onqalmaz (**oyu**: düşüncəsi).

onqalmaq **onğalmaq**. **1**. **onuğmaq**. fəxr edmək. **1**. **onğanmaq**. dirsəlmək. bərpa olmaq. tərmim tapmaq.

onqalmaq **onğalmaq. onğşalmaq. oğşalmaq.** doğrunmaq. düzülmək. dürüstünmək.

onqalmaz -evi pozuq onqalır, **oyu pozuq onqalmaz** (**oyu**: düşüncəsi).

onqamaq **onğamaq**. **onğarmaq**.

onqamır **olqamır**. qayakimi. çox bərk, sağlam olan.

onqan **1**. **olqan**. **olqun**. mahir. -**onqun** usda: mahir isbilən. **1**. **onğan**. başarıqlı. mahir.

onqar **onğar**. düzər. rasdar.

onqarmaq **onğarmaq**. düzərmək. rasdarmaq.

onqarmaq **onğarmaq**. **onğamaq**. dirsənmək. bərpa olmaq. tərmim tapmaq.

onqaru **onğaru**. sağa doğru

onqat bacarıqlı. güclü. **-onqat at**, kövnə çul. (onqat atsa, kövnə çulda bəlgürür). (**kövnə: >** köhnə).

onqat ə'la. xariqa. -**onqat** olardı. -vallah bu **onqat** bir iş.

onqat **onğat**. **1**. **oğat**. **onat**. doğru. həqiqət. gerçək. sağda. sağad. -çox doğru **inanmağa**: inanılmaz dərəcədə. **1**. fəxri. iftixari. -**onğat** ad. -**onğat** doktora. -**onğat** üyə. **1**. şərəfli. hörmətli. -**onğat** görəv.

onqatlı **onğatlı. yonğatlı. yonatlı. onatlı**. bacarıqlı. hünərli.

onqatmaq **onağatmaq**. **1**. **onatmaq**. ehqaq edmək. **1**. **onurtmaq**. şərəf vermək. iftixar vermək. **1**. **onğarmaq**. dirsətmək. bərpa edmək. tərmim edmək.

onqatmaq **onğatmaq**. düzərtmək. rastatmaq.

onqay **onğay**. **1**. əlverişli. munasib. -bu bizə onğay değil. -**onğay** oldu saxladım. **1**. **yonğay**. **yüzğay** (< **düz**).(rüchan. imtiyaz. özəl həqq. məziyyət). **1**. **qonğay. qolay**. on (onğ)**.** asan. rahat -**on** iş.

onqay **onğay**.macal. -**onğay bulsa**: macal bulsa.

onqay razı. -söyləsəm izgəsi yok, **sussam könül onqay değil.** (söyləsəm tə'siri yok, sussam könül razı değil).

onqayış **onğayış**. sağayış. yaxayış. yarayış. doğayış. düzəyiş. gəlişiş. islah. behbudluq. amelioration.

onqaysız **onğaysız**. əlverişsiz. ğeyri munasib. -bu bizə onğaysız oldu. -**onğaysız** olsa dəğişin.

onqcarmaq **onğcarmaq**. **oncarmaq**. **(**< **onğ**: düz**)**. **1**. tə'mir edmək. **1**. islah edmək.

onqıra çökəl. fəqərat sümüyü.

onqlamaq **onğlamaq**. doğrulamaq. yaxşılamaq. islah edmək.

onqluq **onğluq**. dinclik. rahatlıq.

onqmaq **onğmaq**. **onmaq**. **onuğmaq**. **(olmaq)**. **1**. dirsəlmək. **(# ölmək)**. -qonşu qonşunun nə **onduğun**, nə **öldüğün** istər. **1**. doğrulmaq.

onqşalmaq **onğşalmaq. oğşalmaq. onğalmaq.** doğrunmaq. düzülmək. dürüstünmək.

onqşatmaq **onğşatmaq**. **öğnütmək**. doğanlatmaq. irşad, tərbiyə edmək.

onqu **onğu**. **onuğ**. **qonğu**. **qonu**. (**on**. **onğ**: doğru. sağ). (**onmaq**: **onğmaq**: **onuğmaq**: doğrulmaq). doğruq. doğru. həqq. mühiqq. -**onğu** yol: **onuğ** yol: **onğ** yol. (sirati müstəqim).

onqulmaq **onğulmaq. onulmaq.** düzəlmək. -işlər **onğalmadı**.

onqumaq **onğumaq.** istəyi bitmək. işi tutmaq.

onqun **onğun**. **1**. simbolik. **1**. tapqa. inancın imit (təmsili). mə'bud.

onqun **onğun**.: **1**. şərafətli. **-onğun kişi ölmüş**, onun yolu yaşamış. **1**. yümnlü. xoş dədəm.

onquna **onğuna.** uğruna. yoluna. -iş **uğruna** bolsun. -iş **onğuna** bolsun.

onqunmaq -iş onğunan çıxarda **(**iş gətirən çağında**)**, qarqa salsan qaz alar, iş qırsıxıb qalanda **(**iş gətirməyib duranda**)**, şunqar salsan boz alar.

onqunmamaq **onğunmamaq**. qırsıxmaq. gətirməmək. -iş onğunan çıxarda **(**iş gətirən çağında**)**, qarqa salsan qaz alar, iş **qırsıxıb qalanda (**iş **gətirməyib duranda)**, şunqar salsan boz alar.

onqur **onğur onğur**. situni fəqərat.

onqur **onğur**. **onur.** unğur. uğur. şərəf. xeyir.

onqur piş fərz. prejürman.

onqura **qonqura**.

onqura **onğura**. **onğur**. situni fəqərat.

onqurt onqurt çaqqanaq. iskilet. əti gedmiş sür sümük. -arıqlığdan **çaqqanağı** çıxmaq.

onquşmaq **onğuşmaq**. iftixar tapmaq. şərəf tapmaq.

onlanış islah. islah oluş.

onlar -**onlar ölmüş**, gəlməzə gedmiş. (**gəlməzə**: dönməzə).

onları -**onları boş ver**, tutduğun xoş ver.

onların -**onların özlərinə:** bilələrinə. kəndi özlərinə. şəxsi özlərinə.

onmaq (**onğmaq**). **1**.yaxşı hala gəlmək. düzəlmək. şəfa tapmaq. -daha **onmağa** ümid qalmaz. -bu kəsəldən **onan** olmadı. -**onub onmaz**: sağalıb sağalmaz.**1.** cücərmək. -yaz gəlibən **ondu** çiçəkli otlar. **1**.**olmaq**. işi, gedişi iyi gedmək.

onmaq **onğmaq**. **1**. **(olmaq)**. dirsəlmək. **(# ölmək).** -qonşu qonşunun nə **onduğun**, nə **öldüğün** istər. **1**. **onuğmaq**. doğrulmaq.

onmasız varasız. ümidsiz. çıxılmaz. (çətin durum). -**varasız** qaldım. bu varasızlığa düşəli. -**varasızlara**, **varası** var. (**varası:** ümid. güman. köməkçi).

onmatıq **onmadıq**. bədbəxt. bəxti çönmuş. tale'siz. sağalmaz. dərmansız.

onmayasın yaramıyasın. günməyəsin. gülməyəsin. mutlu, xoşbəx olmayasın.

onmaz (danşıqda, qilağa **''olmaz''** biçimindədə eşidilir). (**olmaz1**. nacür. -**onmaz** işlər. **1**. tutmaz. cür gəlməz. yaxışmaz. -bu iş mənlə onmaz. -**onmaza düşmək**: çox pis duruma düşmək. -onmazın durum: çıxılmaz şərayit. -onmaza qalmış: pis günə qalmış. -onmaz.

onmaz düzəlməz. sağalmaz. -**onmaz** yaram: **sağalmaz** yaram.

onmaz düzəlməz.**-**düzə inanan düzdə qaldı, **duza inanan onmaz maldı**. (düzdə qaldı: əli boş qaldı) (onmaz maldı: düzəlməz eşşəkdir)**.**

onmaz sağalmaz. düzəlməz. -**onub onmaz**: sağalıb sağalmaz.

onmərə -birmərrə olub, **onmərə ölmək**. **(mərrə**: **mərə**. kərə).

onral **onural**. fəxri.

onrmaq **ondarmaq**. tə'mir edmək.

onruş **onuş**. tə'mir. rimont. (bazsazi. novsazi).

onsa razı olsa **.-əldəkinə ürək onsa**, baş bildiyin edər.

onsamaq onu könül istəmək.

onsuz o olmadan. o olmaqsızın.

onsuzta **-**yaşam bilməz təkiz, **onsuzda təkiz**. (**təkiz**: 1. hamar. dalqasız. qayğısız. dinc). 1. yalnızız. yalınquyuz).

ont -**ont kişi ölərmiş**, onun işi yaşarmış. (**ont**: doğur).

onta **-**gözün biri könlə, biri başa baxar, **onda iki ürəkli qalar**, beləliklə göz qorxaq olar.

onta **onda**. numayəndə. vəkil. deputat.

ontaq **ondağ**. **1**.sədiq.**1**.**andaq**. oqədər. oqqədər. -**andaq** söylədim, dinləmədi. **1**. **oncağ.** andağ. ocür. (həmən cür).

ontaqı **ondağı. oncağı.** andağı. ocürü.

ontaqın **ondağın. oncağın.** andağın. ocürün.

ontal yontal. usağan. məntiqi.

ontalamaq **ondalamaq**. sabit edmək.

ontalı **ondalı**. mühiqq. həqli.

ontalıq **ondalıq**. onda neçəlik. dər dəh. -beş **ondalıq** qazancla **(**asıyla**)** satırıq.

ontan **-**gəlsə uma (qonaq) düşürqıl (qarşıla. istiqbal ed), **dinsin ondan arıqlıq (arqınlıq**. **yorqunluq**), arpa saman yağıtqıl, bulsun atı yarıqlıq (rahatlıq. iltaf. asayiş).
-çevrəmiz dağdur, **gələn ondan yanuq**. sən nə versən ol geri vermiş aluq. (**yanuq: yanğu.** pejvak). (**aluq**: halu. qanmaz. məftun. şeyda). (bu dünya dağ kimidir, verdiyin səsi, nəyi geri verir. əkdiyin biçilir)**.**
-sandım ki gecişdim, gecə qaldım, ondan qaçalı qatmara düşdüm. (**qatmar**: qəliz).
-balıq küsürsə sudan, **yaşam köçər ondan**.

ontan **-**haq odur, haq ondadır, **ondan uca yokdur uluc**. (**uluc:**ən ulu)**.**

ontan -hər nə əksən əkinə, **ondan çıxar tikənə**. (yel becərən, boran biçər). {yel ösdürən, **boran osdurar** (**dərər**). (**ösdürən**: becərən)}.

ontan **-**itdən gəmik, **ondan para açılmaz**. (**açılmaz**: çıxmaz). (qıtmır, qısmır konusu).

ontan **-**utlu, utun qorar, utsuz sanar, **ondan qorxar**! (**ut**: həya).

ontanmaq **ondanmaq**. bəraət qazanmaq. həqq çıxmaq.

ontarmaq **ondarmaq** (**on**: düz). tə'mir edmək.

ontarmaq **ondarmaq**. **onrmaq**. tə'mir edmək.

ontaş **ondaş**. düz danışan. sözündə düz.

ontatır **-haq odur, haq ondadır**, ondan uca yokdur uluc. (**uluc:**ən ulu)**.**

ontay onun kimi.

ontun onuğ. önüğ. amadə, hazir olan. -**önüğ** nəvar gətir. -**onğuna** hammı şah olur. -hər bir nəyə **onuğam**. -onuğ tutun **yaraqı**.

onturaq **ondurağ**. cəbrçi. cəbrgira. determinist.

onturalıq **onduralıq**. cəbrçilik. cəbrgiralıq. determinism. hər nəyi olduğu kimi kəsin bilmə inanclığı.

onturmaq **ondurmaq**. **onutmaq**. (nərsəni) yoluna qoymaq.

onu **-**dözən, istəgin tapmasa, **topraq onu tapar**.

onu **-**düşman səni tanıyınca, **sən onu tanı**.

onu **-**kişi kəndi kökün danırsa, **topraq onu yadırqar**, kişi kəndi kökün tanırsa, **topraq ona yağırdar (onu yağırdar)**. (**yadırqar**: qərib sayar). (**yaxırqar**: əziz tutar). (yağırdar: kökəldər. yağa doldurar. bəslər. yağ tökər. yağdırar).

onu -sevgi, içdə durmalı, **sevən, onu sarmalı**. (**sarmalı**: qorumalı. örtməli).

onu **-**yalandək kişini yırtan, **doğru tək onu örtən yox**. (**yırtan**: dağıdan). (**örtən**: qoruyan).

onub -**onub onmaz**: sağalıb sağalmaz. sağalıb sağalmaz.

onuq **onuğ 1**.(**oluğ)**. mütəbərrək. **1**.(**oluğ)**. hazır, amadə -**onuğ tut**: hazır, amadə tut, saxla.**1**. **önüğ**. **ontun.** amadə, hazir olan. -**önüğ** nəvar gətir. -**onğuna** hammı şah olur. -hər bir nəyə **onuğam**. -onuğ tutun **yaraqı**. **1**. **önüğ**. nəğd. -**onuğ** param yox. -**onuğ** alver. -**onuğu qoyub qoğqıya qaçma**: nəğdi qoyub nisyiyə keçmə.**1**. **onğ**. məğz. huş. beyn. beyin. damağ. -**onğun** itirmiş bir gənc. -**onğulu**: **onuğlu**: saynağ. ussaq. fəhim. huşlu. beyinli.

onuq **onuğ**. **1**. **qonğu**. **onğu**. **qonu**. (**on**. **onğ**: doğru. sağ). (**onmaq**: **onğmaq**: **onuğmaq**: doğrulmaq). doğruq. doğru. həqq. mühiqq. -**onğu** yol: **onuğ** yol: **onğ** yol. (sirati müstəqim). **1**. **onur**. fəxr. **1**. **onur**. şərəf. **1**.xoşbəx. dövlət. bəxt. qutlu. mubarək. totem.**1**.simbol.

onuqlu **onuğlu** onuğun. bəxtli.

onuqluq **onuğluq**. hazırlıq. amadəlik.

onuqluq **onuğluq**. xoşbəxlik.

onuqmaq **onuğmaq**. **1**. **onğmaq**. **onmaq** doğrulmaq. **1**. **onğalmaq**. fəxr edmək. **1**. sevinmək. şükr edmək. qədrşinaslıq edmək.

onuqun **onuğun**. onuğlu bəxtli.

onulmaq **onğulmaq.** düzəlmək. -işlər **onğalmadı**.

onulmaz təsdiq olunmaz. təsdiğin tapmaz. **-**yamandan yaxşı sorulmaz, **sorulsada, onulmaz**.

onulmaz -dərisinə sığmamaq, **onulmaz dərd**. (çox qurranmaq çıxılmaz dərd).

onuluş (islah. behbudi. bərpayi).

onun dənizi istəkəndədir.

onun **-**adam ki mindi adın atına, yel yetişərmi onun çatına. (**çatına**: izinə). (ada qapılan sana sığmaz).

onun -duyduq, gördük, qurar kişiyə kəndi evrənin, **duyular, görülər, çevirər onun beterin**. (**duyduq**: duyduqlar). (**gördük**: gördüklər). (**çevirər** : **1**. qurar. dolandırar. **1**. dəğişər). (**beterin**: kökün). (hər kimin düşüncəsi, gözaçısı (nəzəri), hiss etdikləri, oysandığı, gördükləri təməlində qurulur, dağılır). (tüm kimsələr, duyu, görülərinin ürünləri durur).

onun **-onun alçaqlığı qoysaydı**, ulçaqlıqda bir pox olardı. (**alçaqlığı**: əsgigliyi) (**ulçaqlıqda**: kişilikdə).

onun -**onun yalı**: onçaqlı. onunçənli. odərək. oqədər.

onun **-**sevgi salsa ləngərin, sılağ onun dəngidir. (**sılağ**: sıylaq: sayqı).
-yaxşıya vermə dərək, onun nəyinə gərək. (yaxşı ölər, dərək görər). (yaxşının öləndən son dərəki bəllənər). (**dərək**: qədr). (yaxşıya sayqarlıq eləmə (minnətdarlıq bildirmə), onun belə yağlamlara gərəyi yoxdur). (**yağlamlara**: dadlı dillər tökməyə) (yaxşı, gördüyü, qılmışı qarşısnnda nə səndən, nə məndən qarşılıq gözləmir).
-onğun kişi ölmüş, **onun yolu yaşamış**. (**onğun**: şərafətli).
-ont kişi ölərmiş, **onun işi yaşarmış**. (**ont**: doğur).

onunca onca. ona görə.

onunçənli onçaqlı. onun yalı. odərək. oqədər.

onunla **-**düzgünü qur, **onunla yür**. (**düzgünü**: dəsdurü. proqramı).

onur **1**. heysiyyət.**1.** izzəti nəfs. vüqar. şərəf.
-**onur, şərəf vermək**: onurlatmaq. onurlandırmaq. onur qazandırmaq. təşrif (götürmək, gətirmək, aparmaq).

onur **onğur**. unğur. uğur. şərəf. xeyir.

onur **onuğ 1**. fəxr. **1**. şərəf..
-**onur duymaq**. könənmək. iftixar edmək.

onur şərəf -siz gənclər, **boysanc**, **onur** yaraldısız ellərə.

onural **onral**. fəxri.

onurlamaq onurun, şərəfin dəğərləmək.

onurlanın müşərrəf olun. şərəfyab olun.

onurlantıq **onurlandıq**. şərəfyab olduq.

onurlantırmaq **onurlatmaq**. onur, şərəf vermək. onur qazandırmaq. təşrif (götürmək, gətirmək, aparmaq).

onurlatmaq **onurlandırmaq**. onur, şərəf vermək. onur qazandırmaq. təşrif (götürmək, gətirmək, aparmaq).

onurlunu **-onurlunu yola ver**, onursuza yol ver. (şərəfli ilə keçin, yola ver, onursuza yol ver çəkib gedsin).

onursuza **-**onurlunu yola ver, **onursuza yol ver**. (şərəfli ilə keçin, yola ver, onursuza yol ver çəkib gedsin).

onurtmaq **onğatmaq**. şərəf vermək. iftixar vermək.

onurun -**onurun dəğərləmək:** onurlamaq. şərəfin dəğərləmək.

onurunla -dəliqanlı ol, **onurunla yaşa**.

onuş **onruş.** tə'mir. rimont. (bazsazi. novsazi).

onuşmaq gəlişmək. təvafüq edmək. -**gəlişdik mi?**: oldu mu.

onutmaq **ondurmaq**. (nərsəni) yoluna qoymaq.

op **1**. (**qop**) xanəvadə. **1**. **ob**. lap. -**op**yuxar: **lap**uca.

opa **oba**. **opaq**. **öbək**. **köbək**. **koba**. **koma**. kömə. obac. boğac. bölük. takım. quruh. qurup. dəsdə.

opaçi **hopaçi**. **(abacı)**. **(**hop edən. utan**)** cin. xortlaq. öcü.

opaq **oba**. **opa**. **öbək**. **köbək**. **koba**. **koma**. kömə. obac. boğac. bölük. takım. quruh. qurup. dəsdə.

opaq **opağ**. yığıntı. kümə.

oparı yuxarı. -**oparı qaru**: yuxarı sarı.

oparmaq **1**. utarmaq. utmaq. qələbə çalmaq. **1**. qalxmaq. dirsəlmək.

open -**press to open**: itaç!. itəç!. açmaq üçün itələ, sox, bas, fişar ver.

opınmaq **hopınmaq**. dalmaq. batmaq. -öz içinə **opınmaq**. -alıs alıs **(**uzaq uzaq**)** düşlərə **opınıb** yatmış.

opqa **hopqa 1**. (**qop**.). mubaliğə. **1**. **öpgə**. **höpgə**. şüş. (pumon).

opqalı **hopqalı**. **opqur**. mubaliğəli.

opqamaq **hobqamaq**. **topqamaq**. **toplamaq**.

opqın **opğın**. saç təpəliyi.

opqur **hopqur**. **1**.şişgin. qabartı. qabarıq. **1**.**hopqalı**. **opqalı**. mubaliğəli. **1**. yumru. -**opqur topqur**: yumur yuvur. atar tutar. engəbəli. tümsəkli. sarsıntılı. **1**. girdə. **1**.vərəm. **1**.təhəddüb. **1**.mütəvərrəm.

oplu xanəvadəli.

opmaq **hopmaq**. **öpmək**. **höpmək**. içmək. içərimək. içərləmək. içəri almaq.

opraq ovurdaq. məğrur. xudpəsət.

opruq **obruq**. içbükəy. müqə'ər. (çopuq).

oprulmaz telləri çəkilib, gücə düşüb tez aşınmaz.-**donun geni oprulmaz**, gəngəş bilik, ardırmaz . (**gəngəş**: danışıq) . (**ardırmaz:** dala aparmaz).

opsun {kəndinə **hopdan**. **hoputma**, içətirən güclü nərsə. ovsunlayan (? > əfsanə)}. **1**. opyom. tiryək. **1**. ovsun. sehr. tilism.

opul böyük op. böyük xanəvadə.

opurdanmaq **hopurdanmaq**. bəygülənmək. övgülənmək. qovqalanmaq. qurralanmaq. şişqolanmaq. kibirlənmək.

opurtmaq **hopurtmaq. öpürtmək. höpürtmək**. içirtmək.

or ol. orun. məkan.

ora bura əri bəri.

ora alay. -**alay** gedmə: ora gedmə.

ora -**izək hara, izgə ora**: niyyət hara mənzil ora.

ora **-**könül hara **baş ora**. baş hara, **ayaq ora**. göz hara, **qulaq ora**.

ora -**könül hara, baş ora**, könül qara, baş qara. baş haradır, ayaqda!, göz haradır, qulaqda!.

orabura **ora bura**. eylək beylək. sağa sola.

oraq (uraq). çalqı.

oraq **orağ** .-**dil bilən orağ ursan**, belin ağrımaz. (biligin sal işə, biləgin yox)

oraq -**oraq çağı**: horan. biçin..
-**uzun saplı oraq**: çalqır. tırpan.

oraqay (**oraq ayı**). biçinay. (biçin ayı). təmmuz.

oraqcan **-**ha düz olsada, oraqcan əyrisi var. (**ha düz olsada**: nə dərək düz olsada).

oraqı **-dil oraqı** tutsa kəsər.

oraqı -**əkin oraqı**: biçin.

oraqla **ur**. **vur**. dər. -**əkib ur,** əkləb gör(əkib **dər**, əkləb gör). (**əkləb**: tərbiyət ver).

oraqlamaq **oramaq**. biçmək. -əkdiyin **ora**: əkdiyin **biç**.

oraqlamaq **orqalamaq**. qırıb biçmək.

oraqlar **orar**. biçər. **-əkən orar**, tokan geyər. (**tokan** : toxuyan).

oraqlarsan urarsan. biçərsən. dəyərsən. **-əksən urarsan**.

oral (yerində) normal. -qan **basılım** oral. -oral durum. -yağdayım **oral**: halım normal.

oralar alaylar.

oralı alaylı.

oralsu **oranı**. təxmini.

oramaq **1**. hörəmək. sarmaq. -güldən çələng **oramaq**. **1**. oraqlamaq. biçmək. -əkdiyin **ora**: əkdiyin **biç**.

oran **1**. bol. **1**.bərəkət.-**oran** versin: bərəkət versin. **1**.çox. hər nədə çoxluğu göstərir. -**oran** kötü: çox. -**oran** iy: çox yaxcı. -**oran** uzaq: çox uzaq. -**oran** gözəl: çox gözəl. -**oran** yedik: çox yedik. -**oran** keçdi: çox keçdi. -**oran** gəzmiş **oran** görmüş: çox gəzmiş çox görmüş.

oran darıt **(**< **dartmaq)**. nırx. təərüfə. miyzan.

oran nahar. -**doğan oran utan:** səhər nahar axşam.

oranat halət.

orançı quloğlanı vergi toplayan görəvli. maliyatçı.

orançı səxi. səxavət. bolçuluq .əli bol.

orançılıq səxilik. səxavət. bolçuluq .əli bolluq. -**orançılığa** öğrəşmiş. -**orançılıqla** bolçuluqla .əli bolluqla.

oranı **oralsu**. təxmini.

oranla təxminlə.

oranlamağa **oranlamağa.** ölçüb biçməyə.

oranlamaq qararlamaq. biçəkləmək. təxminləmək.

oranta **oranda**. **örəndə**. h**örəndə**. bir hörəkdə (duvarda) yaşayanlar. ailə üyələr (üzvləri).

orar **oraqlar**. biçər. **-əkən orar**, tokan geyər. (**tokan** : toxuyan).

orasımaz biçmək istəməz. **-hamı öz əkdiyin orasımaz**. (hamı öz əkdiyin). (kənidi işlərin sonucun alqamaq (qəbulluq) istəməz).

orata **orada.**-harada aşdır, **orada başdır**.

oratan **oradan**. alaydan.

oratın təxminən. təxmini.

oratınmaq **1**.cürləşmək. bir araya gəlmək. -onlar heç yolla oratınmazlar. **1**.düşmək. -ged tayınla **oratın**. **1**. iştiraki məsai edmək.

oray -**ökünüş oray**: çox üzr istəyirəm.

oraya alaya.

orbuq **obruq**. (< **ovruq. oyruq**). dağlar arsındaki qaya yarıqları. eskidən yay aylarında yağ, pendir kimi şeylərin qışa dək saxlanıldığı qarlı soğuq yarıqlar.

orçalamaq (**urçalamaq**. **vurçalamaq**). qırmaq. kəsmək. -dosluğunu **orçalamaq**. ilişgilər **orçalanmış**.

orçat kumpani. şirkət. orqanizasyon. firm. sosyətə. cəmiyyət. əncümən. kompileks. ansambıl. heyə't. qurhan.

orınlamaq yerinə gətirmək.

orqa (**hörgə < hörmək**). **1**. **orda**. yekə, iri çadır. -**xan orqası**. **1**. saray. imarət. -**xanlıq orqa**. **1**. barqah.

orqalamaq **oraqlamaq**. qırıb biçmək.

orqan **1**. örgəv. gövgə. əndam. **1**. **orxan**. **urğan**. (**< ur**: **vur**).döğüşçü. mubariz. cəngəvər.

orqaş konsantre işi.

orqat mərkəz.

orqatın mütəmərkiz tərzdə.

orqatınmaq mütəmərkiz olmaq.

orqatıtmaq mütəmərkiz edmək. mütəşəggil edmək.

orlay **orlayu**. yaxlaşıq. təqribən.

orlayu **orlay**. yaxlaşıq. təqribən.

ormaq şəbəkə. -net ormağı: net şəbəkəsi.

orman -balta görməmiş**, orman yox**. (orman: meşə) (sıxıntısız, inciksiz iş, kimisə yoxdur). (igit deyingən, dəymədüşər, ərgil (ərgçil), ərköyül olmamalıdır. (**ərgil**: ərgçil. ərköyül: kəmaltələb).

orman toxa. bükə. sıx meşə..
-ağacsız, **orman olmaz**. -əsməyincə yel, **urlamaz orman**. -demişlər ki ormandan gələr odun, götürməzlər ki ormanə odun. -bir orman, tək ağacla simgənir (bəlgənir).

orn **orun.** dərək. yer. əvəz. -onun **dərəkinə**: onun yerinə.

ornamaq yerinə qoymaq. yerinə yetirmək.

ornamam yerinə yetirəməm.

ornaş 1. yerləş. 1. yer. -bu kimi **ornaşı**. -onun **ornaşı** dar gəlir. -gen **ornaşlı**.

ornaşan yerləşən.

ornaşın -**ornaşın bil**: (yerləşdiyin yeri bil). yerin tanı.

ornaşın -**ornaşın sonra**: yerləşin sonra.

ornaşmaq yerləşmək. yerin tutmaq.

ornaşmaz yerləşməz.

ornaşmır yerləşmir.

ornaştır **ornaşdır**. yerləşdir.

ornaşuq yerləşik.

ornaşutmaq yerləşdirmək.

ornat (**orun**: yer). (yerinə qoyulmuş). təmsilçi. numayişçi. məə'rif. numayəndə.

ornatmaq **1**. onatmaq. tam yarayına **(**gərəkliyinə**)** yerləşdirib, yaraşdırmaq. -gülü güldana **onatdı**. **1**. yerlətmək. **1**. (**orun**: yer). yerinə qoymaq. təmsil edmək. numayiş edmək. məə**'**rrifi edmək. numayəndəlik edmək.

ornatmaq yerlətmək.

ornu yeri. -birinci **ornu** tutan. -**ornu** boş qalar.

ornuna dərəkinə. yerinə. əvəzinə. -bunun **dərəkinə** nə verəcəksin.

ornuna yerinə. -**ornuna** qoy.

ornuta -**önkü ornuda**: qabaqki yerdə.

ort **1**. **yurd**. kadr. odacıq. hücrə. **çəko**. (< **çəkmək**). -**baş çəko**: başlıq yazılan kadr. **1**.məqam. -bu **ortda**: bu məqamda.

orta **{otra}. 1**. o**tra**. -o**rta**dan: otradan. -o**rta**sı: o**tra**sı. -o**rta**da: o**tra**da. -o**rta**sından: o**tra**sından. **1**. asma. -**asma qat**: orta qat: **(1**. yapıda aramıncı qat. **1**. toplumda ortancı qat. xırda bujuva**)**. **1**. amıl. yamıl. (lamıl. ram). əmik. yumşaq. yavıl. ılım. mö'tədil. -**amıl** gün, hava. **1**. aran. vəsət. bayağı. -**aran** mal. **1**. **orda.** anda**. -anda** kimsə qalmasın. **1**. dum. ara. **1**. **orda**. **ordağ**. saray. dərbar..
-**hər nəyin düz ortası**: bağın..
-**orta babat**: alağu. nəpis, nə yaxcı. -necəsin?: -alağu.**.**
-yolda orta qaldırım: qorab. qolab. (refüj)**..**
-orta isti: yalıq. ılıq.

orta **1**. çala. -**çala yaşlı**: orta yaşlı. **1.** nahar. **-ertörüt**: < **{ertə orta örtə (ötrə)}.** səhər nahar axşam. tamam gün.
-orta yoxsa dəngəşməz. (arxac (davər) yoxsa, işlər düzəlməz.). (birlə üçü, iki barışdırar, yanaşdırar, danışdırar).

orta **-**ara yolda malın qalmasın, **orta yolda atın ölməsin**.
-**barığ orta tutulsa**, yoxdan yeğ. (olan nərsə olmuyandan yeğ). (nəğdin azı, nisyənin çoxundan yeğ.
-**orta boylu:** büktəl**.** (< **büküк**).
-**orta yaşlı:** otuzun aşmış**:** ərişgin.

orta **-**burda şaxır qılıcı, **orta çınlır ucu**. (tapmaca) (**ıldırım**).

orta -**gün orta**: öylə. öğlə..
-**orta yolda atını** qoru, orta yaşda, xatını..
-**tünorta**: gecə yarı. gecə yartı. (**# günorta**)..
-**günorta** (# **tünorta**).

orta oda. mərkəz**..**
-orta yolda ölməsün atün, **orta yaşda** itməsün xatun**.**
-orta yolda ölməsün atün, **orta yaşda itməsün xatun.**.
-orta yolu astasına ustasına tutqınan!.

orta **orda**. orqa (**hörgə < hörmək**). yekə, iri çadır. -**xan orqası.**.
-orta bölüm: ortun**.**

-ortaya almaq: ortmaq. içərmək. möhtəvi edmək..

-ortaya qonuşmaq: bəlli bir kimsəyə toxunmadan danışmaq..

-ortaya yaxın: ortırağ. az ortada.

orta **orda. otra**. iqamətqah.

orta -**orta ılı: orta yılı**: > **ortalı.** nə pis nə yaxşı.

ortababat ılnaq.

ortababat **orta babat**. alayeğ. nə yaxşı nə pis.

ortababat yılıq. yalıq. ılıq. iti, kəsgin olmayan. tüt, iti çalarlı olmayan. mö'tədil.

ortabablaşmaq yılıqmaq. yalıqmaq. ılıqmaq. mö'tədilləşmək.

ortaca **1**. öylə böylə. şöylə böylə. elə belə. nə iyi nə kötü. nə yaxşı nə yaman. **1**. hər vax ki kimi. **1**. bala bala. səkin səkin.

ortaçəm həddi vəsət.

ortaçı **1**. arayçı. çaqçı. ilcər. ilgər. miyançi. dəllal. komisyonçu. **(**simsar**)**. **1**. arçaçı. aralayıcı. iki savaşan yanı ayıran.

ortada -**ortada durmaq**: vasitəlik, miyançılıq edmək.

ortaq **1**. **ordağ**. **orda**. saray. dərbar. **1**. yoldaş. kamarad. -**ortaqlar**: yoldaşlar. **1**. **ordaq**. sərləşgər. **1**. səhmli. **1**. yardaç. şərik..
-**ortaq, ortaqdan artuq olmaz**: yartıq (şərik), ərdən artıq olmaz. ("həd çəkivi saxla" kimi insaflı olmağa çağırma sözü).

ortaq -**durmuş ortaq:** boydaş. həyat yoldaş. (həmsər).

ortaq orturqa. orduqah. orturaq. oturaq. otraq. oturqa. çökək. çökəlgə. qonalqa.

ortaqı -**durmuş ortağı**: yaşam şəriki. şəriki zindəgi.

ortaqı -**durmuş ortağı**: həyat yoldaşı.

ortaqın **ortağın**. **1**. müştərəkən. **1**. **ötrügün**. **ötrəliklə**. gənəlliklə. imumiyyətlə.

ortaqlıq -**neçə nərsə arasında olan ortaqlıq:** araçat**.** müştərək olan nərsə. müştərək nuqdə. -mənlə onun **araçatımız** yoxdur. -**ortaqlıqda araçatları** tapmaq gərək.

ortaqlıqı **ortaqlığı**. **-**itlərin qardaşlığı, bir gəmiyi göründə, kişilərin qardaşlığı, **ortaqlığı bitincə**!.

ortaqmal aramal. milli mal. milli sərvət.

ortaqul **ortağul**. **1**.**orta oğul**. ortanca oğul, uşaq. **1**. (nitəlik). vəsət.**1**. mütəvəssit.

ortaqyapım məhsuli müştərək. kopırodakşın.

ortal boyun. moyun. miyan. vəsət.

ortal əllək. əldə. əl altı. qoltut. ərsək. dəsdrəs. dəstrəs.

ortalama **1**. həddi vəsət. çək. **1**. (bəravərd).

ortalama araçat**.** miyangin.

ortalama averaj.

ortalamaq **ordalamaq**. sıralamaq. mürəttəbləmək. tərtibləmək. sortlamaq. classification.

ortalamtan -**ortalamdan düşəri pay yaşımız**, qolla, başla, içimizlə yaşırız. (**ortalamdan** : aralıqdan. yazılmamış yerdən) (yaşamımız, aralıqdan düşmüşmüş paydır. işləyib, düşünüb, iç duyğularımızla yaşırıq).

ortalaşmaq aradaşmaq. girişmək. qatılmaq. (**# aralaşmaq**).

ortalçılıq **ortalçılıq.** boyunçuluq. moyunçuluq. miyançılıq. vəsatət. -kim **boyunçuluq** qılacaq.

ortalı > **ortalı** < **orta ılı: orta yılı**. nə pis nə yaxşı.

ortalıq **-ortalıq donu**: **ortama donu:** yaşama gərəcləri. məişət vəsayili.
-ev içində savaş çıxdı, **ortama donu yırtışdı**.

ortalıq 1.alan. meydan. 1.mərkəz.1. mərkəzi. -ortalıq ağtarıq komitəsi. (mərkəzi icra komitəsi)

ortalıqa **-**ağarıb önə düşmə, qaralıb sona düşmə, **ortalığa nə gəlib**.

ortalış qatılış. iştirak.

ortalsın yansın**. -**bulunğlar boşalsın, **dutaqları ortalsın**. **(bulunğlar:** təşvişlər)**. (dutaqları**: bükdəncləri. kitirləri. kədərləri).

ortam **1**. vəsət. **1**. mühit. (düzəy. səviyyə. səth). -bilikət **ortamında**: üniversitə kimi mühitində.

ortama hava.ambiyans.

ortama **-ortama donu: ortalıq donu**: yaşama gərəcləri. məişət vəsayili.
-ev içində savaş çıxdı, **ortama donu yırtışdı**.

ortan burtan **ordan burdan**. çalağı. mütəfərriqə.

ortan (nərsəni çulqayan, çevrəyən barlıq). {**orun**: yer} {**ortmaq**: ortaya almaq}. **1**.cəvv. atmosfer. **1**. içərən. havi edən.

ortan imum.

ortan nuqteyi müştərək.

ortanca (ortanca oğul, uşaq). orta oğul : ortağul.

ortançı barışçı. aşutçu. boyunçu. boyançı. beyinçi > miyançı. sülh vərən.

ortanı -**ortanı, ilişgiləri gücləndirmək:** ara bəkitmək.

ortanıq imumi.

ortanıqla imumiyətlə.

ortanıqta **ortanıqda**. imumiyətdə.

ortası -**hər nəyin ortası**, baş yanı: sinə.

ortası yurdu. -**qurdordası**: qurd. qalaqurd.

ortaş müştərək.

ortaşan səhm aparan.

ortaşıtmaq ortuşutmaq. yurtlaşıtmaq. yurtuşutmaq. ötləşitmək. milliləşdirmək.

ortaşmaq odlaşmaq. od, ox atıb döğüşmək. -iki kənd **ortaşdılar**.

ortata **-əl ortada**, hər yana yaxın. (gündəlik yaşamda əlin önəmi).

ortata **-ortada yeyir**, arıtda gəzir. (**arıtda**: yanda. dalıda).

ortata **ortada.**-acla ac dalaşar, **ortada dilənçi doğar**, toxla tox yalaşar, ortada yalançı doğar. (**yalançı**: yaltaq).

ortataqi **-ortadaki tutular**, arıtdaki utular. (**arıtdaki**: daldaki) (**utular:** unudular).

ortataqi -atla qatır qatnaşıban çaqcışar, ortadaki eşək börkü yırtışar. **(çaqcışmaq.** taxcışmaq. birbirinə çaxılmaq, taxılmaq. savaşmaq).

ortatan **ortadan qaldırma**. qət. qıt. yoxatma. yox edmə.

ortatan -**ortadan silmək:** çapıtlamaq (**çıpıt:** yaş mirəkkəbi qurutma kağazı). salıqlamaq.

ortatopar **orta tapar**. ümmət malı. hamı yönündən ortada yığılmış davar.

ortavçılıq ortaçılıqda iş görmə. **-**öküz öldü, **ortavçılıq savıldı**.

ortay **orday**. hərbi. cəngi. sipahi. nizami.

ortaya -"nədən"di qoyur ortaya "nəyi", "nədən"siz açmaz gözün, heç ‘‘nə’’ dünyada.

ortayaş (**orta yaş**). çalyaş.

ortayaş arayaş.

ortayer **orta yer.** çatılıq. aralıq.

ortaylıq **ordaylıq**. hərbiçlik. sipahilik. nizamilik.

ortcaq **ortcağ. ocaq.** otun oturduğu yer.-yandırar ayrıq odu ortcağı. (**ayrıq**: hicran).

ortcaqı **ortcağı**: **ocağı**. otun oturduğu yer.-yandırar ayrıq odu ortcağı. (**ayrıq**: hicran).

ortcuq iştira nuqtəsi.

ortıraq **ortırağ**. ortaya yaxın. az ortada.

ortqat **1**. konsantre. **1**. yoğunlaşmış. qəliz. mütəmərkiz. birbirinə eşilmiş, sıxılmış.

ortlamaq **ordlamaq**. **odlamaq**. **örtləmək**. **pörtləmək**. dağlamaq.

ortlu **-ortlu örtü: odlu örtü:** oddan don.

ortmaq ortaya almaq. içərmək. möhtəvi edmək.

ortu **ordu**. **1**. **{orud**. **yordu**. **yurdu**. **yorut}**.**1**. sürü. su. qoşun. ləşgər.

ortu **ordu**. -qızınla yurt qurasın, **oğlunla ordu olasın**. (qızı ilə yurd qurmaq: iç güvey (kürəkən) gətirmək. -örnəyin, qızı erməni dığasına verirsənsə, öz balavı, dinivə, dilivə, yurduva qənim çıxarırsın).

ortu **ordu.**çəriğ..
-**ordu arxadaşı:** südəş.

ortubat **ordubad**. cirgələn.

ortucaq **oturcaq.** oturulan, yerləşən yer.

ortuq **1.**ortaq, şərikli olunan nərsə.**1**.içərik. mündəricə.

ortuq aralı**.** yarı açıq, yarı örtük olan.

ortuq bir yeri qapsayan durum. atmosfer. fəza.

ortuq **ortuğ**. qışlıq. sərbazxana.

ortuqah **orduqah.** çökək. çökəlgə. qonalqa. ortaq. orturaq. oturaq. otraq. oturqa. orturqa.

ortun **1**. mütəvəssitə. **1**. mütəvəssitə. dəbiristan. **1**. orta bölüm. (-**ardın**. dal bölüm. -**aldın**: ön bölüm).

ortun od. **-**dözün birlə ərişgil, **ortun birlə duruşma**. (odla oynamaqdansa, dözmək yeğdir).

ortun odluq. qızlıq. şəfəq. -**ortun bulud**: gün batarı, qızaran bulut.

ortun **urtun.** (< **vurulmuş**. oraqlanmış). xərmən. qırman.

ortunu -**ordunu talan saxlar**, dövləti yalan saxlar **(talan**: qənimət).

orturaq ortaq. orturqa. orduqah. oturaq. otraq. oturqa. çökək. çökəlgə. qonalqa.

orturaqçı (iştirakçı).

orturqa ortaq. orturaq. orduqah. oturaq. otraq. oturqa. çökək. çökəlgə. qonalqa.

ortuş **1**. neçə kişilik uzunca oturaq. nimkət. **1**. törə. rəsm. ənənə.

ortuşutmaq ortaşıtmaq. yurtlaşıtmaq. yurtuşutmaq. ötləşitmək. milliləşdirmək.

oru oraya. o araya. o yerə.

oru uru**.** örü. (< **kov**). govdal.

oruc tutmaq basaqlamaq.

oruc (< qoruc). pərhiz.

oruc (**1**. < **qoruc.** 2. avuc: çevrəli, qapalı durum). pərhiz. imsak.

oruc -**oruc açma**: ağız açma. tutaç. ifdar.

oruc -**orucunan neylisiz**. -vallah elə azannan azana yiyirik, acandan-acana!. -bəh-bəh nə gözəl.

oruc oyuc. qoyuc (**qoymaq**: tərk edmək) gün çıxıb batanacaq yeyib içməkdən qoyunma, çəkinmə işi.
{qulaq nökəri olanlardan, səs oxşalığından, (ruzə) dən alınmasını demişlər. qanıtsız. (ruzə) sözcüğünün kökü hələ bəlli deyir. tamam dillərdə oruc işi, paklıqla, çəkinməklə, yığılmaqla bağlıdır}.

oruc tut. tutu.

orucluq (**qorucluq:** pərhiz, imsak, çəkinmə, qapanma ayı.). rəməzan.

orucluq -**orucluq ayı**: mutay. butay. qutay.

orucluq tutluq. tutuluq.

orun **1**. sılağ. dərcə. məqam. -yoğ **sılağ** : ulu orunlu. **1.**or. ol. məkan. **1**.yerin. **-oturan orun alar**, yürən yolun..
-**oturan orun alar**, yürən izin salar. (**orun** : yerin).

orun **orn.** dərək. yer. əvəz. -onun **dərəkinə**: onun yerinə.

orun **orunğ**. **(> ovrəng**. **orəng)**. **1**. yer. -**orun basmaq**. yerin basmaq. yerin almaq. yerləşmək. məqbul düşmək. -yaxcı olsa qayata, **orun basar** tez gəlin. **1**. təxt. **1**. açа. açan. nahiyə. bölgə. **1**. kişvər. çəkvər. yurd. yutuq. vətən. məmləkət. -**ilkə yutuq**: ana vətən. **1**.torpaq. yer. qacar. quruluq. ölkə. (ərazi. ərsə. qara. məmləkət. vətən.

diyar). **1**. (məkan. məhəll. məqərr). -**orun durum**: hal o məqam. **1**. məhəll. -**iş orun**: iş yeri..
-**orun bayır**: ev eşik.

orun yer. -dilin yurdsu, **könül orun**, dillə sözü, könüllə yorun. (**yurdsu**: yurdu. sevimli yurdu). (**dillə**: dil ilə. -dillə sözü: dil ilə sözü). (**yorun**: yozun. açıqla).

orun -**işorun: (iş+ orun**: yer) kərxana. fabrika.

oruna məqama. -**kələk, düzənlə bir oruna yiyələnmək**: börk qapmaq.

orunq **orunğ**. **(> ovrəng**). **1**. yer. **1**. təxt.

orunlaştırmaq **orunlaşdırmaq**. yerləşdirmək. qoymaq. aldırmaq. -**işə orunlaşdırmaq**: işə qoymaq.

oruntuq oturaq. cayiqah. iqamətqah.

oruntutmaq oturutmaq. cayqozin edmək.

orunun -**durmuş orunun bərk**, özgür qalasan ərk. **(orunun:** yerin). (**ərk:** güc. ixtiyar).

orut **1**. **orud**. {**ordu yordu**. **yurdu**. **yorut}**. **1**.yer. (məsnəd. məqərr).

orutmaq **orutmaq**. qoğzamaq. dikəltmək. -duvar **uruşmaq**.

osamaq onamaq. ilərimək. gəlişmək.

osqun **osğun** (**osmaq**: bitmək. qalxmaq). üsyan. şuriş.

osmaq **1**. **ösmək**. böyümək. -avlu ağacları keçən ildən çox **osmuş**. -**osub** boya çatmaq. -**osyapmadan**: böyümədən. **1**. qalxmaq. dikəlmək.

osmaq ozmaq. otmaq. ucmaq. ucalmaq. böyümək.

osman **-osman ekiz**, ocman sekiz. (**osman**: dosd). (**ocman:** düşman). (dosd iki olsa, düşman səkizdir).

osman -**osman düşman**.

osmanlıq dosluq. **-osmanlıq qarır**, ocmanlıq qarımaz. (**ocmanlıq:** düşmanlıq). (bir kişi yaşamında dosluqlar azıb uza bilir, qırılıb yaxşılaşa bilir, ama düşmanlıq unudulmaz).

osraqan **osrağan.** osduranquli.

ostay (< **os**: böyük). istadyom.

oste **oste (latin)**. **ostuxan**(fars)

ostuq böyük. müəzzəm. (# **astuq**: aşağ. həqir).

osturaq -at **osdurağı**, arpa gücüdür.

osturaq -**osduraq çiçəyi:** pis qoxulu gül çeşiti.

osturaq -**osduraq əlindən**, ösgürmək olmur.
-**osduraq göt açar**, ösgürək göğüs.
-**osduraqlı göt**, ösgürək sevməz.

osturaq **osduraq.-**kor koru tapar, **osduraq qabın**.

osturaq **osturuq**. yelquraq. yellənmə. şişinmə.

osturaqı **osdurağı** .-**osdurağı isti**: **osdurağı cinli: osdurağı cinli.** (**cinli:** çıpqıt). nərsiyə dayanıb, güvənib çox mənəmçilik, yarqaraçılıq edən.

osturaqlı **-osduraqlı göt**, ösgürək sevməz.

osturanquli **osduranquli**. osrağan.

osturanqulu **osduranqulu** (çox osduran). topatan (top atan).

osturar **osdurar**. -yel ösdürən, **boran** (**dərər**). (**ösdürən**: becərən). (yel becərən, boran biçər). (hər nə əksən əkinə, ondan çıxar tikənə).

osturmaq **osdurmaq**. ösdürmək. (**öt sürmək**).

osturmaq **osdurmaq**. **östürmək**. böyütmək. boylatmaq.

osturub **-osdurub bağırmaq**.

osturub -ösgürüb, ayılmaq, **osdurub bayılmaq**.

osturuq **osturaq**. yelquraq. yellənmə. şişinmə.

osum **ösum**. bitgi. göy.

osuş **ösüş**. böyümə.

oşun -**aşın oşun**: **açın oçun**: (**avçın ovçun < av**). aşiq mə'şuq.

ot **(od**. **ot**). **1**. alağ. **1**. əm**.** əm səm. (< **yəm. yem**). dava duva. dava dərman. **1**.ösüm (**üsüm)**.**1**.çoğ. virus. **1**. küy. küyük. qor. atəş. -söz **küyünə** tutmaq: durmadan söyləmək. -bu **küyə** düşəli. -eşq **küyü küydürər**. **1**. ört**.** yanqın. (atəş suzi). **1**. yalqın. yanqın. -içi **yalqın**, dışı salqın. **1**. yanqın. **1**. çaxun. atəş**..**

-aşıq od: yaman..

-**həsir otu**: koğ..

-**odun göy yanması**: göğüt. göyüt. -göy yanan oda **göyüt** denir..

-**burun otu**: burna çəkilən. ənfiyə**..**

-od qırnası (oddan qırılmış, qopmuş). çaxuc. qığılcım. uçğun. əxgər**..**

-kişini iş bəlirür, **altını od**.**.**

-qarağod: **qarağ+ od**. gözbəbəyi**..**

-quru ot yığını: toxurçun. taya**..**

-od parçası: qorcuq.qorcacıq**..**

-od vurmaq: ütmek**..**

-od içində: yanğan..

-**ört!: odla**!. -quru **yandı**, yaşda onla **örtədi**. -**örtlü bulut**: **örtənmiş bulut**: gün batış doğuşundan qızarmış bulu..

-**alova, oda salmaq:** aldırtmaq. alovlatmaq. odlatmaq. yandırmaq..

-**od dilimi**: yalqun. alov.

ot tutmaq: otalanmaq. ağılanmaq. məsmum olmaq. zəhərlənmək..

-**od tovu**: odu tovlayıb tutuşdurmaq üçün kiçik dəmir səbət, tor**..**

-dilimi: yalım. ləpir..

-**sürük otu**: içot. isal darı..

-yeri var **odla odun** olasın, yandıqca itiləsin, yerdə var **su** ilə **pambıq** olasın, islandıqca ağırlanasın.

ot -**bilməz biri od yaxır**, söndürənmir min bilən(**bilməz**: qanmaz. cahil).

-çəkotu: qorca. qordal. xərdəl. şəhvəti çoxalda ot, dərman, nərsə.

-içot: içilib utula bilən ot, dərman. iç işləkli olan dərman.

-dışot: içilib utula bilməyən ot, dərman. dış kullanışlı olan ot, dərman. dışarıq ot.

-kişi yaşdan, **od odundan doymamış**. (bu söz, kişini, yaş sürəsinə, günvənlə yanaşmasına çağırır).

-min bilənə tor olur, **bilməz biri yaxan od**. (**bilməz**: qanmaz. cahil).

-od yandırıb tüstüsünə tutulmaq. (kəndi yapdığı işin toruna düşmək).

-ot iym: ot yem.

ot bulaq otu. yarpız türü**.** -ocaq çayı, küp pendiri, isti çöçə, **ot yarpızı**..

-**ot iyisi**: ot qoxusu.

ot **-**durunmadan iş bitməz, **su yağmadan ot bitməz**. **(durunmaq:** başlamaq. təşəbbüs, iqdam edmək).

-odun qırmayana**, od yaxtırma**.

-**ot, göy yeməklə yetinmək:** otluqmaq. göygüləmək. göyəçimək. giyahxarlıq, vejetaryənlik edmək.

ot **od** -qorsun olub, od qorunca, kül olub, köz qora..

-**od olsa dört yan**, yeriyiz yayan, tipidən yılman **(tipidən yılman**: tufandan qorxman). (**yayan**: piyada)..

-bitirən otu, gurlatın deyil, yağmasa yağış, **ot bitən deyil**. (gurlatın: guruldama). (bitirən otu, yağan yağmur, göy gurlayar özü başına). (qulaq doldurmaqla, ağz açıb bağırmaqla, iş yeriməz, peşə bitməz, qarın doymaz. işi işləmək, çörəyi dişləmək gərək)..

-kitos olan dos sandığın, **pambıq içrə, od sandığın**. (**kitoz**: iki üzlü). (**dos sandığın**: dosd hesabladığın). (**od sandığın**: od ambarın)..

-**oda qorsun olunca**, köz üstünə, kül ol..

-**od ürəkli** tünc ürekli. tovunc ürəkli.-**od bürüsə**, yaş qurur, yalan qalxsa, düz durur. (od yaşı, otu enir, üstəlir.).(**qalxsa**: ayaq tutsa). (**durur**: qalxır. gedir). {(yalan gircək qapıdan, doğru qaçmış, yapıdan. (**yapıdan**: gizlicə. dal qapıdan)}.

ot **od**. **1**. ortun. **-**dözün birlə ərişgil, **ortun birlə duruşma**. (odla oynamaqdansa, dözmək yeğdir). **1**.küz. küy. köz. qor. ışıq.
-od püsgürən dağ: yanardağ. atəşfişan dağ. volkanik.
-dil ötən yerdən **od ötməz**. **-**qayğı əri, **od yağı əridər**. (**qayğı**: fikir xiyal).
-sənin köyün mənim köydən, bir yaşqadır ayıran, **tutursa od**, əsirsə yel, qalxar yaşıq, bu ayrıcı qayıran!. (**yaşqa: yaşıq**: pərdə).
-**od** uçğundan qopar.
-boylun boylun dağları, oylun oylun yolları, saman asdan su qoyar, **daş altından od qoyar**, yalan dunya yaman dünya. (**boylun**: uca. ağır). (**oylun**: buruq. dolambac) (**su qoyar**: su yeridər).
-od düşən yerdə ot bitməz.
-sevgi yakdur, **sevgi od**, düşsə yakar canan evin!. (**düşsə yakar:** düşmüş yakar).
-**ot çayı**: göy çay. göyək çay. yaşıl çay. -**kökə çay**: qaynatılmış qoyu, rəhli çay.
-**ot alağ: ot ələf**: aşbar**.** -mal **aşbarı**.
-külsüz evdə **od qalmaz**. (od kül altda qoruna). (od küldə qorunur).
-od külə gizlənir. (od kül altda qorunar). (od küldə qorunur).

ot **od.** çoğ. coş. köz. ışıq. yalım. alov. aydınlıq. yartılıq. yarıtlıq..

-**altunu od sınar**, əri altun..

-od daşı yarar, daş, başı..

-od uçğundan qopar. (**uçğun**: qoğ. qığocılğım).

ot **od.** qor: köz. (# **kül**. **kör**)..

-mum olub yananda mən, **od olub yaxanda mən**, ürəkdə mən, körükdə mən, yalnızlıq dışar durar, içimdəki ürək vurar..

-**kağızla od yığılmaz..**
-od ilə su, əldə ikən yaradır, əldən aşdı, biri yaxar, biri boğar. (**yaradır**: faydadı).
-altunu od sınar, əri altun..
-**alov, od qovmaq:** alqovmaq**.** alqamaq. yılqovmaq. yılqamaq. yelgəmək. selgəmək. iticə çapmaq..
-**düdsüz od:** altdan işləyən..
-**yoncaya oxşar ot:** kirinqan. kilincan.

ot -saman altdan od vermək. (çox cıvıldızlıqla, bildirmədən olmasın işlər görmək)..
-**ot kök üstə** bitər**..**
-dözüm acı ot durur, canı yaxar, canı yoğar. (**yoğar**: dincəldər. derman eder)**..**
-od daşı yarar, daş başı.

ot -**dadıcı ot**: ədviyə. çaşnı (< **saçnı)**. (yeməyi dadlandırma üçün üzərinə, içinə saçılan dadıcı ot, ədvüyə, nərsə)
-qış **qonağın od olsun**.
-ölü keçi sudan qorxmaz, **od yanmasa tüstü qopmaz**.
-**od qurdu**: **köz qurdu**. gec ışın. gecə çırağı. (kirmi şəbtab).
-**od su**

ota dərman. darı. ilac.

ota muxəddirə. dıroq.

ota -**oda qılınc** ilə yügürmə..
-**başoda**: şəxsi otaq. .

ota **oda**. **1**.**(od** + **a**. atəşə özəl yer**)**. odluq. cəhənnəm.**1**.**odaq**. **otaq**.**1**. kanun. mərkəz. mehraq. **1**. fokus. fiks nuxdəsi..
-**başoda**: tənəbi. qonağ otağı**..**
-ayrıq oda: məxsus otaq..
-**açıq oda**: qonağ otağı**..**
-yatağ odası: yatnağ..
-yerə düşən gül olar, **oda düşən kül**.

ota **oda**. orta. mərkəz

ota **oda**.**-oda qızanda var**, küyəndə. (**küyəndə**: yananda).
-oda qızan kim, küyən kim. (**küyən**: yanan)**.**
-oda qapılan kül olar.
-baxma buzun sətliyinə, oda sudan olmuş.

ota 1.**oda. odqa.** -**odqa qarşı**: **oda qarşı.** ziddi atəş. 1.**ota.** -**otqa qarşı**: **ota qarşı. alağa qarşı.** ziddi ələf.
-**qərqəmişdən, xəsil aşaldan, çubuğ çıpığdan yapılmış oda:** çığat. alaçığ. alaçiğ. çardağ.
-**düdə, oda gedmək:** külə dönmək.

otabaşı -evdə odabaşı, çöldə obabaşı. (hər yanda sözü keçən kişiyə söylənir). (hər yanda başına buyruq kimsə).

otabaşı odabaşı. kabinə başı.

otac **1**.hücrə. xanə.**1**.**odac**. (**odçatı**) odla işləyən nərsələrin odluq bölümü. odluq. tulanbar. atəşxana.

otac **-**bilməz otac, can alar. (**otac:** həkim)

otac **otaran**. **otarçı**. **oturçu**. (heyvanları). çoban. güdən.
(**siba** (**sumer**): pastör).

otacıq **odacıq**. kadr. ort. yurd. hücrə. **çəko**. (< **çəkmək**). -**baş çəko**: başlıq yazılan kadr.

otaç çoğaç. antivirus.

otaçı **1. odaçı**. ayağçı. **1**. otaçın. döhdür.

otaçı çatman. çatırman. əczaçı. davaxanaçı.

otaçın otaçı. döhdür.

otaq **otağ** (**od**). təşviş.

otaq -otağ çatrası uşağlar yox, yaşlılar, qonağlar oturur. (**çatra**: bir yerinə ən uca, yuxar yeri).

